"Elə bil dinc durmuz göylərin əli,
Günəşi nar kimi sıxar dənizə"

və yaxud

"Ağaclar qorxulu bir yuxu görər,
Yarpaqlar sübhədək sayıqlayarlar"



Məmməd İsmayıl bax budur. Bu manzərəni, ancaq şair görə bilər.

–Niyə efirlərdə görünmürsünüz? Elə bil yoxsuz, amma oxuyanda başqa manzərə çıxır qarşımıza.

– Hə... Tələbəlik illərində tələbə yoldaşım Elçin Mehrəliyev deyirdi ki, İslam, öz şeirlərinin yiyəsi deyilsən. O vaxt onun dediyinin fərqinə varmirdim. İndi görürəm ki, düz deyirmiş. Mənim bəlkə də çalışmayan tərəfimdi. Televiziyada, radioda məni bir neçə dəfə çəkib göstəriblər, minnətlə xahişlə... Görüşlərə getmirdim. Günah özümdədir.

– Təbiətlə bağlı bir sıra şeirlərinizlə tanışıq. Ümumiyyətlə təbiətə münasibətiniz necədir?

– İnsan təbiətin bir parçasıdır. Nə zaman ki insan ondan özünü ayırdı, təbiətlə öz arasına sədd çəkdi- fəlakət başlayır.

Budaqlar göylərə həyqıran əllər,
Meşələr viranə şəhərdi, Allah!
Qayalar dibində titrəşən güllər
Qarıyan qızlardı-qəhərdi, ALLAH!

–Yaradıcılıqla bağlı gələcək planlarınız haqqında bilmək istərdim...

– "Qaranlıqlar" adlı poema üzərində işləyirəm. Mənim bəlkə də ən böyük və ən yaxşı yazım olacaq... həm də oxucu bu əsərdə virtual aləmə səyahətə çıxacaq. Çox açıqlama vermək istəmirəm.

–Sonda gözəl bir şeir parçasıyla söhbətimizi bitirsək, çox gözəl olardı...

Bu gecə yuxuma gəlmişdin, gözəl
Sən məlhəm olmuşdun dərdi-sərimə
Başımı qoymuşdum köksünə elə
Ətrini çəkirdim ciyərlərimə...

Bu gecə yuxuma gəlmişdin, gözəl
Heç belə deyildim ilk baharımda...
Əllərim , qollarım banövşə idi,
Qızılgül açmışdı ağ saçlarımda...

Bu gecə yuxuma gəlmişdin, gözəl
Çökmüşdün ruhuma ağ duman kimi...
Necə bəxtəvərdim, necə gözəldin...
Şirin xəyal kimi, xoş güman kimi...

Bu gecə yuxuma gəlmişdin, gözəl
Bu xəyal dumanda itmək nə gözəl...
Batıb ağuşunda bəxtəvərliyin
Getmək... uzaqlara getmək nə gözəl...

Nəzrin Cavid

Resim 23: İslam Türkay'ın Nezrin Cavid ile yaptığı roportaj

- **Memmed Aslan:**

Türkay'ın *Éşqim Menim Dar Ağacım* adlı şiir kitabının redaktörlüğünü yapan Memmed Aslan'ın kitap için yazdığı ön söz dikkatlere sunulmuştur:

"Boz Sehrada Yol Gözleyen Ağaclar Kimi

Coratda Borçalı Oruc Elizadenin bağından ilahi bir inilti zirvelerden atlanan dağ çayı kimi başını daşdan-daşa vurub çırpınırdı.Yér de, göy de olan-qalan nefesini içine çekmişdi. Dünyanın yarısı bu iniltiden qaysaq bağlamışdı, ikinci bir ses-seda, ayrı bir cınqırçekme Edalet sazının dünya nizamını pozar, ürekler çetin tab getirerdi… Cürete bax ki, bu müqeddes "Yanıq Keremi" iniltisinin léysanı altından ikinci bir üreyin döyüntüleri çırpındı, dalğalandı, erşe bülend olmağa üz qoydu. İşe bax ki, bu çırpıntı Keremin iniltisini şekillendirmeye, bu ilahi kederi, gözle görünen, elle tutulan görüntülere çévirmeye başladı.

Yéne dilim-dilim yandın, eridin,
Qalxıb alov-alov erşe yéridin.
Sineme dağ çekdin, oda bürüdün,
Meni de éledin Kerem, Edalet.

İslam Türkayın lirik dünyasına bu pencereden üz tutmağım éle-béle gelişigözel bir başlangıc déyil. Şéirin müxtelif qeliblerinde könül duyğularını dile getiren bu şair her misrasını dünyamıza iman kimi hopan bir havadan, havacatdan sıyırıb çıxarır-ona göre de onun lirikası özlüyünde döyünen, çırpınan, musuqisini nefesinde getiren lirikadır. Bizim eyaletlerden yol başlayıb, daş-torpağımızdan dikelib edebiyyata gelmek isteyenlerde şéirin bu ruhi halı özünü çox qabarıq göstermekdedir. Demirçiler Qazağın o qeder de meşhur, gurrah kendlerinden déyil. Öyünmeye de elinde éle bir tutalğacı yoxdu. Élece onunla qürrelenib ki, bu kendin esasını Çingiz Xanın neslinden olan bir eren kişi qoyub. Kend uzun iller boyu saza-söze sarılıb toy-mağarda méydan sulayan oğullar yétirib-bunlar éle ha çalışıblar ki, tanışlıq çévresini böyütsünler. Bu, beşeri bir canatmadı. Amma tekce can atmaqla metleb hasil olmur. Gerek üreyindeki buna çatsın. Bu yönde kend béle qabil bir oğlunu doğmağa heveslenib… heveslenib… Axır ki dileyi çin olub.

İslamın doğma kendden ayrıldığı xéyli zamandı. Amma élece cism ayrılıb, can ayrılmayıb. Esas olan candı! Bu can gözle görünen, tesevvürde canlanan can déyil, ruhdu insanı insan éleyen, xalqı millet mertebesine qaldıran, ruh! İslamın şéirlerinde ruhunun ilkinlik yuvası o kend-kesek, o él-oba çox isti bir mehebbetle dile getirilir.

Ümid tutub elimizden, çekib gédirdi.
Güneş énib gözümüzden baxası idi.
Aylar, iller ömrümüzü söküb gédirdi
Sabah… sabah qanadımız çıxası idi…
Boz sehrada yol gözleyen ağac kimiydik,
Öten bulud gözlerini sıxası idi.
Héyif, vedler innen béle meni ovutmaz,
O günlerim bir de dönmez, bir de qayıtmaz.

Ata yurdun yériynen, göyüynen, suyuynan, torpağıynan… acısıynan, şiriniynen hopub övlad toxumalarında yaşamasıdı bu! Arzuladığı qanad çıxdı, tüklendi, berkidi-o qanad üstünde arzularının arxasınca şair Xezer sahilinde özüne yéni bir yuva qurdu. Bes indi ne isteyir?!

Üz qoyduğum torpaq élim, Vetenim!
Çörek çıxan yére Veten démerem.
Anam öyretdiyi dilim-Vetenim
Meni sıxan yére Veten démerem!

Şair üçün daha nedir Veten duyğusu?-"Bir parça Vetendir Füzuli qebri", "Vetende vetensiz yaşayanları-saralan görmüşem, solan görmüşem", "Millet var utanmaz-utanmaz hele--qan tökdüyü yéri "Veten" çağırır"; "Qoca Savalanın esen küleyi, yanan ocağının hisi Vetendi"… "Vetendir oxuyan sedefli sazım"… "Vetendir "atacan" déyen bu uşaq…" Veten üstünde köklendiyinden dünyada ne görürse, onu Vetenin cüzi bir parçası şeklinde gören şair "Çeyirdekden" "behreye" géden yolu çox hessaslıqla menalandıra bilir. İslamın şéirinden-şéirine kéçdikce bir şair ömrünün az qala bütün dönümünü—döngesini göre bilirsen. Bu menada, onun ilkinliye tapınan şéirlerini ardıcıl düzsen, bir nöqtesi de qéyb olmayan canlı heyat hékayesini "berpa" éde bilirsen:

Uçurumda biten velesdim,
Derin qatlara telesdim.
Qılınctek qınımı kesdim
Sévgim mene qenim oldu.

Dünyada en ülvi duyğu béle sene qenim kesilirse, ömre-güne yazıq! Bu da bextin getirmesidi: edebi talélerde éle insafsız, éle amansız meqamlar, tufanlar görmüşem ki!

Mene qalan: ağrım-acım,
Sévgim mene qenim oldu…
Éşqim-menim dar ağacım,
Sévgim mene qenim oldu.

Şairin heyat müşahideleri ve burada ağıl gözünün séçdiklerini poétik menalandırma bacarığı çox qüvvetlidir. Davarı, qoyun-kéçini çoxlarımız tanıyırıq ve ondan en çox terennüme yazılarda méydan vérmişik. Görünür, İslam bu yönde bizden seriştelidir:

Yastı quyruqları başından ağır
Qırxılar, sağılar, satılar… dinmez.
Sebirli, temkinli, abırlı, fağır…
Özge sürülere qatılar… dinmez
Baba, bu qoyunlar mene tanışdı.

Duyub yaşamaqdan çetin ne var ki?! Dünya ile altıda alacağı, yéddide véreceyi olmayanların ne vécine?!-Öz derinin içinde, éle dünyanı da birce béle-öz tutumun qeder hiss éle, he, onda işin sarıyar. Bélelerini öz şexsi müşahideleri esasında İslam néce de öldürücü damğalayır:

Sen törpü deymemiş dişli hevesen,
Büllur ruhumuza düşen güvesen…
Özün öz gözünde filsen, devesen:
Ayıl, xırdalığın darıdan kéçib.

Obyékte bu hessas nüfuz étme İslamın ekser şéirinde derhal nezere çarpır. Şair qırmaclayanda son hedde qeder döyür, çırpır; oxşayanda, sığal çekende nefesi bahar nesimine dönür. Esrin sonuna yaxın nefsi daralan dünyamızın ovqatı hamıya darheveslilik getirir-özü de bunu néce inandırıcı şekilde oxucusuna teqdim éleyir:

O géce yuxuda Babeki gördüm,

Dédi: dözemmirem, qebrim daralıb.
Ayıldım ses geldi; -Ay arvad, kiri,
Allaha and olsun, sebrim daralıb…

Bu can sıxıcı günlerimizi, bu seheri açılana oxşamayan géce ovqatımızı şair veziyyetin öz tünd boyaları ile tesvire çalışır. Géce şairlerin dostudur. Yaranmış en yüksek edebi eserlerin çoxunun anası gécedir. Vay o güne ki, şairin géceden zehlesi géde!-Démeli, irtica başlayıb, zülm erşe bülend olub. Bu géce tekce axşamdan sonra çöken qaranlığın adı déyil. Günortadan, lap seherin özünden başlayan menevi géceler olur.

Çayların suları qandı,
Bu arx bu suyu götürmez…

Şair hiddetiyle qezebini qaldırır ki: çerxin nizamı çévrilib. Az qala qütblerin yéri deyişik düşüb. Hezreti Mehemmed "Qiyamet ne zaman qopacaq?" déye soruşanlara déyir ki: onu men de bilmirem, amma qiyametin yaxınlaşdığını gösteren elametleri sadalayaram: iqtisadi tenezzül başlayacaq… cinayetler açıq-aşkâr işlenecek… Şer xéyire qelebe çalacaq… Varlılara ancaq varlı olduqları üçün hörmet gösterilecek… Allah göstermesin, xeyal küsdüren, elimizi işden-gücden soyudan bu Allahsız işdekler olmaya éle péyğemberin gösterdiyi qiyamet elametleridir. İslamın derdi néce de o ulu sözünü yada salıb:

Qoyunlar çapıb talayır,
Qurdlar ot otlayır daha.
Uzunqulaq qoca şirin
Dizini qatlayır daha:
Bu arx bu suyu götürmez!

Péyğember insafında, şair vicdanında, elbette, "bu arx bu suyu götürmez"… Götürürse, bes néce olsun?! Onunçünmü ömür-gün béle ucuzlaşdı göresen?... İstédadlı şairimizin bir misrasından yapışıb çox asanlıqla son misrasına qeder bélece duyğular tufanında yol gétmek olar. Oxucunun serbest düşüncelerine mané olmayım déye, bu yérde qelemi yére qoymağı üstün tutdum".



БОЗ СӘҺРАДА ЈОЛ КӨЗЛӘЈӘН
АҒАЧЛАР КИМИ...

Чоратда борчалы Оруч Әлизадәнин бағындан илаһи бир инилти зирвәләрдән атланан дағ чајы кими башыны дашдан-даша вуруб чырпыныр ды. Јер дә, көј дә оланган нәфәсини ичинә чәкмишди. Дүнјанын јарысы бу инилтидән гајсаг бағламышды, икинчи бир сәс-сәда, ајры бир чынгырчәкмә Әдаләт сазынын дүнја низамыны позар, үрәкләр чәтин таб кәтирәрди...

Чүр'әтә бах ки, бу мүгәддәс «Јаныг Кәрәми» инилтисинин лејсаны алтындан икинчи бир үрәјин дөјүнтүләри чырпынды, далғаланды, әршә бүләнд олмаға үз гојду. Ишә бах ки, бу чырпынты Кәрәмин инилтисини шәкилләндирмәјә, бу илаһи кәдәри, көзлә көрүнән, әллә тутулан көрүнтүләрә чевирмәјә башлады.

Јенә дилим-дилим јандын, әридин,
Галхыб алов-алов әршә јеридин.
Синәмә дағ чәкдин, ода бүрүдүн.
Мәни дә елədин Кәрәм, Әдаләт.

Ислам Түркајын лирик дүнјасына бу пәнчәрәдән үз тутмағым елә-белә кәлишикөзәл бир башланғыч дејил. Ше'рин мүхтәлиф гәлибләриндә көнүл дујғуларыны дилә кәтирән бу шаир һәр мисрасыны дүнјамыза иман кими һопан бир һавадан, һавачатдан сыјырыб чыхарыр — она көрә дә онун лирикасы өзлүјүндә дөјүнән, чырпынан, мусигисини нәфәсиндә кәтирән лирикадыр. Бизим әјаләтләрдән јол башлајыб, даш-торпағымыздан дикәлиб әдәбијјата кәлмәк истәјәнләрдә ше'рин бу руһи һалы өзүнү чох габарыг көстәрмәкдәдир.

Дәмирчиләр Газағын о гәдәр дә мәшһур, курраһ кәндләриндән дејил. Өјүнмәјә дә әлиндә елә бир туталғачы јохду. Еләчә онунла гурәләниб ки, бу кәндин әсасыны Чинкиз ханын нәслиндән олан бир әрән киши гојуб. Кәнд узун илләр боју саза-сөзә сарылыб тој-мағарда мејдан сулајан оғуллар јетириб — бунлар елә һа чалышыблар ки, танышлыг чеврәсини бөјүтсүнләр. Бу, бәшәри бир чанатмады. Амма тәкчә чан атмагла мәтләб һасил олмур. Кәрәк үрәјиндәки буна чатсын. Бу јөндә кәнд белә габил бир оғлуну доғмаға һәвәсләниб... һәвәсләниб... Ахыр ки, диләји чин олуб.

5

Resim 24: İslam Türkay'ın *ÉMDA* kitabı için Memmed Aslan'ın yazmış olduğu ön sözün görüntüsü



Исламын доғма кәнддән ајрылдығы хејли заманды. Амма еләчә чисм ајрылыб, чан ајрылмајыб. Әсас олан чанды! Бу чан көзлә көрүнән, тәсәввүрдә чанланан чан дејил, руһду инсаны инсан еләјән, халғы милләт мәртәбәсинә галдыран, руһ! Исламын ше'рләриндә руһунун илкинлик јувасы о кәнд-кәсәк, о ел-оба чох исти бир мәһәббәтлә дилә кәтирилир.

Үмид тутуб әлимиздән, чәкиб кедирди.
Күнәш ениб көзүмүздән бахасы иди.
Ајлар, илләр өмрүмүзү сөкүб кедирди
Сабаһ... сабаһ ганадымыз чыхасы иди...
Боз сәһрада јол көзләјән ағач кимијдик,
Өтән булуд көзләрини сыхасы иди.
Һејиф, вә'дләр иннән белә мәни овутмаз,
О күнләрим бир дә дөнмәз, бир дә гајытмаз.

Ата јурдун јеријнән, көјүјнән, сујујнан, торпағыјнан... ачысыјнан, ширинијнән һопуб өвлад тохумаларында јашамасыды бу! Арзуладығы ганад чыхды, түкләнди, бәркиди — о ганад үстүндә арзуларынын архасынча шаир Хәзәр саһилиндә өзүнә јени бир јува гурду. Бәс инди нә истәјир?!

Үз гојдуғум торпаг елим, Вәтәним!
Чөрәк чыхан јерә Вәтән демәрәм.
Анам өјрәтдији дилим — Вәтәним
Мәни сыхан јерә Вәтән демәрәм!

Шаир үчүн даһа нәдир Вәтән дујғусу? — «Бир парча Вәтәндир Фүзули гәбри», «Вәтәндә вәтәнсиз јашајанлары — саралан көрмүшәм, солан көрмүшәм», «Милләт вар утанмаз-утанмаз һәлә — ган төкдүјү јери «Вәтән» чағырыр»; «Гоча Саваланын әсән күләји, јанан очағының һиси Вәтәнди»... «Вәтәндир охујан сәдәфли сазым»... «Вәтәндир «атачан» дејән бу ушаг...» Вәтән үстүндә көкләндијиндән дүнјада нә көрүрсә, ону Вәтәнин чүз'и бир парчасы шәклиндә көрән шаир «Чәјирдәкдән» «бәһрәјә» кедән јолу чох һәссаслыгла мә'наландыра билир.

Исламын ше'риндән-ше'ринә кечдикчә бир шаир өмрүнүн аз гала бүтүн дөнүмүнү — дөнкәсини көрә билирсән. Бу мә'нада, онун илкинлијә тапынан ше'рләрини ардычыл дүзсән, бир нөгтәси дә гејб олмајан чанлы һәјат һекајәсини «бәрпа» едә билирсән:

6

Resim 25: İslam Türkay'ın *ÉMDA* kitabı için Memmed Aslan'ın yazmış olduğu ön sözün görüntüsü (devamı)



Учурумда битән вәләсдим,
Дәрин гатлара тәләсдим.
Гылынчтәк гынымы кәсдим
Севким мәнә гәним олду.

Дүнјада ән үлви дујғу белә сәнә гәним кәсилирсә, өмрә-күнә јазыг! Бу да бәхтин кәтирмәсиди: әдәби талеләрдә елә инсафсыз, елә амансыз мәгамлар, туфанлар көрмүшәм ки!

Мәнә галан: ағрым-ачым,
Севким мәнә гәним олду...
Ешгим — мәним дар ағачым,
Севким мәнә гәним олду.

Шаирин һәјат мүшаһидәләри вә бурада ағыл көзүнүн сечдикләрини поетик мә'наландырма бачарығы чох үвәтлидир. Давары: гојун-кечини чохларымыз таныјырыг вә ондан ән чох тәрәннүмә јазыларда мејдан вермишик. Көрүнүр, Ислам бу јөндә биздән сәриштәлидир:

Јасты гујруглары башындан ағыр
Гырхылар, сағылар, сатылар... динмәз.
Сәбирли, тәмкинли, абырлы, фағыр...
Өзкә сүрүләрә гатылар... динмәз
Баба, бу гојунлар мәнә танышды.

Дујуб јашамағдан чәтин нә вар ки?! Дүнја илә алтыда алачағы, једдидә верәчәји олмајанларын нә вечинә?! — Өз дәринин ичиндә, елә дүнјаны да бирчә белә — өз тутумун гәдәр һисс елә, һә, онда ишин сарыјар. Беләләрини өз шәхси мүшаһидәләри әсасында Ислам нечә дә өлдүрүчү дамғалајыр:

Сән төрпү дәјмәмиш дишли һәвәсән,
Бүллур руһумуза дүшән күвәсән...
Өзүн өз көзүндә филсән, дәвәсән:
Ајыл, хырдалығын дарыдан кечиб.

Објектә бу һәссас нүфузетмә Исламын әксәр ше'риндә дәрһал нәзәрә чарпыр. Шаир гырмачлајанда сон һәддә гәдәр дөјүр, чырпыр; охшајанда, сығал чәкәндә нәфәси баһар нәсиминә дөнүр.

Әсрин сонуна јахын нәфси даралан дүнјамызын овгаты һамыја дарһәвсәлилик кәтирир — өзү дә буну нечә инандырычы шәкилдә охучусуна тәгдим еләјир:

Resim 26: İslam Türkay'ın *ÉMDA* kitabı için Memmed Aslan'ın yazmış olduğu ön sözün görüntüsü (devamı)



О кечә јухуда Бабәки көрдүм,
Деди: дөзәммирәм, гәбрим даралыб.
Ајылдым сәс кәлди: — Ај арвад, кири,
Аллаһа анд олсун, сәбрим даралыб...

Бу чансыхычы күнләримизи, бу сәһәри ачылана охшамајан кечә овгатымызы шаир вәзијјәтин өз түнд бојалары илә тәсвирә чалышыр.

Кечә шаирләрин достудур. Јаранмыш ән јүксәк әдәби әсәрләрин чохунун анасы кечәдир. Ваj о күнә ки, шаирин кечәдән зәһләси кедә! — Демәли, иртича башлајыб, зүлм әршә бүләнд олуб. Бу кечә тәкчә ахшамдан сонра чөксәјән гаранлығын ады дејил. Күнортадан, лап сәһәрин өзүндән башлајан мә'нәви кечәләр олур.

Чајларын сулары ганды,
Бу арх бу сујү көтүрмәз...

Шаир һиддәтијлә гәзәбини галдырыр ки: чәрхин низамы чевриліб. Аз гала гүтбләрин јери дәјишик дүшүб. Һәзрәти Мәһәммәд «Гијамәт нә заман гопачаг?» дејә сорушанлара дејир ки: ону мән дә билмирәм, амма гијамәтин јахынлашдығыны көстәрән әламәтләри садалајарам: игтисади тәнәззүл башлајачаг... чинајәтләр ачыг-ашкар ишләнәчәк... Шәр хејирә гәләбә чалачаг... Варлылара анчаг варлы олдуглары үчүн һөрмәт көстәриләчәк...

Аллаһ көстәрмәсин, хәјал күсдүрән, әлимизи ишдән-күчдән сојудан бу Аллаһсыз ишдәкләр олмаја елә пејғәмбәрин көстәрдији гијамәт әламәтләридир. Исламын дәрди нечә дә о улу сөзүнү јада салыб:

Гојунлар чапыб талајыр,
Гурдлар от отлајыр даһа.
Узунгулаг гоча ширин
Дизини гатлајыр даһа:
Бу арх бу сујү көтүрмәз!

Пејғәмбәр инсафында, шаир вичданында, әлбәттә, «бу арх бу сујү көтүрмәз»... Көтүрүрсә, бәс нечә олсун?! Онунчүнмү өмүр-күн белә учузлашды көрәсән?...

Исте'дадлы шаиримизин бир мисрасындан јапышыб чох асанлыгла сон мисрасына гәдәр беләчә дујғулар туфанында јол кетмәк олар. Охучунун сәрбәст дүшүнчәләринә мане олмајым дејә, бу јердә гәләми јерә гојмағы үстүн тутдум.

МӘММӘД АСЛАН

Resim 27: İslam Türkay'ın *ÉMDA* kitabı için Memmed Aslan'ın yazmış olduğu ön sözün görüntüsü (devamı)

- **Resul Rıza**

Azerbaycan edebiyatının önemli isimlerinden biri olan Resul Rıza, "Azerbaycan Gencleri" gazetesinde genel olarak edebiyattan bahsettikten sonra üç şair hakkında yazar ve onları okuyuculara sunar. O şairlerden biri de İslam Türkay'dır. İlgili gazete yazısı şöyledir:

Yolun Başlanğıcında

Bezi oxucular, şairler ve edebiyyat araşdırıcıları arasında téz-téz müxtelif yazı şakeri, duyum, heyat hadiselerine yanaşmaq, daim özümlükleri haqqında mübahiseler, münaqişeler olur. Mence, béle höcetlerin hellinde en doğru yol edebi faktların konkrét misalıdır. Bizde novatorluq, enene, xelqilik, formalizm anlamları etrafında géden qızğın söz döyüşleri téz-téz faktlara esaslanmadığı üçün qelbe, béyne bir şéy vérmeden ancaq söz güleşdirmesi olaraq qalır.

Edebi hadiseni qiymetlendirerken ya insana xas olan tek zövqi ceheti bütün-bütüne unudur, hésaba almır. Eserin obyéktiv özü-özlüyünde var olan cehetlerini, ancaq bunları tesdiq şerti kimi götürürler. Bezen de tek zövqi duyumu hellédici sayırlar. Doğru yol budur ki, ilk növbede eserin edebi hadisesinin obyéktiv idéya-bedii uğurlarını, ya nöqsanlarını tesdiq éderken ferdi duyum amilini de unutmayasan. Müxtelif rengli, müxtelif biçimli, müxtelif etirli gülleri, çiçekleri sévmeyen adam xeyale getirmek çetindir. Lakin ayrı-ayrı şexsin konkrét bu ya başqa gülden, çiçekden daha artıq zövq aldığını, bu reng, bu qoxunu daha artıq sévdiyini kim inkar éder? Nergiz çiçeyini daha artıq sévmek inci çiçeyini inkar étmek déyildir. Qızıl gülden daha artıq zövq alan bir adamı başqa gülleri inkar étmekde töhmetlendirmek olarmı? Xalq "Könülséven göyçek olar" dédikde gözelliyin obyéktiv varlığını inkar étmir. Canlı insanın beyenim özümlüyünü tesdiq édir. Biri Füzuli poéziyasını artıq séverse Xetaini inkar étmir. Vidadini daha artıq beyenmek Vaqifin qoşmalarına, müxemmesine arxa çévirmek déyil. Esrimizin ilk illerinde yazıb-yaratmış, Sabirin evezsiz yaradıcılığını yüksek qiymetlendirmek S. E. Şirvani yaradıcılığını qiymetden salmaq déyil. Müasir şair ve yazıçılarımızdan birini daha artıq beyenmeyi başqalarına hörmetsizlik kimi qeleme vérmek en azı nadanlıqdır. Bütün bu mülahizeler melum heqiqetdir. Bunları tekrar étmeye éhtiyac varmı? Var. Şéir hevesli genclerimiz çoxdur, men déyerdim ki çoxdan çoxdur. Olsun. Bu hadise yéni déyil, xalqların edebi tarixini vereqleseniz béle halların, démek olar ki, her yérde olmuş olduğunu, bu gün de var olduğunu görersiniz. Bu yazmaq-yaratmaq hevesli adamların bir qismi zamanın süzgecinden kéçe bilmir. Bir qismi yéni hevese düşür, heyatda öz bacarıq ve imkanlarına daha uyğun yön tapır, bedii yaradıcılıq hevesinden vaxtında ayrılır (ayrılmayanlar da olur).

Eger şéir-senet hevesli genclerin bu yolçuluğunu yüksek zirveleri feth étmek isteyen alpinistlere benzetsek, bu adamların dağ eteyinde qalanları, yoxuşlarda téz yorulub qalanları olduğu kimi bacarıq ve inadı ile bütün çetinliye qalib gelenleri de olur. Mütleq olmalıdır. Yarı yolda qalanlar da, yoxuş başlanğıcında hevesden düşüb qalanlar ümumi hereketde müeyyen xéyirli iş görmüş olurlar. Hevesi imkanla sınamaq gerek olduğuna örnek vérmiş olurlar.

Bedii yaradıcılıq yoluna hevesle gelen genclerimiz ilk önce bu hevesin ne qeder ciddi, qaçılmaz olduğunu inadla yoxlamalıdırlar.

Bu heves daxili éhtiyacdanmı doğur, yoxsa bu veya başqa meişet telebinden, kéçeri sévgi qızdırmasından, ya yaradıcılıq işinin yüngül bir iş olmasındanmı?

Eger oxucuya démeli sözün (géniş menada) varsa seni nigaran qoyan duyumlar, müşahideler, fikirler, çağırışlar-ictimai mena daşıyarsa yeni yalnız senin üçün déyil, başqaları üçün de maraq doğurur, başqalarını da sévindire-qemlendire bilir, düşündüre bilir, insanları bu günün, sabahın ümidli yoluna çağırırsa, onda her çetinliye döz! Bir béş uğursuzluqdan, büdremeden qorxma! Arxayınlıqdan, tekebbürden özünü, ancaq özünü beyenmekden, hesedden uzaq ol.

Öz uğurlu işine ürekden sévindiyin kimi uğursuzluğun acısını göyneye-göyneye çekmeyi bacar. Başqalarının da teşkil édilmemiş uğurlarına sévine bil! Bunlar elli il boyunca yaradıcılıq yolundan ayrılmayan, nadan tenqidlerine dözen haqlı tenqidlerin göyneyinden qezeblenmeyen, ders götüren haqlı bildiyinden yayınmayan daim ireliye can atan, böyük-kiçik uğursuzluqdan çekinmeyen bir qelem esgerinin genclerimize lazım bildiyi sözlerdir. Men fikrimin, müddealarımın her kes üçün bir ölçü vahidi olduğunu iddia édecek qeder sadelövh déyilem - désem bunu meqsedli bir üzr isteme saymayın. Bu doğrudan da béledir. Men inanıram, inandırmaq isteyirem ki, menemlik elacsız bir xesteliyin, menevi xerçeng xesteliyinin ilk elametidir. Meşhur fransız yazıçısının dédiyi kimi "teqlidden başqa bütün janrlar yaxşıdır". Bu hikmetli fikri başqa sözle, bu gün poéziyamız haqqında dések, déyilmiş, köhnelmiş olmayan, teqlid qoxulu olmayan, ictimai deyeri patırtı-gurultu ve melum müddeaların ezberinden yoğrulmuş olmayan, xalqa, vetene, bu günümüze ve sabahımıza gerekli olan, heqiqi ilhamla seslenen bütün eserler qiymetlidir. Heyatın esas yönü ireliye, yéniliye, saflığa, yéni-yéni yaradıcılıq tapıntılarına doğrudur. İster quruculuq, istéhsalat, élm, téxnika olsun, isterse de bedii söz yaradıcılığı, musiqi, ressamlıq, téatr, kino ve s. olsun.

İstédadı şübhe doğurmayan, müxtelif sepkide yazıb yaradan genclerimizin de hamısı hamının éyni derecede xoşuna gelmez. Poétik duyumun varlığı ile déyil ferdi söz séçmek zövqü, naxışlarına, renglerin bir-birinden séçilmesi ile özünemexsus yolu olan genclerden biri daha artıq, biri daha az xoşa gele biler. İslam Ehmedov, H. Muradlı, Ehmed Memmedov. Bu adlar hele géniş oxuculara tanış déyil. Şéirlerinden bir néçe örnek vérdiyim bu genc şéir heveslilerini oxuculara teqdim étmekle men bu tanışlıq dairesini bir qeder génişlendirmek isteyirem. Bu genclerin hem teqdire, hem meslehete deyer şéirleri var.

İslam hem serbest hem de héca veznli şéirler yazır. Her iki halda onun uğurları var. Bu genc şéir heveslisi haqlı olaraq mezmunun teleblerini esas götürür. Onun yazılarında bezekli, gurultulu, tem teraqlı cümlelerle diqqeti celb étmek méyli yoxdur. Bu, yaxşıdır.

Ehmed Memmedovun yazıları onun serbest şéir yoluna daha artıq méyl étdiyini gösterir. Ehmed univérsitétin méxanika-riyaziyyat fakultesinde tehsil aldığı illerden şéire heves göstermiş, uzun müddet yazdıqlarını bir adama göstermemişdir. Bu il o, Moskvada Merkezi İqtisadiyyat Riyaziyyad İnstitutunun aspiranturasını bitirecekdir. Onun yazılarında tématik müxteliflik daim konkrétlik, orijinallıq bu gencin geleceyine ümid vérir.

H. Muradlının kim, neçi olduğunu bilmirem. Onun şéirleri maraqlı duyum mehsuludur. Muradlının bilik ve maraq dairesinin génişliyi görünür.

Yaxşısı budur ki, bu üç şéir heveslisinin yazılarından bir néçesini oxuculara teqdim édek. Bu yazılar ne "bax, béle yazmaq gerekdir" hökmüne esas vérir, ne de étinasızlığa.

Resul Rıza (Azerbaycan gencleri qezéti - 12.02.1977)

Orda Bir Söyüd Gördüm

Orda bir söyüd gördüm,
Télleri onunki tek
Bir qulac kemend idi...
Birce hime bend idi.
Yamanca kövrek idi,
Héyif, héyif tek idi...

Orda bir söyüd gördüm,
Télini yélleyirdi.
Éle héy oxuyurdu,
Bilmedim ne déyirdi...

Orda bir söyüd gördüm,
Tutulmuşdu dilleri...
Saralmışdı télleri...
Orda bir söyüd gördüm,
Télleri onunkitek...
Yamanca kövrek idi,
Héyif, héyif, tek idi!..
Yollara boylanırdı,
Alışırdı, yanırdı...
Belke, O idi, yalqız?..
Ax, ay payız, ay payız...

Gel, Ay Bahar...

Qayaların buz salxımı gilelendi
Derelere,düzenlere gül elendi...
Qış göylerde şimşeklerle güllelendi,
Bahar geldi....
Gel, ay bahar!!!

Güneş yédi lal suların qaymağını,
Alışdırdı çöller lale çırağını...
İl çévirdi yéne yaşıl varağını,
Bahar geldi...
Gel, ay bahar!!!



ЈОЛУН БАШЛАНҒЫЧЫНДА

Рәсул РЗА.

Resim 28: Resul Rıza'nın Azerbaycan Gencleri gazetesinde İslam Türkay'la ilgili yazdığı yazı

- **Muxtar İmanov:**

Muxtar İmanov, İslam Türkay'ın şiirlerini, sanatını değerlendirdiği bir gazete yazısı yazmıştır:

Ürekden Gelen Sesle

İslam Türkay'ın telebelik çağlarından gördüyüm insanlığı "Yazıçı" neşriyyatının "Arxada Hesret Var" adıyla buraxdığı kitabdakı yazılarda da aydın duyulmaqdadır (Men "insanlıq" sözünü burada bilerekden işledirem ve bununla şairlik, hemçinin alimlik arxasında adamlıq endazesinden çıxanlara qarşı olduğuma da işare édirem). Kitabı oxuyuram ve sévinirem ki, İ. Türkay on-on béş il bundan qabaq ürekden gelen bir sesle şé'r déyen, ürekden gelen bir edeb-erkânla saz çalan ağır tebietli İslama xeyanet élemir. İ. Türkay mümkün qeder qondarma sesini ve kederden: "men her şeyi bilirem gelin size de öyredim" iddiasından uzaqlaşmağa çalışır.

Sözün doğrusu o zaman yaranır ki, duyduğunu, yaşadığını, esl mahiyyetine vardığını yazasan. Ürekden kaqıza qederki uzun ve çetin bir yolda öz duyduqlarından, inandıqlarından üz döndermeyende, yalan adlı "yosma bir dilbere" uymayanda min defe yazılan mövzuları béle özünehas bir şekilde şé're getire bilirsen. Öz duyduqlarına güvenmeyin neticesidir ki, İ. Türkay veten mövzusunu gözel tebietli, xoşbext heyatlı (hansısa şé'rden "eceb ağ gündedir menim vetenim" misrası düşür yadıma) odlar diyarına é'lani-éşq söylemek kimi qebul élemir. Bunun evezine méşeleri qırılan, torpağı keç kimi daşınıb yandırılan qem oylağı bir dağdan söhbet açır ("Bu dağ dağımdır menim") serveti talanan, suyu, havası zeherlenen Xezere ağı déyir ("Xezer haqqında düşünceler").

İ. Türkayın poétik aleminde doğru sözün bedii söz biçiminde oxucuya çatdırılmasıdır. Ye'ni dédiyin doğru söz bedii déyilse, sadece olaraq ritm ve

qafiye gücüne fikri fikre calamaq üzerinde qurulubsa, onda sen metleb arxasında gizlenib şé'rin ilkin teleblerinden birini pozursan, şairlik evezine publisistlik éleyirsen. Şé'rde çılpaq publisistika yolunu tutmaq yeqin İslam üçün çetin olmazdı, en azı ona göre ki, o, jurnalistika fakültesini bitirib, jurnalistdir. "Arxada Hesret Var" kitabında bedii helli uğurlu tapılmayan "Veten", "Kin Dağarcığı", "Koroğlu Dübeyti" kimi yazılar da var. Lakin hemin yazılar kitabdakı "Bu Gün Sabah", "Ata Yurdum Qayıtmışam", "Arxada Hesret Var", "Nağıl", "Menmi Günahkaram, Senmi Günahkar", "Seni Düşünürem", "Menden Uzaqdasan" ve s. şé'rlerin, "Kölgeler" poémasının bedii te'sir gücünü azaltmır. Bu eserlerdeki bediilik tekce onda déyil ki, müellif ayrı-ayrı misralarda orijinal mecazlar işledir. Buna qalsa, uğursuz saydığım yazıların özünde de maraqlı misralar tapmaq olar: bulanlıq sél kimi axır vaxt, zaman, ilan tek dilimi çıxarmalıyam ("Veten"). Kitabdakı uğurlu nümunelerin bediiliyi daha çox metnin bir bütöv, tam kimi qurulmasına qida véren düşünce terzinde, özünemexsus me'nalandırma formasındadır. Bu baxımdan, mence, İ. Türkay yaradıcılığının en maraqlı ve gelecekde davam ve inkişaf étdirilmesi vacib olan cehetlerinden biri odur ki, müellif metleb haqqında danışmaqdan daha çox, hemin metlebin doğurduğu ovqatı, psixoloji meqamları eks étdirmeye üstünlük vérir ("Veten") şé'rinin bütövlükde istenilen seviyyede olmasının bir sebebi de, görünür, mehz veten nedir? sualına cavab vérmek kimi besit bir méylle bağlı olub). "Bu Gün Sabah" şé'rinde sıxıntı hissi ön plana çekilir: qoca qursağının, vaxt-ve'desinin daraldığından giléylenir, Babek qebrin darlığına dözmür, uşaq yataq yérinin, eynindeki köyneyin, başındakı papağın darlığından narazıdır, qonşunun sebri tükenib ve bütün bunlardan agah olan lirik qehremana éle gelir ki, köksü daralıb, üreyi sıxılır. Bu sıxıntı hissi şé'rde ömrün serhedlerine é'tiraz kimi seslenir, insanın her cür hüdudları aşa bilmek isteyi lirik-psixoloji biçimde tekdim édilir. Azadlıq teşnesi, zaman ve mekân darısqallığına tabsızlıq, ömür-gün çerçivelerinden çıxmaq imkansızlığı, dövrün ve mühitin tezadları qarşısında düşünüb-daşınmaq kitabda bu veya diger şekilde şé'rden-şé're, poémadan-poémaya géçen motivler kimi diqqeti celb édir, uşaqlıq çağları lirik qehremanı bir de ona göre çekir ki, o çağlarda:

İxtiyar bol, ümidler bol, vaxt da bol idi,
Arxada yol, qarşıda yol, her yan yol idi.
(Ata yurdum, qayıtmışam)

Qebir növbesinde de basabas olan şeherle müqayisede dağlar qucağını müellif bir de ona göre idéallaşdırır ki, orada céyran üçün bağlı yol yoxdur, céyran ömrü saatların elinde déyil. Başqa sözle, mekan-zaman hüdudlarından xebersiz olan céyran ömrü hardasa bir xoşbextlikdir ("Behmen Vetenoğluna").

Her addımda vaxtın qıtlığı, yolların géçilmezliyi ile üzleşen lirik qehreman "gédimmi, qalımmı?" sualları qarşısında dayanır, özünü derk anları keçirir:

Bu vaxtın elinden
qaça bilmedim,
Göyler göye çekdi,
yerler torpağa.
Çıxdı qanadlarım,
uça bilmedim,
Arana, yaylağa, Qarsa, Qazağa,
Haçandı sesleyir min
arzu, qismet
Arxada hesret var,
qarşıda hesret.
("Arxada Hesret Var").

Müellif “Ömrün Serhedleri” poémasında, adından da göründüyü kimi, serhed, hüdud mövzusuna hüsusi ve geniş şekilde müraciet édir, mövzunun ayrı-ayrı şé’rlerce açılmayan nöqtelerine işıq salmaya se’y gösterir.

Ömür-gün tezadlarından könülde oyanan, başda dolanan ab-havanı poétik canlandırmaq üçün müellif deyişken hava obrazından yérli-yérinde istifade édir. Seher dolu yağması, günorta gün çıxması, axşam bulud olması, gah isti, gah da soyuğun başlaması lirik qehremanı çılğınlaşdırmır, eksine, ona daxili bir temkin ve ağırlıq getirir, tezadları tebii bir hal kimi yaşamaq duyğusu verir (“Nağıl”). Hava ile (daha deqiq desek, şaxtalı, qarlı hava ile) tebii insani ovqatın psixoloji paralélliyi “Seni Düşünürem” ve “Menden Uzaqdasan” şé’rleri üçün de seciyyevidir.

“Kölgeler” poéması İ. Türkay poéziyasının tamam başqa bir bedii keyfiyyetinden xeber verir: réallığı irréal lövheler vasitesile canlandırmaq. Muxtelif şé’rlerde tek-tek rastlaşdığımız kölge obrazı poémada başlıca yér tutur. Kölge dil açıb danışır, yaxın bir dost, qardaş sifetinde qılığa girir, adamları yolundan sapındırır. İnce bir meqama diqqet yetirmek lazımdır ki, poémada kölgenin bu cür canlandırılması heç de “Méşenin Nağılı” şé’rinde gördüyümüz alléqorik tesvir üsulu déyil, belke daha çox mifologizm yüklü tesvir üsuludur. Müellif “kölgeye dönmek”, “özgesinin kölgesine sığınmaq”, “gözü kölgeli olmaq” kimi xalq ifadelerinde gizlenen arxaik tesevvür qatına söykenerek kölgeni insana has elametlerle qeleme alır. Ve bununla insan daxilinde baş qaldıran, qoltuqlara qısılıb menseb sahibi olmaq éhtirasının iblisvari portrétini yaradır. Eserde irréal yox, réal boyalarla verilen ve kölge obrazını müsbet planda, “kölge salmaq”, “kölgeli olmaq” me’nalarında teqdim éden lövheler de az déyil. Lakin men bedii şertiliye esaslanan lövhelerin géniş ifade imkanları açdığını ve aça bileceyini xüsusi nezere çatdırmağı lazım bildim.

Lazım bildim deyim ki, şé’r adıyla yazılan ve heqiqeti eks étdiren söz bediilik hüdudlarını ne qeder génişlendirirse, şé’re bir o qeder yaxınlaşır.

Muxtar İmanov



ПОЕЗИЯ

ҮРӘКДӘН КӘЛӘН СӘСЛӘ

Ислам Түркәјын төләбәлик чағларындан көрдүјүм инсанлығы «Јазычы» нәшрижјатының «Архада һесрет вар» адыјла бурахдығы китабдакы јазыларда да ајдын дүјулмагдадыр (мән «инсанлыг» сөзүнү бурада билөрәкдән ишлөдирәм вә бунунла шәхрлик, һәмчинин әлимлик архасында адамлыг өндәзәсиндән чыханлара гаршы олдугума да ишарә едирәм). Китабы охујурам вә севинирәм ки, И. Түркәј он-он беш ил бундан габаг үрәкдән көлән бир сәслә ше'р дејән, үрәкдән көлән бир әдаб-әркан ла сөз чалан әгыр төбиәтли Ислама хәјанәт өлөмир. И. Түркәј мүәјјән күн төдөр гондерма сөвинч вә кәдәрдән, «мән һәр шеји билирәм, көлин сизә дә өјрәдим» иддиасындан узаглашмага чалышыр.

Сөзүн доғрусу о заман јараныр ки, дүјдүғуну, јашадығыны, өсл мәһиҗјәтинә вардығыны јазасан. Үрәкдән көлөн төдөркы узун вә четин бир јолда өз дүјдугларындан, инандығларындан үз дөндөрмөјөндә, јалан адлы «јосма бир дилбөрә» ујмајанда мин дәфә јазылан мөвзулары белә өзүнөхас бир шәкилдә ше'рә көтирә билирсән. Өз дүјдугларына күвәнмәјин нәтичәсидир ки, И. Түркәј вәтән мөвзусуну көзәл төбиәтли, хошбәхт һәјатлы (һансыса ше'рдән «өмөр ағ күндөдир мәним вәтәним» мисрасы дүшүр јадыма) Одлар дијарына е'ланиешг сөјләмәк кими гәбул өлөмир. Бунун өвәзинә мешәләри гырылан, торпағы көч кими дашыныб јандырылан гәм ојлағы бир Дағдан сөһбөт ачыр («Бу дағ дағымдыр мәним»); сөрвәти таланан, сују, һавасы зәһәрлөнән Хәзәрә ағы дејир («Хәзәр һаггында дүшүнчөлөр»).

И. Түркәјын поетик өлөминдә доғру сөјүн бәдии сөз бичиминдә охучуја чатдырылмасыдыр. Је'ни дедијин доғру сөз бәдии дејилсә, садәчә оларағ ритм вә гафијә күчүнә фикри фикрә чалмағ үзәриндә гурулубса, онда сән мәтләб архасында кизләниб ше'рин илкин төләбләриндән бирини позурсан, шаирлик өвәзинә публисистлик өлөјирсән. Ше'рдә чыллаг публисистика јолуну тутмаг јеғин Ислам үчүн четин олмазды, ән азы она көрә ки, о, журналистика факултәсини битириб, журналистдир. «Архада һесрет вар» китабында бәдии һәлли үғурлу тапылмајан «Вәтән», «Кин дөғарчығы», «Короғлу дүбејти» кими јазылар да вар. Лакин һәмин јазылар китабдакы «Бу күн-сабаһ», «Ата јурдум, гајытмышам», «Архада һесрет вар», «Нағыл», «Мәним күнаһкарам, сәним күнаһкар», «Сәни дүшүнүрәм», «Мәндән узагдасан» вә с. ше'рләрин, «Көлкәләр» поемасының бәдии тә'сир күчүнү азалтмыр. Бу өсөрләрдәки бәдиилик төкмә онда дејил ки, мүәллиф ајры-ајры мисраларда орижинал мәчазлар ишләдир. Бура галса, үғурсуз сәјдығым јазыларын өзүндә дә мәғаглы мисралар тапмаг олар: Буланлыг сел кими ахыр вахт, заман, Илан төк дилими чыхармалыјам («Вәтән»). Китабдакы үғурлу нүмунәләрин бәдиилији даһа чох мәтнин бир бүтөв, там кими гурулмасына гида верөн дүшүнчә төрзиндә, өзүнөмәхсус мә'наландырма формасындадыр. Бу бахымдан, мәнчә, И. Түркәј јарадычылығының ән мәғаглы вә көлөчәкдә давам вә инкишаф етдирилмәси вачиб олан чәһәтләриндән бири одур ки, мүәллиф мәтләб һаггында дәнишмагдан даһа чох, һәмин мәтләбин доғурдуғу овғаты, психоложи мөгамлары өкс етдирмәјә үстүнлүк верир («Вәтән» ше'ринин бүтөвлүкдә истәнилән сөвијјәдә олмамасының бир сөбәби дә, көрүнүр, мәһз вәтән нәдир?—суалына чаваб вермәк кими бәсит бир мәјлә бағлы олуб). «Бу күн-сабаһ» ше'риндә сыхынты һисси ән плана чөкилир: гоча гурсағының, вахт-вә'дәсинин дәралдығындан килөјләнир, Бабәк гәбрин дәрлығына дөзмүр, ушаг јатаг јеринин, өјиндәки көјнәјин, башындакы папағын дәрлығындан нәразыдыр, гоншунун сәбри түкәниб вә бүтүн бунлардан акаһ олан лирик гәһрәмана елә көлир ки, көксү дәралыб, үрәји сыхылыр. Бу сыхынты һисси ше'рдә өмрүн сәһәдләринә е'тираз кими сөсләнир, инсанын һәр чүр һүдудлары аша билмәк истәји лирик-психоложи бичимдә төгдим едилир. Азадлыг төшнөси, заман вә мөкан дәрысгаллығына табсызлыг, өмүр-күн чөрчивәләриндән чыхмаг имкансызлығы, дөврүн вә мүһитин төзадларының гаршысында дүшүнүб-дашынмаг китабда бу вә ја дикөр шәкилдә ше'рдән-ше'рә, поемадан-поемәја көчөн мотивләр кими диггөти чәлб едир, Ушаглыг чағлары лирик гәһрәмәны бир дә она көрә чәкир ки, о чағларда:

Ихтијар бол, үмидләр бол,
вахт да бол иди,
Архада јол, гаршыда јол,
һәр јан јол иди.

(«Ата јурдум, гајытмышам»).

Гәбир нөвбәсиндә дә бәсабәс олан шәһәрлә мүгајисәдә дағлар гүчағыны мүәллиф бир дә она көрә идеаллашдырыр ки, орада чөјран үчүн бағлы јол јохдур, чөјран өмрү саатларын әлиндә дејил. Башга сөзлә, мөкан-заман һүдудларындан хәбәрсиз олан чөјран өмрү һарадаса бир хошбәхтликдир («Бәһмән Вәтәноғлуна»).

Һәр аддымда вахтын гытлығы, јолларын көчилмәзлији илә үзләшән лирик гәһрәман «кедимми, галыммы!» суаллары гаршысында дајаныр, өзүндәрк анлары көчирир:

Бу вахтын әлиндән
гача билмәдим,
Көјләр көјә чөкди,
јерләр торпага.
Чыхды ганадларым,
уча билмәдим,
Арана, јајлаға, Гарса, Газаға,
һаванды сөсләјир мин
арзу, гисмөт—
Архада һесрет вар,
гаршыда һесрет.
(«Архада һесрет вар»).

Мүәллиф «Өмрүн сәһәдләри» поемасында, адындан да көрүндүју кими, сәһәд, һүдуд мөвзусуна хүсуси вә көниш шәкилдә мүрачиөт едир, мөвзунун ајры-ајры ше'рләрдә ачылмајан нөгтәләрини ишыг салмага сә'ј көстөрир.

Өмүр-күн төзадларындан көнүлдә ојанан, башда долашан аб-һаваны поетик чанландырмаг үчүн мүәллиф дөјишкөн һава образындан јерли-јериндә истифадә едир. Сәһәр долу јағмасы, күнорта күн чыхмасы, ахшам булуд олмасы, каһ истү, каһ да сојуғун башламасы лирик гәһрәмәни чылғынлашдырмыр, әксинә, она дахили бир төмкин вә ағырлыг көтирир, төзадлары төбии бир һал кими јашамаг дүјгусу верир («Нағыл»). Һава илә (даһа дөгиг десөк, шахталы, гарлы һава илә) төбии инсани овгатын психолоҗи паралеллији «Сәни дүшүнүрәм» вә «Мәндән узагдасан» ше'рләри үчүн дә сәчијјәвидир.

«Көлкәләр» поемасы И. Түркәј поезијасының тамам башга бир бәдии кејфијјәтиндән хәбәр верир: реаллығы ирреал пәһләләр васитәсилә чанландырмаг. Мүхтәлиф ше'рләрдә тәк-тәк растлашдығымыз көлкә образы поемада башлыча јер тутур. Көлкә дил ачыб данышыр, јахын бир дост, гардаш сифәтиндә гылыға кирир, адамлары јолундан сапындырыр. Инчә бир мәгамә диггөт јетирмәк лазымдыр ки, поемада көлкәнин бу чүр чанландырылмасы һеч дә «Мешәнин нағылы» ше'риндә көрдүјүмүз аллегорик төсвир үсулу дејил, бәлкә даһа чох мифолоҗизм јүклү төсвир үсулудур. Мүәллиф «көлкәјә дөнмәк», «көзәсинин көлкәсинә сығынмаг», «көзү көлкәли олмаг» кими халг ифадәләриндә кизләнән архаик төсәввүр гатына сәјкөнөрәк көлкәни инсана хас өламәтләрлә гөләмә алыр. Вә бунунла инсан дахилиндә баш галдыран, голтуглара гысылыб мәнсәб саһиби олмаг өһтирасының иблисвари портретини јарадыр. Әсәрдә ирреал јох, реал бојаларла верилән вә көлкә образыны мүсбәт планда, «көлкә салмаг», «көлкәни олмаг» мә'наларында төгдим едән пәһләләр дә аз дејил. Лакин мән бәдии шәртлијә әсасланан пәһләләрин көниш ифадә имканлары ачдығыны вә ача билөчәјини хүсуси нәзәрә чатдырмағы лазым билдим.

Лазым билдим дејим ки, ше'р адыјла јазылан вә нәгигәтин өкс өтдирөн сөз бәдиилик һүдудларыны нә гәдәр көнишләндирирсә, ше'рә бир о гәдәр јахынлашыр.

Мухтар ИМАНОВ

Resim 29: Muxtar İmanov'un İslam Türkay hakkında yazdığı gazete yazısının görüntüsü

- **Refail Éminov:**

Refail Éminov, İslam Türkay'ın *Her Şéyi Tezeden Başlayam Gerek* adlı şiir kitabı için gazetede bir değerlendirme yazısı yazmıştır:

Her Şéyi Tezeden Başlayam Gerek

Qarşımda 60 sehifelik bir könül harayı, qelb çırpıntısı var: İslam Ehmedli "Her Şéyi Tezeden Başlayam Gerek". Kitab "Genclik" neşriyyatı terefinden çap édilib. Evvelce şé'rlerin adlarına baxıram! "Sabahıma Üzürem Men", "Bu Yol Bizi Hara Çekir Göresen?", "Quruyan Ağaclar", "Tenha Buruqların Géce Neğmesi", "Éhéy, Kimdir Orda Ocaq Qalayan", "Géce Küçenizde Donub Xeyalım"… Her bir déyimin öz mezmun çaları, ritm heyecanı şairin hansı ürek döyüntüleri ve qelb çırpıntıları üzerinde köklenmesinden xeber vérir. Bu cehet maraqlıdır ki, şé'rlerin zamanla, varlıqla vehdeti çoxcehetli ve möhkemdir. Şair poétik düşüncenin başlıca istikametini - müasirlik idéyasını daim izleyir, onu dinamik şekilde inkişaf étdirir:

Bu heyatdı,
Her addımı yarışdı,
Arzularım taléyimle
barışdı,
Yaşamağa başım
éle qarıştı
Ömrü, günü yaman verdim
yéle, of…

Xalqımızın frazeloji idiomatik xezinesinde "başım yaman qarışıb" ifadesine téz-téz rast gelinir. Lakin "yaşamağa başım éle qarışdı" déyimi de çox güçlü ve dolğundur.

Tebiet, onun füsünkar gözelliyi, insanı héyrete getiren menzereleri, çeşmeleri, gölleri haqqında poétik parçalar az yazılmayıb. Söyüd haqqında İslamın yazdığı dördlük sözçülükden, reng israfından uzaqdır:

Eyibdir başını
torpağa sarı
Gören ne düşünür,
ne anır söyüd
Ömründe bir defe
olmayıb barı
Belke bunun üçün
utanır söyüd.

Néce de dolğun ve mezmunlu söylenilen déyim terzidir!

İslam Ehmedli poéziyası boş gurultudan uzaq poéziyadır. O, esrin sert, acı hadiselerine, dünyamızı hedeleyen menfur siyasete qarşı çıxır, humanizm mövqéyinden çıxış édir. "Karusél" şé'ri bu cehetden seciyyevidir.

Bu günkü dünyamızın narahatlıq havasında şairin zamanın mentiqine qovuşmaq bacarığı oxucunu héyran édir, "nüve" époxasının gözqamaşdırıcı parıltıları arxasında beşerin taléyi namine vetendaş köyneyini başa düşür ve anlayırsan. Kiçik bir poétik parçada tezadlı dünyamızın müxtelif cehetleri, insanların müxtelif xaraktérde olması, ömür günlerimizin aqlı-qaralı rengleri

bitkin fikirlerle esaslandırılır. Bedii tesvir vasitelerinden istifade şé'rin gözelliyini daha da artırır.

Cemiyyetimize yad me'nevi nöksanların tenqidinde milli köke qayıtma, esrlerin söz yaddaşına müraciet, babalarımızın düşünce ve exlaq terzinin poétik müqayisesi müasir oxucunun téz-téz rast geldiyi mövzulardandır. İslam Ehmedli yaradıcılığında da nesillerin exlaqi-me'nevi tecrübesi poétik ümumileşdirmeler yolu ile serrastdır.

Kitaba daxil olan "Sazın İşığında" silsile şé'rler bu fikirlerin eyani tesdiqidir. "Koroğlunun Qocalığında Dédiklerinden", "Kereminin Dédiklerinden", "Senden Gözüm Su İçmeyir", "Geraylı", "Biçinçiler Haqqında Ballada" şé'rlerinde şifahi xalq edebiyyatının ruhu, nefesi açıq-aydın hiss olunur.

"Anamdan Mektublar" silsile şé'rler dörd bayatıdan ibaretdir. Bilirik ki, yaddaş edebiyyatımızın konkrét, lakin felsefi fikir çeşmesi bayatıdır. Şair anasından aldığı mektubları bayatıda ümumileşdirir, oxucu qelbini bayatı nuruna qerq édir:

Dağda çen-üşüyürem,
Saçda den-üşüyürem
Géce üstün açılıb,
Yoxsa men üşüyürem?

Bozat nalın itirdi,
İpek yalın itirdi.
Bir qız gözaltıladım,
O da şalın itirdi…

Kitaba daxil olan sévgi şé'rleri "Sévdim Gözlerini, Düşdüm Günaha" başlığı altda toplanmışdır. Bu şé'rler ritorikadan uzaq, standart déyimler orbitinden ıraq poétik nümunelerdir. Éle bil ki, şair öz intim hiss ve duyğularını déyil, menim, senin könül çırpıntılarını, heya canını qeleme almışdır. Ona göre de şé'rler öz lakonikliyi, métafora ve obrazlılığı ile insani hiss ve duyğuların rengarengliyi ile oxucu qelbini sesleyir. Mehebbet lirikasında lirik-intim hissler şair "men"i çerçivesini tipikleşdirir. Onu xalqın me'nevi varlığından süzülüb gelen adet ve en'enelere üz tutmağa çağırır.

Kitaba şairin "Ömürün Serhedleri" adlı lirik poéması da daxil édilmişdir.

Poéziya mahir senetkar terefinden toxunan séhirli xalçadır. Onun ilmeleri, eriş ve arğacı bedii dildir. Bedii dilin reng çaları ne qeder tünd işlense, naxışlar bir o qeder könül oxşayar. İslam Ehmedli oxuculara teqdim étdiyi senet eserinde bedii dilin bütün imkanlarından – eriş, arğacından bacarıqla istifade étmiş, oxucu qelbinde de özüne yér tapmışdır. "Her şéyi tezeden başlayan" şairden daha yéni poétik etirli kitablar gözleyirik.

Refail Éminov



БУ КИТАБЫ ОХУЈУН

,,Һәр шеји тәзәдән башлајам кәрәк''

Гаршымда 60 сәһифәлик бир көнүл һарајы, гәлб чырпынтысы вар: Ислам Әһмәдли— «Һәр шеји тәзәдән башлајам кәрәк». Китаб «Кәнчлик» нәшријјаты тәрәфиндән чап едилиб. Әввәлчә ше'рләрин адларына бахырам! «Сабаһыма үзүрәм мән», «Бу јол бизи һара чәкир көрәсән?», «Гурујан ағачлар», «Тәнһа буругларын кечә нәғмәси», «Ehej , кимдир орда очаг галајан», «Кечә күчәниздә доңуб хәјалым»... Һәр бир дејимин өз мәзмун чалары, ритм һәјәчаны шаирин һансы үрәк дөјүнтүләри вә гәлб чырпынтылары үзәриндә көкләнмәсиндән хәбәр верир. Бу чәһәт мараглыдыр ки, ше'рләрин заманла, варлыгла вәһдәти чохчәһәтли вә мөһкәмдир. Шаир поетик дүшүнчәнин башлыча истигамәтини —мүасирлик идејасыны даим изләјир, ону динамик шәкилдә инкишаф етдирир

Бу һәјатды,
Һәр аддымы јарышды,
Арзуларым талејимлә
барышды,
Јашамаға башым
елә гарышды
Өмрү, күнү јаман вердим
јелә, оф...

Халгымызын фразеложи идиоматик хәзинәсиндә «башым јаман гарышыб» ифадәсинә тез-тез раст көлинир. Лакин «јашамаға башым елә гарышды» дејими дә чох күчлү вә долғундур.

Тәбиәт, онун фүсүнкар көзәллији, инсаны һејрәтә кәтирән мәнзәрәләри, чешмәләри, көлләри һаггында поетик парчалар аз јазылмајыб. Сөјүд һаггында Исламын јаздығы дөрдлүк сөзчүлүкдән, рәнк исрафындан узагдыр:

Әјибдир башыны
торпаға сары
Көрән нә дүшүнүр,
нә аныр сөјүд.
Өмрүндә бир дәфә
олмајыб бары
Бәлкә бунун үчүн
утаныр сөјүд.

Нечә дә долғун вә мәзмунлу сөјләнилән дејим тәрзидир!

Ислам Әһмәдли поезијасы бош курултудан узаг поезијадыр. О, әсрин сәрт, ачы һадисәләринә, дүнјамызы һәдәләјән мәнфур сијасәтә гаршы чыхыр, һуманизм мөвгејиндән чыхыш едир. «Карусел» ше'ри бу чәһәтдән сәчијјәвидир

Бу күнкү дүнјамызын нараһатлыг һавасында шаирин заманын мәнтиғинә говушмаг бачарығы охучуну һејран едир, «нүвә» епохасынын көзгамашдырычы парылтылары архасында бәшәрин талеји наминә вәтәндаш көјнәјини баша дүшүр вә анлајырсан. Кичик бир поетик парчада тәзадлы дүнјамызын мүхтәлиф чәһәтләри, инсанларын мүхтәлиф характерде олмасы, өмүр күнләримизин ағлы-гаралы рәнкләри биткин фикирләрлә әсасландырылыр. Бәдии тәсвир васитәләриндән истифадә ше'рин көзәллијини даһа да артырыр.

Чәмјјәтимизә јад мә'нәви нөгсанларын тәнгидиндә милли көкә гајытма, әсрләрин сөз јаддашына мүрачиәт, бабаларымызын дүшүнчә вә әхлаг тәрзинин поетик мүгајисәси мүасир охучунун тез-тез раст кәлдији мөвзулардандыр. Ислам Әһмәдли јарадычылығында да нәсилләрин әхлаги-мә'нәви тәчрүбәси поетик үмумиләшдирмәләр јолу илә сәррастдыр.

Китаба дахил олан «Сазын ишығында» силсилә ше'рләр бу фикирләрин әјани тәсдигидир. «Короғлунун гочалығында дедикләриндән», «Кәрәми»нин дедикләриндән», «Сәндән көзүм су ичмәјир», «Кәрајлы», «Бичинчиләр һаггында баллада» ше'рләриндә шифаһи халг әдәбијјатының руһу, нәфәси ачыг-ајдын һисс олунур.

«Анамдан мәктублар» силсилә ше'рләр дөрд бајатыдан ибарәтдир. Билирик ки, јаддаш әдәбијјатымызын конкрет, лакин фәлсәфи фикир чешмәси бајатыдыр. Шаир анасындан алдығы мәктублары бајатыда үмумиләшдирир, охучу гәлбини бајаты нуруна гәрг едир:

Дағда чән-үшүјүрәм,
Сачда дән-үшүјүрәм
Кечә үстүн ачылыб,
Јохса мән үшүјүрәм?

Бозат налын итирди,
Инәк јалын итирди.
Бир гыз көзалтыладым,
О да шалын итирди...

Китаба дахил олан севки ше'рләри «Севдим көзләрини, дүшдүм күнаһа» башлығы алда топланмышдыр Бу ше'рләр риторикадан узаг, стандарт дејимләр орбитиндән ираг поетик нүмунәләрдир. Елә бил ки, шаир өз интим һисс вә дујғуларыны дејил, мәним, сәнин көнүл чырпынтыларыны, һәјачаныны гәләмә алмышдыр. Она көрә дә ше'рләр өз лакониклији, метафора вә образлылығы илә, инсани һисс вә дујғуларын рәнкарәнклији илә охучу гәлбини сәсләјир. Мәһәббәт лирикасында лирик-интим һиссләр шаир «мән»и чәрчивәсини типикләшдирир, ону халгын мә'нәви варлығындан сүзүлүб кәлән адәт вә ән'әнәләрә үз тутмаға чағырыр.

Китаба шаирин «Өмрүн сәһифәләри» адлы лирик поемасы да дахил едилмишдир.

Поезија маһир сәнәткар тәрәфиндән тохунан сеһирли халчадыр. Онун илмәләри, әриш вә арғачы бәдии дилдир. Бәдии дилин рәнк чаларыны нә гәдәр түнд ишләнсә, нахышлар бир о гәдәр көнүл охшајар. Ислам Әһмәдли охучулара тәгдим етдији сәнәт әсәриндә бәдии дилин бүтүн имканларындан—әриш, арғачындан бачарыгла истифадә етмиш, охучу гәлбиндә дә өзүнә јер тапмышдыр. «Һәр шеји тәзәдән башлајан» шаирдән даһа јени поетик әтирли китаблар көзлә-јирик.

Рәфаил ЕМИНОВ.

Resim 30: Refail Éminov'un İslam Türkay'ın *Her Şéyi Tezeden Başlayam Gerek* kitabına yazısı

- **Azerbaycan Yazarlar Birliği ve Rafiq Yusifoğlu:**

Azerbaycan Yazarlar Birliği ve Rafiq Yusifoğlu, İslam Türkay'ın 50. yaşı dolayısıyla eserleriyle ilgili anlamlı ve önemli değerlendirmeler yaparak onu kutlamışlardır:

Azerbaycan Yazıçılar Birliyi

İslam Türkay-50

Hörmetli qelem dostumuz!

Sizi 50 illik yubiléyiniz münasibetile ürekden tebrik édirik.

Siz Bakı Dövlet Univérsitétinin Jurnalistika fakültesinde tehsil almısınız. Bedii yaradıcılığa 70-ci illerinden başlamısınız. "Géce Lövhesi" adlı ilk şéiriniz 1979-cu ilde "Sosialist Sumqayıtı" qezétinde derc olunmuşdur. Bundan sonra dövri metbuatda müntezem çıxış édirsiniz. Şéirleriniz "Azerbaycan", "Ulduz" jurnallarında vaxtaşırı derc olunur. Müellifi olduğunuz "Bir Gün Geler", "Arxada Hesret Var", "Éşqim Menim Dar Ağacım" kitablarınız ifade, déyim terzleri ile çağdaş poéziyanın en gözel nümunelerindendir. Şéirleriniz bedii tesvir vasitelerinin zenginliyi ile séçilir. Veten éşqi, doğma yurda, torpağa mehebbet terennüm olunur.

Siz bedii tercüme ile de müntezem meşğul olursunuz. Türkceden tercüme étdiyiniz "Solomon Hitléri cibine qoyur" (Dünya gülmecelerinden bir düzüm) ve Ruscadan tercüme étdiyiniz "Şéytana papuç tikenler" (dünya xalqlarının nağılları) kitabları "Yazıçı" neşriyyatında çap olunmuşdur.

Siz uzun iller "Yazıçı" neşriyyatında işlemisiniz. Neşriyyatda poéziya üzre rédaktor vezifesinde çalışmısınız.

Hörmetli İslam müellim!

Sizi yarım esrlik yubiléyiniz münasibetile semimi qelbden tebrik édir, size uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

Ömrün Poétik Yaşantıları

(Edebiyyat qezéti, 10 noyabr 2000-ci il)

İslam Türkayın yaradıcılığı haqqında meqale yazmaq teklifini o deqiqe qebul étdim. Ona göre ki, onun işıq üzü gören ilk kitabı haqqında ilk meqaleni de men yazmışdım. O vaxt héç ağlıma da gelmezdi ki, İslamın yubiléyi haqqında da men meqale yazacağam.

Xeyal meni uzaqlara apardı. Yadıma İslamın Sumgayıt Edebi Birliyinde oxuduğu ilk şéirleri düşdü. Mene éle geldi ki, indi de onun utancaq sesini éşidirem…

İslam Türkay öz poéziyasında kendden getirdiyi müqeddes, bakire duyğuları ezizleye-ezizleye qoruyub saxlayan, doğulduğu torpağa mehebbeti zerre qeder de azalmayan şairlerimizdendir. Elli illik ömür yolunun poétik yaşantıları onun poéziyasına bir heraret, semimiyyet getirmişdir.

İslam Türkay milli özünüderk, milli oyanış illerinin şairidir. Onun poéziyasında 70-80-90-cı illerin ab-havası var. O dövrde yaşayan, xalqın azadlığını, müsteqilliyini arzulayan, bu arzuları bedxahların duyuq düşmeyeceyi bir ustalıqla

poéziyasına hopduran İ. Türkay bu yolun bizi hara aparacağını bir şair fehmi ile derk édirdi:

Dağlara direnir yolumun ağzı
Bilirem, dizimi daş aparacaq
Gerek ağlamayam, sızıldamayam
Ağlasam, gözümü yaş aparacaq.
Min ildir yatıram fil qulağında,
Bu yollar hele çox baş aparacaq.

İslamın "Türkay" adını özüne texellüs götürmesi de, onun yaradıcılıq amalı haqqında az söz démirdi. Yaşıdları olan bütün qelem sahibleri kimi ikiye bölünmüş xalqın tarihi birliyi meselesi İ. Türkayı da hemişe düşündürür, narahat édirdi. Onun Araza hesr étdiyi şé'rlerde vetenperver bir şairin sesi éşidilirdi.

İslam Türkay poéziyasının mayası élden gelir. Onun folklor biçimli bayatıları, geraylıları, qoşmaları könül oxşayır. Obrazlı déyim, tefekkür aydınlığı, heyat hadiselerine özünemexsus don géyindirmék bacarığı İslamın en'enevi formada yazdığı şé'rlere bir teravet getirir, onların te'sir gücünü qat-qat artırır.

Alışır torpağım, daşım,
Yağan yağışlar – göz yaşım.
Burax bu suyu, qardaşım,
Bu arx bu suyu götürmez…

Aldandım yalançı parıltılara. (ÉMDA / Deyme Könlüme)

gel-di-**m**

deyemme-di-**m**

Geldim onun etrine,

Deyemmedim xetrine. (AHV / Yazılmamış Bayatılardan)

qebul éyle-di-**m**

qul éyle-di-**m**

Türkayam, bu adı qebul **éyledim**,

Özümü özüme men qul **éyledim**. (AHV / Türkayam)

qaça bilme-di-**m**

Bu vaxtın elinden qaça **bilmedim**,

Göyler göye çekdi, yérler torpağa. (AHV / Arxada Hesret Var)

ayrı düş-dü-**m**

Dağlar, ayrı **düşdüm** sizden néçe il

Arzum ayrılığa kesildi qenim. (BGG / Zirve)

bax-ır-**(a)m**

Daşlara **baxıram** boyumdan uca

Neheng şamlardımı? (BGG / Daş Méşe)

anlaya bilme-di-**m**

gömül-dü-**m**

Anlaya **bilmedim** düzü bu sirri,

Gömüldüm torpağa men diri-diri. (BGG / Dédiler)

urcah ol-du-**m**

İsteyime béle qara yél esdi,

Urcah **oldum** bir zehrimardile, of… (HTBG / Nola Dönüb Uşaq Olam Birce Gün)

yat-ır-dı-**m**

yata bil-e-(y)di-**m**

Daş kimi **yatırdım** torpağın üste
İndi qu tükünde yata **bileydim**... (HTBG / Bu Géce Ne Yaman Uzandı Béle)

ayrı düş-dü-**m**

Ayrı düşdüm budağımdan,
Öz yurdumdan, yatağımdan. (HTBG / Vetenden Uzaqda)

én-me-di-**m**

Men béle **énmedim** hele héç kime
Sen gahdan dolursan, gah boşalırsan. (YŞ / Hele Gözleyirsen)

sök-dü-**m**
payla-dı-**m**

Kerpic-kerpic **sökdüm** ömrümü éle,
Payladım könlümü her ehli-dile. (YŞ / Alqışlar)

-2. II. Teklik Şahıs İyelik Eki /+n/

göynet-di-**n**

Bağrımın başını **göynetdin** yéne, (ÉMDA / Menden Uzaqdasan)

düş-dü-**n**

Sessiz, xerçeng kimi **düşdün** canıma, (ÉMDA / Sessizce)

sovur-du-**n**

Béle maskalanma, adam oğlusan,
Ömrünü-gününü **sovurdun** yéle. (AHV / Béle Maskalanma)

kéç-di-**n**

Sessiz gülle kimi **kéçdin** sinemden,
Sessizce, sessizce oda yandım men… (AHV / Sessizce)

dé-di-**n**

Bulud tek içimden alışdım, söndüm,
<<Yox>>- **dédin**, qelbine yağa bilmedim. (BGG / Azdı Baxışlarım Qara Hörükler)

qesdime dur-du-**n**

Açdım üreyimi, qelbimin simi
Titredi. <<Yox>> déye **durdun** qesdime. (BGG / O Günden)

dustaq ol-du-**n**
yad ol-du-**n**

Évinde **dustaq oldun.**
Doğmalara **yad oldun**, (HTBG / Hüséyn Cavide)

tap-dı-**n**

Ümidi, isteyi düşdü payına,
Tapdın seadeti stol başında. (HTBG / Bir Müdire Mektub)

géd-ir-di-**n**

Gédirdin başı dumanlı...
Gédirdin ahlı-amanlı... (YŞ / Arxanca Baxırdım - I)

yan-a-(y)dı-**n**

Üreyimde, gözümde
Yanaydın çıraq kimi (YŞ / Yuxu)

-3. III. Teklik Şahıs İyelik Eki /+Ø/

çek-**di-Ø**

Çekdi eteyimden oğlum – atacan, (ÉMDA / Sabah Ne Dağacaq Hamile Dünya)

tutul-**muş-du-Ø**
saral-**mış-dı-Ø**

Orda bir söyüd gördüm,
Tutulmuşdu dilleri,
Saralmışdı télleri… (ÉMDA / Orda Bir Söyüd Gördüm)

uç-**du-Ø**

Hayana gétdiniz düzü bilmirem,
Nağıllı, dünyamız **uçdu** o günden. (ÉMDA / Éhéy, Kimdir Orda Ocaq Qalayan)

dolan-**dı-Ø**

dön-**dü-Ø**

qon-**du-Ø**

Quşcuğaz çox **dolandı**,

Döndü zaman, qerine.

Axır ki, boz ayının

Qondu çiyinlerine… (AHV / Méşenin Nağılı)

yapış-**dı-Ø**

Sévdi toy-büsat kimi,

Yapışdı heyat kimi. (AHV / Yordu Bu Şeher Meni)

döşen-**di-Ø**

seril-**di-Ø**

ax-**dı-Ø**

Kölge qayğı géyinib

Döşendi yollarıma.

Serildi qollarıma;

Axdı damarlarıma,

Namusuma, arıma… (AHV / I. Kölge)

uğun-**du**

gét-**di**

Dere **uğundu gétdi**,-

Yazıq dere… (BGG / Dağdan Bir Qaya Düşdü)

çat-**dı-Ø**

bat-**dı-Ø**

Desteyi yére qoyub

Qaşlarını **çatdı** o.

Dişlerini qıcayıb

Qem-qüsseye **batdı** o. (HTBG / İki Lövhe – I)

susma-**dı-Ø**

quru-**du-Ø**

Susmadı heyatla ömrün savaşı,

Üzümde **qurudu** gözümün yaşı. (HTBG / Kereminin Dédiklerinden

eylen-**di-Ø**

gül-**dü-Ø**

bil-**di-Ø**

Yadlar ile **eylendi** o, **güldü** o,

Çoxlarının qedrini **bildi** o. (HTBG / Memmed Araza Mektub)

ol-**du-Ø**

Ürek alışdı kül **oldu**,

Ondan mene bir xeber dé. (YŞ / Bir Xeber Dé)

sal-**dı-Ø**

Ebedi bu éşqe sürgünem, gözel,

Qelbimde yurd **saldı** daha qem gözel, (YŞ / Sen Meni Allaha Emanet Étme)

aç-**mış-dı-Ø**

Ellerim, qollarım benövşe idi,

Qızılgül **açmışdı** ağ saçlarımda... (YŞ / Bu Géce Yuxuma Gelmişdin)

-4. I. Çokluk Şahıs İyelik Eki /+k/

yağmala-dı-**q**

güllele-di-**k**

damğala-dı-**q**

Yaxşı, biz bu padşahın

Évini **yağmaladıq**.

Özünü **gülleledik**,

Adını **damğaladıq**. (ÉMDA / Qırmızı Seher)

qır-dı-**q**

Qırdıq bir-birimizi

Göyden daş ele, Allah! (ÉMDA / Günortaya Yaxın)

düşmen ol-du-**q**

üz çévir-di-**k**

Qartala **düşmen olduq**,

Obadan **üz çévirdik**. (AHV / II. Kölge)

ol-du-**q**

çevir-di-**k**

Qartala düşmen **olduq**,

Obadan üz **çévirdik**. (AHV / II. Kölge)

bilmez-di-**k**

Qedrini **bilmezdik** bir vaxt payızın, (BGG / Payız)

adalar-**(ı)q**

Heyat fırtınalı ümman kimidir,

Üzen efsanevi adalarıq biz.

Qonşu-(y)du-**k**

İtir-ecey-di-**k**

Qonşuyduq, yadlığı **itireceydik**, (HTBG / Hörükler)

çıx-dı-**q**

sıx-dı-**q**

Kol-koslar da yaşayıb

Tufandan **çıxdıq** dédi,

Bax bu gözel günlerin

Elini **sıxdıq** dédi. (HTBG / Hüséyn Cavide)

ax-ır-**(ı)q**

Axırıq vaxt axarında,

Ruhum gözlerimden baxır. (GYŞ / Şimşek Kimi Göyden Énib)

gel-me-di-**k**

bil-me-di-**k**

Bu dünyada biz üz-üze **gelmedik**,

Meni séven, men sévdiyim, hardasan?!..
Bir-birmizi tanımadıq, **bilmedik**,
Meni séven, men sévdiyim, hardasan?!.. (YŞ / Hardasan)

-5. II. Çokluk Şahıs İyelik Eki /+°nIz/

küs-dü-**nüz**

Küsdünüz…
Çıxmışdım elifbalıqdan. (ÉMDA / Éhéy Kimdir Orda Ocaq Qalayan)

gét-di-**niz**

Hayana **gétdiniz** düzü bilmirem,
Nağıllı, dünyamız uçdu o günden. (ÉMDA / Éhéy Kimdir Orda Ocaq Qalayan)

gör-dü-**nüz**-mü

Denizlerden ayrı düşüb
Bu da ona qeher olub…
Xezeri **gördünüzmü** ola? (AHV / Xezer Haqqında Düşünceler)

-6. III. Çokluk Şahıs İyelik Eki /+lAr/

daşır-dı-**lar**

aşır-dı-**lar**

<<Dünya bizim olacaq>>
Dédikce – **daşırdılar**.
Axır ki, bir binanı
Dévirib aşırdılar… (ÉMDA / Qanlı Géce)

yaşa-dı-**lar**

Birce il yaşadılar
Sözsüz, sakit, méhriban. (ÉMDA / Tanış Ünvan)

dé-di-**ler**

inan-dı-**lar**

yan-dı-**lar**

<<Haqq>> **dédiler** Allah'a.

O haqqa **inandılar**.
Olmayan <<haqq>> yolunda
Çox odlara **yandılar**. (ÉMDA / Günortaya Yaxın)

toxu-du-**lar**

Tülküler ayılara
Toxudular çelengler. (AHV / Méşenin Nağılı)

çök-dü-**ler**

Bu her şé'r qadirler
Önünde diz **çökdüler**. (AHV / Ömrün Serhedleri - I)

çek-di-**ler**

Zirveye **çekdiler** kor yapalağı
Qartalla yanaşı dayansın déye. (BGG / Zirveye Çekdiler Kor Yapalağı)
dé-di-**ler**

Dédiler çiçekler çinarlaşıblar,
Geldim kölgesinde dincelem,
Dayan! (BGG / Éhéy Kimdir Orda Ocaq Qalayan)

vur-du-lar

Baş **vurdular** zemilere,
Demir atlı qoç igidler(HTBG / Biçinçiler Haqqında Ballada)

dé-di-**ler**

Mene su vérmedi orda periler,
Dédiler: dağlarda qar ara, gétdim... (YŞ / Qarqar Ağıları)

2.7.7.3. Diğer Şahıs Ekleri

- **Emir Kipinde Kullanılan Şahıs Ekleri**

Azerbaycan Türkçesinde emir kipinde kullanılan ekler şahıslara göre değişir.

Tablo 12: Azerbaycan Türkçesinde Emir Kipinde Kullanılan Şahıs Ekleri

	Teklik	**Çokluk**
1. Şahıs:	*/-°m/*	*/-ek/, /-AQ/*
2. Şahıs:	*/-Ø/*	*/-°n/*
3. Şahıs:	*/-(s)In/, /-sUn/*	*/-sInlAr, /-sUnlAr/*

(Kâzımov, 2010: 270-275; Buran, 2017: 86).

al-**ım**

<<Derdin **alım**, gécikirsen dersine>>- déye
Anam meni <<daş>> yuxumdan bir de ayıltmaz,
O günlerim bir de dönmez, bir de qayıtmaz. (AHV / Ata Yurdum Qayıtmışam)

bax-ma-**Ø**
qal-**Ø**

Payız gülü, soyuq **baxma**,
Baxma buzlaya-buzlaya.
Yoxsa meni beyenmedin,
Di **qal** gözleye-gözleye. (ÉMDA / Bu Daşlara Maral Gelmez)

burax-**Ø**

Burax bu suyu, qardaşım,
Bu arx bu suyu götürmez! (ÉMDA / Bu Arx Bu Suyu Götürmez)

dala-**sın**
boya-**sın**

Körpe gicitikanlar
Dalasın ayağını,
Çiyelek, böyürtikan
Boyasın dodağını, (AHV / Azadlıq – IV)

incime-**sin**

qınama-**sın**

Yox-yox, **incimesin** Himalay, Qoşqar,
Meni **qınamasın** ne dağ, ne dere. (BGG / Zirve)

qoy-**ø**

itme-**sin**

Oğurlandı yuxuları:
- **Qoy itmesin** élin varı! (HTBG / Biçinçiler Haqqında Ballada)

salma-**sın**

Eskiklik getirib éşqim adına,
Déyib ki, **salmasın** meni yadına. (HTBG / O Qıza Déyin Ki)

apar-**aq**

İki balamız var: néçe ki varıq,
Aparaq onları bir menziledek. (HTBG / Daha Qovuşmayan Polad Yollarıq)

unud-**aq**

Az qala göylere üsyan éyledin,
Üreyim, **unudaq** gel bu sévgini... (YŞ / Şükür Varlığına Şükür İlahi)

yan-**aq**

an-**aq**

Ne men seni görüm, ne de sen meni
Belke, için-için **yanaq** gizlice?..
Sessiz söhbetleri, sessiz sözleri,
Sızlaya-sızlaya **anaq** gizlice... (YŞ / Gizlice)

çıx-**ın**

barış-**aq**

Çıxın yollarıma **barışaq** indi
Ay ağ çiçeklerim, ağ çiçeklerim. (BGG / Éhéy Kimdir Orda Ocaq Qalayan)

dayan-**ø**

goyma-(y)-**ın**

Dayan!

Bu nedir, **qoymayın** yanır bir çinar!

Éhéy, kimdir orda ocaq qalayan! (BGG / Éhéy Kimdir Orda Ocaq Qalayan)

bas-**ın**

yığ-**ın**

Arxalı köpekler, **basın** qurdları,

Yığın başınıza bu manqurdları, (GYŞ / Arxalı Köpekler Basın Qurdları)

qaz-**sınlar**

- Qoy **qazsınlar**,

qazdıqca

O yalanlar,

talanlar,

Günahsız axan qanlar,

O olmazın olanlar

Bir-bir çıxacaq üze. (ÉMDA / Axşamdan Kéçende)

ÜÇÜNCÜ BÖLÜM
İSLAM TÜRKAY'IN ŞİİRLERİ

ÉŞGİM MENİM DAR AĞACIM (1991)

BİRİNCİ BÖLÜM: BU YOL BİZİ HARA ÇEKİR GÖRESEN

1

01 **Yol**
02 Biz haçandı minmişik bu qatara
03 Yolumuza baxan aymı, mayakmı?
04 Bu intizar gören ne vaxt qurtarar,
05 Bilmeyirik yol, yaxınmı, uzaxmı?
06 Bu yol bizi hara çekir göresen?

07 Bu qatarda göz açmışıq dünyaya
08 Burda bilét bir ömürden bahadı.
09 Gör bir harda göz açmışıq dünyaya,
10 Belke de yol bu qatardan, qısadı?
11 Bu yol bizi hara çekir göresen?

12 Yukumuz[45] yox, uzağıq her şübheden,
13 Neyimiz var bir ürekden savayı.
14 Daha vaxtın saçlarına düşür den,
15 Nese déyir tekerlerin harayı,
16 Bu yol bizi hara çekir göresen?

17 Yuxumuzu oğurlayıb yatanlar,
18 Ömrümüzden ne vérmişik obaya…
19 Yolumuza güneş yağar, qar yağar,
20 Atılmışıq sert axına, gur çaya.
21 Gédirikmi, gelirikmi dünyaya?
22 Bu yol bizi hara çekir göresen?

[45] "Yuxu" sözcüğü "yuku" şeklinde yazıldığı için transliterasyonu yapılırken de aynen aktarılmıştır.

2

Sabah Ne Doğacaq Hamile Dünya

Babam giléylendi-yéye bilmirem,
Qursağım daralıb, me’dem daralıb.
Qürubda saralan güneş kimiyem,
Kéçib ömrüm-günüm, ve’dem daralıb.

O géce yuxuda Babeki gördüm.
Dédi: dözemmirem, qebrim daralıb.
Ayıldım, ses geldi - Ay arvad, kiri,
Allaha and olsun, sebrim daralıb…

Çekdi eteyimden oğlum - Atacan,
Burda yatammıram, yataq daralıb.
Kéçen il aldığın köynek üzülüb
Başıma qoyduğum papaq daralıb.

Dolandı qelbimde min arzu, istek,
Hardasan, ay bahar?! Bağlar saralıb…
Baxdım etrafıma, sıxıldı ürek
Mene éle geldi köksüm daralıb.

Körpem yatağına sığışmır daha,
Başı papağına sığışmır daha…
Hardasa Babekin qebri daralıb,
Qonşuda qonşunun sebri daralıb…

Fikirler, xeyallar apardı meni,
Ruhumdan, özümden qopardı meni…
Çox at oynadanı atından salıb,
Ezelden kéçibdi çox ele dünya.
Daha eynindeki köynek daralıb,
Kime oxşayacaq, kime çekecek,
Sabah ne doğacaq hamile dünya?

3

Koroğlunun Qocalığında Dédiklerinden

Bir zamanlar bu dünyanı
Yuxusundan oyatmışıq.
O xoş günler indi hanı,
Ölmüşük, yoxsa yatmışıq?

Dost olmuşuq yala-yada,
Aldanmışıq quru ada.
Derdi éşqtek bu dünyada
Qelbimizde yaşatmışıq.

Saralıbdı güllerimiz,
Köçüb gédib éllerimiz.
Quruyubmu ellerimiz,
Qınımızda pas atmışıq?

İller dönüb, qan deyişib,
Qohum qohumla eyişib.
Qardaşım yadla uyuşub,
Olmaz günaha batmışıq.

Çal-çağırlı heyat hanı,
O toy hanı, büsat hanı
Qırat hanı, dürat hanı?
Arxasınca daş atmışıq…

Hemzeler xan oldu, haray!
Üreyim qan oldu, haray!
İş bağ-bostan oldu, haray!
Deyirmanlarda yatmışıq.

4

01 Bu Arx Bu Suyu Götürmez

Küçük yaşımda atam herden çox böyük bir inamla déyirdi: “Men ölü siz qalı: bu arx bu suyu götürmez!” O vaxt bu sözün me’nasını anlamazdıq…

02 Dağların başı dumandı,
03 Bu arx bu suyu götürmez.
04 Çayların suları qandı,
05 Bu arx bu suyu götürmez!

06 Buludlar asım-asımdı,
07 Yanan sehralar yasımdı.
08 Dé, neye qulaq asım, dé,
09 Bu arx bu suyu götürmez!

10 Uzaq dağlara qar yağır,
11 Zirveler göyleri sağır…
12 İster lap Allahı çağır
13 Bu arx bu suyu götürmez!

14 Alışır torpağım-daşım,
15 Yağan yağışlar, göz yaşım.
16 Burax bu suyu, qardaşım,
17 Bu arx bu suyu götürmez!

18 Gülür gözün ulduzları,
19 Düşür qoçun buynuzları,
20 Eriyir şimal buzları,
21 Bu arx bu suyu götürmez!

22 İnsanlar zalım olubdu,
23 Nadanlar alim olubdu,
24 Yaşamaq ölüm olubdu
25 Bu arx bu suyu götürmez!

26 Anyalar-ağ yataqlarda,
27 Fatmalar-yéne tendirde…
28 Nahaqlar-ağ otaqlarda
29 Haqqın boğazı kendirde.
30 Bu arx bu suyu götürmez!

31 Qar yağır vaxta-dövrana
32 Donuzlar peleng ovlayır.
33 Tülküler qalıb bir yana
34 Dünyanı ayı tovlayır
35 Bu arx bu suyu götürmez!

36 Qoyunlar çapıb talayır,
37 Qurdlar ot otlayır daha.
38 Uzunqulaq qoca şirin
39 Dizini qatlayır daha
40 Bu arx bu suyu götürmez!

41 Alışır torpağım-daşım
42 Yağan yağışlar, göz yaşım.
43 Burax bu suyu, qardaşım,
44 Bu arx bu suyu götürmez.

5

Azadlıq

Kendden, şeherden uzaq,
Qéybet-zeherden uzaq;
Derdden, qeherden uzaq
Barı birce anlığa
Unut bütün dünyanı;
Unut yéri, insanı
Dé ki, <<Her şéy menimdi
Bu dağlar, bu dereler
Yurdumdu, meskenimdi.>>
Bura qoruqdu - déme,
Unut seddi, serheddi.
Barı birce anlığa
Unut hedeni, heddi…
Mağallaq aş, éşelen,
Çiçeye, güle belen.
Qışqır sinen dolusu.
Çağır éli, ulusu…
Uzan arxası üste,
Axan buludları say.
Bir derinden nefes al
Sineni aç, dé <<oxqay>>
Körpe gicitkanlar
Dalasın ayağını,
Çiyelek, böyürtikan
Boyasın dodağını,
Ağacların budağı
Götürsün papağını…
Bir de kola ilişib
Lap cırılsın köyneyin
Bir buzbulaq başında
Yıxıl, qalmasın héyin.
Birce udum su içib,
Ara vér nefesine;
Qulaq as bu méşede
Sükutun neğmesine…

6

Ellerim

Ellerimi tapammıram,
Bir elim üzüm derir;
Bir elim-alma,
Bir elim-pambıq.
İş-çox,
Mehsul-bol.
Yığ, qardaşım, yığ!...

Bir elim şé'r yazır,
Bir elim torpaq qazır,
Bir elim çörek dalınca gédib,
Bir elim göz yaşı.
Yaman qarışıb
Ellerimin başı.
Ellerimi tapammıram:
Bir elim ata-anamın
Qocalığının yanında;
Bir elim körpemin eyninde
Qayğı donunda.
Ellerim özümün déyil,
Göz yaşı gözümün déyil…
Bir siqarét yandırın,
Qoyun damağıma
Ellerimin elinde işi var.
Bu heyatdı, qardaş.
Néçe cür biş-düşü var…
Açılar ellerimin başı,
Bir gözel günde,
Ömrümü size bağışlayaram
Bir acı siqarétin evezinde.

7

Arxada Hesret Var Qarşıda Hesret

Bu vaxtın elinden qaça bilmedim,
Göyler göye çekdi, yérler torpağa.
Çıxdı qanadlarım, uça bilmedim
Arana, yaylağa, Qarsa, Qazağa;
Haçandı sesleyir min arzu qismet
Arxada hesret var, qarşıda hesret.

Gédimmi, qalımmı? - suallar ağır,
Dolaşıq yolları men néce séçim?
Yağır, yollarıma qaya-daş yağır,
Hansına üz tutum, hansından kéçim,
O yanda qürbet var, bu yanda qürbet
Arxada hesret var, qarşıda hesret.

Alıb ömrümüzü aparır iller,
Bél bağlamaq olmur bahara, yaza.
Qovur bir-birini aylar, fesiller,
Çiçekler boy atır üzü payıza.
Gözümde açılır, solur tebiet
Arxada hesret var, qarşıda hesret.

Taléyin qeribe oyunları var,
Qelbimi göyneden intizara bax!
Qışda çiçekleyir be’zen ağaclar
Ömrün avqustunda yağan qara bax!
Orda oğul-uşaq, burda mehebbet
Arxada hesret var, qarşıda hesret.

Dünya heminkidir: gözü-könlü tox…
Éle atılırıq her axan çaya.
Hele özümüzden xeberimiz yox,
<<Vefasız>> déyirik qoca dünyaya;
Gelirik, gédirik - bu da bir adet,
Arxada hesret var, qarşıda hesret.

8

Mene Tanışdı

Ne gözel yayılıb sürü çemende,
Başını qaldırıb baxmır héç neye.
Boranda, yağışda, dumanda, çende,
Otlayar, otlayar ölmesin déye,
Baba, bu qoyunlar mene tanışdı.

Yastı quyruqları başından ağır,
Qırxılar, sağılar, satılar… dinmez.
Sebirli, temkinli, abırlı, fağır,
Özge sürülere qatılar, dinmez,
Baba, bu qoyunlar mene tanışdı.

Gün kéçdi, ay kéçdi, iller ötüşdü,
Sirkdeki vehşiler ehlileşdiler.
Gün doğdu, hamının yoluna düşdü,
Gör neler… gör kimler ehlileşdiler,
Baba, bu qoyunlar mene tanışdı.

Sıxır varlığımı, sıxır duyğular,
Sirdir bu dünyanın torpağı, daşı.
Herenin öz yéri, öz deyeri var,
Birinin quyruğu, birinin başı…
Baba, bu qoyunlar mene tanışdı.

Doymuşam, doymuşam bu menzereden;
İndi sedlerini aşan bir çayam.
Uzaqda olsam da dağdan, dereden
Men de adamların arasındayam,
Baba, bu qoyunlar mene tanışdı.

9

01 **Nağıla Çox İnanma**
02 Seher - dolu, günorta - gün, axşam - bulud,
03 Di gel baş aç bu deyişen havalardan.
04 Sen dünenki alqışları bu gün unut.
05 Söhbet açma axan sélden, yağan qardan…

06 Gah kükreyib mecrasını aşır bu çay,
07 Gah durulub axır sısqa bulaq kimi.
08 Bir-birine benzemeyir bu ay, o ay,
09 Uşaq - ahıl, ahıl gelir uşaq kimi…

10 Gündüz - te'rif, axşam - alqış, géce - şille,
11 İsti, soyuq… Gah açılır, gah tutulur.
12 Barış, vuruş… Vuruş, barış ayla, ille,
13 Unudulan qardaş olur,
14 Qardaş olan unudulur…

15 Xoş tebessüm, hede-qorxu, ümid-güman…
16 Bu havada yaş alışır, quru yanmır.
17 Gah gün çıxır, gah qar yağır, gah da duman
18 Bu havadan felek özü baş açammır.

19 Qara zurna haldan hala düşmededi,
20 Oyna görüm!
21 Havalar héy deyişmede…
22 Un, su… su, un…
23 Yoğrulmada, bişmededi…
24 Qemle, sévinc, toy ile yas déyişmede…

25 Yuxularda gördüklerin - seher doğru…
26 Seher doğru gördüklerin - axşam oğru…
27 Axşam oğru gördüklerin - géce nağıl…
28 Sen uşaqsan, qar, yağış, gün…
29 Ne ferqi var?!
30 Éh, nağıla çox inanma,
31 Çıx gét, oğul.

10

Deyme Könlüme

Sene néylemişem, deyme könlüme
Men ki senden ötrü oddan kéçmişem.
Birce üreyimi qorumaq üçün
Ünvandan kéçmişem, addan kéçmişem.

Seni işıq bilib uçdum yéline
Aldandım yalançı parıltılara.
İnandım diline, düşdüm eline,
Menim tek çoxunu qoydun avara.

Hele ümidim var özüme gelem,
Yaxşı neyin varsa yalanmış, yalan,
Ayaq üste gezen daş bir héykelem,
Birce üreyimdi salamat qalan.

Menim her addımda canım alansan,
Yadların gözünde yaşa dönmüşem.
Sen melek donunda qara yalansan,
Qarşında héyretden daşa dönmüşem.

Yaşayır üreyim bu daş qefesde.
Özüm öz içimde dustağam hele.
Düşüb arzuların qolları üste,
Xeyallar qoynunda oyağam hele.

Sene daş gerekdi: barı tikmeye,
Sene daş gerekdi: serhed çekmeye.
Elimi daş kimi vérmişem sene,
Dilimi daş kimi vérmişem sene,
Doxunma, penahım bir üreyim var,
Daşlansa inan ki, évini yıxar.

11

Behmen Vetenoğluna

O dağlarda giléylenme, amandı,
Sesin gelib bize çatdı, qardaşım.
Bu da béle bir dövrdü, zamandı:
Buralarda çathaçatdı, qardaşım.

Orda senin şé'rin, sözün yaralı,
Burda menim rengim-rufum saralı.
O dağlarda qéybetlerden aralı
Kéf-damağdı, toy-büsatdı, qardaşım.

Köçüm gétdi o durnanın köçünde,
Méylim yoxdu dövletinde, héçinde…
O güllerin, çiçeklerin içinde
Könül çoxdu, can rahatdı, qardaşım.

Burda yolu bağlı qalıb filin de,
Orda céyran qayaların bélinde…
Burda ömür saatların elinde,
Orda öten vaxt azaddı, qardaşım.

Yaddan çıxar orda qem de, qeher de,
O dağlarda bal dadıyar zeher de.
Qebire de basabasdı şeherde,
Orda şükür, iş babatdı, qardaşım.

Déyirsen ki <<Ömür yarı, bes hanı?..>>
Kim qazandı, o şöhreti o şanı?
Kim sıyrıla, kim qınında paslanı.
Bilmek olmaz, bu heyatdı, qardaşım.

Bu deryadı, burulğundı, axındı,
Hünerin var: bu axında ax indi.
O dağlarda tanrı sene yaxındı,
Orda ölmek mükafatdı, qardaşım.

12

Yazıqlar

Dağdan bir qaya düşdü,
Héllenib çaya düşdü,
Néçesi haya düşdü,
Dere uğundu gétdi,-
Yazıq dere…

Ovçu bereye yatdı,
Céyrana gülle atdı.
Dağı-daşı oyatdı,
Bere uğundu gétdi;
Yazıq bere…

13

Senden Gözüm Su İçmeyir

Bir an kimi kéçen aydan,
Günden gözüm su içmeyir.
Dünen torpağa sepdiyim
Denden gözüm su içmeyir.

Ne yatıbsan qafil, oyan!
Kül soyusa gécdir ha yan.
Téllerimi sığallayan
Çenden gözüm su içmeyir.

Günde bir söz véren dünya,
Qılığıma giren dünya.
Qulağını gören dünya,
Senden gözüm su içmeyir.

14

Güldüm Ağlaya Ağlaya

Celil Memmedquluzadenin xatiresine.

Viran qalmış bu dünyaya
Geldim ağlaya-ağlaya.
Gördüklerim uyğu imiş,
Bildim ağlaya-ağlaya.

Anladıqca men işini,
Atdım qalmağın daşını.
Çoxlarının göz yaşını
Sildim ağlaya-ağlaya.

Dağa qardaşam dözümle,
Goru görmüşem gözümle.
Derdimi özüm-özümle
Böldüm ağlaya-ağlaya.

Boş çıxdı üz tutdum kime,
Dünya namerd imiş déme,
Göz yaşım axdı içime,
Güldüm ağlaya-ağlaya.

15

Arazdan Çox Yazan Bir Şaire

Éle Araz déye giléylenirsen
Onun ne günahı, Araz néylesin?
Bir çayla ikiye bölünüb veten
Tanrıdı penahı, Araz néylesin…

İçmek isteyirsen şé'rinde onu
Yalançı mehebbet ahdı-amandı.
Bu hicran deryadı, görünmür sonu
Sıldırım sahiller ölümdü, qandı…

Yazma démirem ki, yaz, gelende teb,
Araz ha yozula, yéne tükenmez.
Çinar qelem ola, Xezer mürekkeb
Bu qem ha yazıla, yéne tükenmez.

Buna ne ad vérek, gétme uzağa
Üzbeüz bir qonşun öle gétmirsen.
O tayı bu taya çağıran qağa,
Bu tayda menimle yola gétmirsen.

Hereye bir qara yaxırsan, ne qem,
Düz birce özünsen, bir de papağın.
Kimin ünvanına bir xoş söz désem
Açılmır düz bir ay qaşın-qabağın.

Éle qışqırırsan <<Araz, yan, Araz>>,
Çayın kölgesinde yatma, amandı.
Bu tayda béş dostun yoxdu, bunu yaz
Yoxsa aralığı qatma, amandı.

Éle Araz déye giléylenirsen,
Onun ne günahı, Araz néylesin?
Bir çayla ikiye bölünüb veten
Tanrıdı penahı, Araz néylesin?

16

Kéçib

Sen elli yaşında hele uşaqsan,
Çoxdan ömrün-günün yarıdan kéçib.
Her béşden üçüyle qanlıbıçaqsan
Seninki adamlıq sarıdan kéçib.

Bir cındır xanım var: bilir ner seni,
Çoxu yola vérir birteher seni.
Qapıdan girmirsen, görerler seni,
Çapıb talayırsan barıdan kéçib.

Sen törpü deymemiş dişli hevesen,
Büllur ruhumuza düşen güvesen.
Özün öz gözünde filsen, devesen;
Ayıl, xırdalığın darıdan kéçib.

Birce hime benddi hirsin-acığın
Qorxun yox ilandan - sözün açığı.
Zeher tuluğusan, kin dağarcığı;
Zeherin eqrebden-marıdan kéçib.

Daha qalan qalıb, ölen ağlanıb,
Taléyin yazısı gétmez, dağlanıb.
Daha olan olub, qapı bağlanıb;
Seninki <<qapıdan-qarıdan>> kéçib.

17

Quruyan Ağaclar

Bir güler baxışdan daş çiçekleyer,
Payız külekleri soldura bilmez.
Bir qayğısız ömür quruyar géder,
Yüz bahar gelse de güldüre bilmez.

Nedir tebietde ömür - bir şüşe,
Hele çox işleri duymayırıq biz.
Bir palıd yıxılsa, hayqırar méşe,
Ağaclar quruyar sessiz, semirsiz.

Ağaclar quruyar, döner héykele,
Géciken baharla qalar küsülü.
Kölge düşen yérde démirem hele,
Benövşe çiçekler boynubükülü.

Dünyanın işleri qeribe imiş,
Baharın ovcunda saralar çinar.
Quşlar budağından hele köçmemiş,
Yaşıl yarpaqların uçuşu başlar.

Hele çox işleri duymayırıq biz,
Külek kéflenende tövşüyer méşe,
Ağaclar quruyar sessiz-semirsiz,
Görse yarpaqsızı, üşüyer méşe.

Bir duyğu, bir sual sıxar qelbimi,
Göylerin göresen, xeberi varmı?
Pöhreler géciken qayğılar kimi,
Göyerer, kim bilir, göye çatarmı?

Ağaclar, yıxılar, kölgesi itmez,
Duymaz, ağac-ağac soyular méşe,
Ağaclar quruyar, yatar, éşitmez,
Tek balta sesine ayılar méşe.

18

Qırmızı Feryad

Dözemmirsen sen hicrana,
Ay ve’desiz solan lale,
Bir qırmızı feryad olub
Saçlarını yolan lale.

Kim çekibdir seni dara,
Nedir köksündeki yara?
Obaşdan baxıb yollara,
Ay gözleri dolan lale.

Derdimiz bir: ne sen, ne men,
Sıxır seni bu çöl-çemen.
Ömür boyu al géyinen,
Bağrı qara olan lale.

19

Géce Növbesinden Sonra

Cibleri,
Qoynu-qolutuğu
Géceyle dolu,
Üzünde
Lampaların sarı işığı,
Fikrinde isteklisi,
Ömrünün-gününün yaraşığı.
Qulaqlarında
Motorların gürültüsü.
Pénceyinin yan cibinde
Boşalmış papiros qutusu.
Üreyinde
Hele de oyaq qalan
Ümidi, isteyi…
Éle bil
Bu dünya onun idi,
Qemin, kederin sonu idi.
Qayıdırdı évine
O, sévine-sévine…

20

01 **Uçurum Ölüme Doğru**
02 Uçuruq
03 ölüme doğru,
04 Qaçırıq
05 ölüme doğru.
06 Kéçib sévincin içinden
07 Xoşbextliyin dalınca
08 Köçürük
09 ölüme doğru.

İKİNCİ BÖLÜM: HER ŞÉYİ TEZEDEN BAŞLAYAM GEREK

21

Gel Ay Bahar
Qayaların buz salxımı
gilelendi:
Derelere, düzenlere
gül elendi
Qış göylerde
şimşeklerle güllelendi.
Bahar geldi,
Gel, ay bahar!

Güneş yédi
lal suların qaymağını.
Alışdırdı
düzler lale çırağını.
İl çévirdi
yéne yaşıl varağını:
Bahar geldi,
Gel, ay bahar!

22

Her Şéyi Tezeden Başlayam Gerek

Ömür-gün eriyir yağan qar kimi,
Yollarda nefesim tengiyir daha.
Ömür-gün dönermi ilk bahar kimi?
Ömür-gün dönermi durnalar kimi?
Ümidim qalıbdı gelen sabaha.
Her şéyi tezeden başlayam gerek.

Ayın sinesini alıbdı bulud,
Sehere ne qeder qalıb, bilmirem.
İten günlerimi üreyim, unut.
Onu kim elimden alıb, bilmirem.
Saçıma qar yağıb ömrün qışından,
Ayrılıb elimin işsiz işinden,
Ayrılıb gözümün axan yaşından
Her şéyi tezeden başlayam gerek.

Gözüm su içmeyir bu gelen qışdan,
Bu ayın, bu günün sonu görünmür.
Göylere baxıram durub obaşdan,
Güneş hayandadır, hanı, görünmür.
Yatıb qar altında yallar, yamaclar,
Yatıb mışıl-mışıl bir uşaq kimi.
Yazda gül açacaq otlar, ağaclar:
Yaza çıxmaq üçün bu torpaq kimi
Her şéyi tezeden başlayam gerek.

Mene gözdağıdır qoca savalan,
Éle héy gösterir yağan qarını;
Araz aralıqda dönüb günaha.
Sanki lilli-lilli axıb sabaha,
Yuyub temizleyir günahlarını.
Araztek yumaqçün günahlarımı
Hele çox axmalı, durulmalıyam.
Hele göremmirem özüm-özümü,
Diklenen yollarda yorulmalıyam,
Her şéyi tezeden başlayam gerek!

Dağlara direnir yolumun ağzı,
Bilirem, dizimi daş aparacaq.
Gerek ağlamayam, sızıldamayam,
Ağlasam, gözümü yaş aparacaq.
Min ildir yatıram fil qulağında,
Bu yollar hele çox baş aparacaq.
Bu xezan altında uyuyur ruhum,
Ne vaxtsa göyerib çıxmalıyam men.
Bir vaxt od oğrusu olubdu adım,

44 Dünyaya güneştek baxmalıyam men
45 Her şéyi tezeden başlayam gerek.

46 Deyişib ünvanım deyişib adım,
47 Deyişib, déyesen, yaxınım-yadım.
48 Qelbim yad ürekde donur, déyesen.
49 Adım bir dodaqda yanır, déyesen…
50 Qırıb ruhumdakı buz laylarını,
51 Könlüme, gözüme bahar gelecek
52 Dolanıb taléyin dolaylarını,
53 Alnıma yazılan o yar gelecek…
54 Yéter yağan qardan, qışdan giléyim,
55 Yollarıma yağan daşdan giléyim,
56 Her şéyi tezeden başlayam gerek.

23

01 **Araz Burda Üreklerden Axar Héy**
02 Ahım qalxıb bulud-bulud köç éyler,
03 Ağrı Dağda ildırımlar çaxar héy…
04 Bu serhedler isteyimi héç éyler
05 Üreyimde yağışlarım yağar héy…

06 Béş addımda sesim-ünüm yétmeyir,
07 Ha gédirem béş addım yol bitmeyir,
08 Tanrı niye bir möcüze étmeyir?
09 Bu qem bizi yandırar héy, yaxar héy.

10 Yurdum-yuvam paçalanıb bölünüb,
11 Ana dilim haçalanıb bölünüb,
12 Ürekler de parçalanıb bölünüb
13 Araz burda üreklerden axır héy.

14 Nese çatmır söhbetimde, sözümde,
15 Zara gelib döze bilmir dözüm de.
16 Yaşıl gözlü bir ümid var gözümde,
17 Kömür bextim, kömür gözüm baxar héy…

24

Ölemmerem
<<Üzün gülmür>> - déme mene,
Gülemmerem, gülemmerem.
Deryada neyim qalıbdır,
Bilemmerem, bilemmerem.

Düz yollarım tepe, dere,
Yıxılmışam néçe kere.
Arzum yélken açan yére
Gelemmerem, gelemmerem.

Yollar meni çapıb, soyub,
Döyülmekden gözüm doyub.
Béle derdi-seri qoyub
Ölemmerem, ölemmerem.

25

Bu Géce Ne Yaman Uzandı Béle

Bu géce ne yaman uzandı béle,
Göylere baxmaqdan qaraldı gözüm.
Bu géce ne yaman uzandı béle
Hardasan, ay seher, ay canım-gözüm?!

Ümidim oyaqdır, qulağı sesde,
Uçan xeyallara çata bilmirem,
Daş kimi yatırdım torpağın üste
İndi qu tükünde yata bilmirem.

Gözüm baxa-baxa axır ulduzlar,
Her ulduz bir talé, bir ömür-gündür…
Axıb yaxalardan çıxır ulduzlar,
Göy üzü, yér üzü düyün-düyündür…

Gözlerim géceye öyreşir daha,
Beyaz téllerimde açılır seher.
Baxa bileremmi gören sabaha?
Yaşamaq birteher, ölmek birteher.

Ulduz soyuqluğu qalıb gözümde,
Her şéyi bir rengde, bir biçimdedir.
Meni qınamayın kölgem üzümde,
Seherim, işığım öz içimdedir.

Géce adalara dönüb otaqlar,
Yuxular, duyğular en zerif şüşe.
Yarasa yuvası olub papaqlar,
Néce baxacaqlar sabah güneşe.

Qeriblik uyuyur dağ havasında,
Xınası göyerir daşının üste.
Qartallar devdenir öz yuvasında,
Uçur yapalaqlar başının üste.

Ay girib buluda şö’lesi sönüb,
Bağrı çatlayacaq İsaq-Musağın.
Bülbülün nalesi laylaya dönüb,
Şirindir yuxusu uşaq-muşağın.

Bu géce uzansa, uzansa bir az,
Qelbimdeki seher oyanacaqdır,
Ömür süreceyem öz işığımda,
Gécem qırmızıya boyanacaqdır.

38 Çekilse yolumdan géce-qaranlıq,
39 Néylerem eriyen sebre, dözüme?!
40 Qelbimin işığı yansa bir anlıq,
41 Düşmen kesilerem özüm özüme!
42 Bu géce ne yaman uzandı béle?

26

Bu Sulh Ölümdü

İzrail müstemlekecileri Felestin azadlıg herekatı başçıları ile sülh danışıgları keçirmek istemişler. Lakin redd cavabı almışlar.

Qezétlerden.

Meni qınamasın, éller, obalar,
Ağbirçek neneler, düşgün babalar.
Qoy menim boynuma bütün baballar
Dünyada neyim var bölüm-bölümdü,
Men sulh istemirem,
bu sulh ölümdü!

Kime yön çévirim, kime el açım,
Hele didergindi qardaşım, bacım.
Ölüb dirilmekdi daha elacım.
Döyüşüm dünyaya teze gelimdi,
Men sulh istemirem,
bu sulh ölümdü!

Zeherdi, tökülüb aşımın altda,
Uyuyan ilandı daşımın altda,
Tük yastıq kimidir başımın altda,
Qefesde oxuyan söz bülbülümdü.
Men sulh istemirem,
bu sulh ölümdü!

Kırmızı kederdi, o, şadlıq déyil,
Bir parça çörekdi, azadlıq déyil.
Xaraba könlümdü, abadlıq déyil,
Yanıb tükenmişem, qalan külümdü.
Men külün altında,
bu sulh ölümdü!

Manqurt papağıdı bu sülh başımda,
Gül açan ağacdı qarlı qışımda,
Menim torpağımda, menim daşımda
Qırılan méşemdi, solan gülümdü,
Men sulh istemirem,
bu sulh ölümdü!

Hanı öz tarixim, kimem, neçiyem?
Yérsizem, yurdsuzam, qulam, kiçiyem.
Özüm öz évimde kirayeçiyem
Mütilik, fağırlıq qardaş, zülümdü,
Men sulh istemirem,
bu sulh ölümdü!

38 Meni qınamasın, éller, obalar,
39 Ağbirçek neneler, düşgün babalar.
40 Qoy menim boynuma bütün baballar
41 Biçare vetenim bölüm-bölümdü:
42 Men sulh istemirem,
43 bu sulh ölümdü!

27

01 **Belke**
02 Od göyler oğludur - déyib babalar,
03 Doğub buludların şimşeklerinden.
04 Suyun da öz yéri, öz yatağı var,
05 Süzülür dağların eteklerinden.

06 Doğma ümmanlara qovuşsun déye
07 Yağışların yolu yére sarıdı.
08 Od yanır,
09 Alovu yükselir göye,
10 Belke
11 Bu, onların é'tibarıdır?

28

01 **Ay Bağban Hardasan**
02 Ay bağban, hardasan, varsansa ayıl:
03 Axı düz-dünyanı basıb bu ağac.
04 Öten buludları şişe kéçirdir
05 Bağın nefesini kesib bu ağac.

06 Qamarlayıb emir héy solu-sağı
07 Göyden buludları, yérden torpağı.
08 Birce an dinc durmur eli-ayağı,
09 Ömür boyu barsız, kasıb bu ağac.

10 Başının üstünden quşlar périkdi,
11 Ayağı altında nardı, erikdi,
12 Tenekler elinde yaşıl hörükdü,
13 Torpağı saçından asıb bu ağac.

14 Doğranır pöhreler burda biteli,
15 Bir polad baltadan yapışıb eli.
16 Adını démirem qara kölgeli
17 Yaşıl héykel kimi susub bu ağac.

29

Türk Oğlu Türkem Men

Salam, éy manqurt qardaşlar,
Qoyunlaşmış
Qurd qardaşlar,
Atın cılğı papaqları,
Qulaq asın bir an barı:

Göyden gelib eslim-soyum:
Menem,
Türk oğlu Türkem men!
Güneş-mayam, bulud-suyum,
Menem,
Türk oğlu Türkem men!

Atam-Tanrı, anam-boz qurd,
Min adım var, yérim min yurd…
Tatar, Türkmen, Qırğız, Başqırd:
Menem,
Türk oğlu Türkem men!

Süreyinden uzaq olan,
Öz içinde yasaq olan,
Teklenib yalquzaq olan:
Menem,
Türk oğlu Türkem men!

Görmüşem her bir ağrını,
Sévmişem merdi-doğrunu.
<<Menem>> déyenin bağrını
Yaran Türk oğlu Türkem men!

Torpaq bize veten-ana,
Düşübdür min bir dastana.
Gündoğandan-günbatana
Saran Türk oğlu Türkem men!

Qürbet bildim bu alemi,
Sévdim onu ustad kimi.
Zamanı minib at kimi
Yoran Türk oğlu Türkem men!

Bir vaxt arzuma çatmışdım,
Cengin daşını atmışdım.
Fil qulağında yatmışdım
Duran Türk oğlu Türkem men!

39 Yadlaşıbdı bu kend-o kend
40 Altay, Tebriz, Kerkük, Derbend
41 Param-parça, böyle bend-bend
42 Viran Türk oğlu Türkem men!

43 Salam, éy manqurt qardaşlar!
44 Qoyunlaşan
45 Qurd qardaşlar!
46 Atın cılğı papaqları
47 Tanıyın bu dostu-yarı.

48 Bölünse de bir élimiz,
49 Yaşayır tanrı dilimiz!
50 Açaq, açaq gözümüzü,
51 Tanıyaq öz-özümüzü;
52 Déyek: <<Türk oğlu Türkem men!>

30

01 **Derdim Dünya Yaşındaymış**

Aşıq Elesgere

02 Ömrüm-günüm oldu talan,
03 Düşmenlerim yalan, yalan!
04 Heyatıma balta çalan
05 Ocağımın başındaymış.

06 Gör nelerdi, neler, varım,
07 Gözde çenim, başda qarım.
08 Qelbimdeki ağrılarım
09 Déme dünya yaşındaymış!

10 İsti-soyuq, şirin-acı
11 Hamsı birdi: qardaş-bacı.
12 Könlümünse éhtiyacı
13 Görmemişem, qarşımdaymış.

14 İslam-dinim, Türkay-adım.
15 Hicran-dostum, qem-ustadım.
16 Çox çalışıb-çabaladım,
17 Heyat da öz işindeymiş.

31

Ölüm

Bu heyat bir deryadır;
Bu deryanın dibinde
Üzürük balıq kimi,
Gezirik balıq kimi…
Bizden uzaqdakılar,
Gözden uzaqdakılar
Başımızın üstünde
Yaşayır xaliq kimi…

Yuxarıda xaliqler…
Aşağıda balıqlar…

Xaliqler qarmaq atır,
Balıqlar tora düşür…
Belke de ölüm budur?
Éh, ömür-gün ötüşür…

32

Sévgim Mene Qenim Oldu

Mene qalan ağrım-acım,
Sévgim mene qenim oldu…
Éşqim menim dar ağacım,
Sévgim mene qenim oldu.

Uçrumda biten velesdim,
Derin qatlara telesdim.
Qılınctek qınımı kesdim
Sévgim mene qenim oldu.

Sine gerdim tufanlara,
Ümid bağladım bahara.
Arzum meni çekdi dara,
Sévgim mene qenim oldu.

ÜÇÜNCÜ BÖLÜM: GELİREM QARŞIMA ÇIXANIM YOXDU

33

Atama Mektub

Başım yad ellerde menim, ay dede,
Bağışla, yanına gele bilmirem.
Düşmüşem kemende, çıxılmaz oda;
Ağlaya bilmirem, güle bilmirem.

Görmürem dövremde qohum-qardaşı
Götüre yolumdan qayanı, daşı.
Üreyime axır gözümün yaşı,
Gözümün yaşını sile bilmirem.

Ne déyim bu zalım vaxta-zamana?
Her şéy bürünübdür çene, dumana.
Sığınıb qalmışam baxta-gümana,
Yaşaya bilmirem, öle bilmirem.

34

Bu Gün Bayramındır

Bu gün bayramındır,
oturmuşum tek,
Fikrim peren-peren…
Düşünürem, meni anan varmı gören?
Éh, senden başqa kim var, kim olacaq?
Bilirem…
Elimde bir qedeh qem,
Sağlığına çekirem başıma
Mestem:
Qabağımda
Bir çimdik duz,
Bir dilim quru çörek…
Sağ ol, ana! Bayramın mübarek!
Bu gün bayramındır…
Sağlığına bade qaldırıram,
Elimde bir qedeh qem,
Gözümün-könlümün seni kem…
Gözünün, könlünün meni kem…
Bilirem…
Barmaqlarımı yandırır
Papiros kötüyüm.
Özüm özüme tuşlanmışam.
Zamanın elindedir tetiyim.
Fikirlerim derbeder.
Helelik, bu qeder…

35

Hesret Yağışı

Qeriblik bürüyüb cığırı-izi,
Köçübdü göllerin sonası, yoxdu.
Bağların saralıb-solub benizi.
Éle bil menimtek anası yoxdu.

Tutulub göylerin qaşı-qabağı,
Elleri qoynunda qalıbdı dağlar.
Méşenin çaylara yağan yarpağı
Hesret mektubudu, oxuyan ağlar.

Budaqlar, göylere hayqıran eller,
Méşeler virane şeherdi, Allah!
Qayalar dibinde titreşen güller
Qarıyan qızlardı-qeherdi, Allah!

Tek ağac anammı, hesret qarımı,
Qebirden boy véren sedadı belke?
Tökülen yarpaqlar göz yaşlarımı,
Göz yaşı içinde adadı belke?

Hava nemişkendi, cığır sürüşken,
Palıdlar odlara qalanıb gédir…
Seherler döşleri çulğalayan çen
Baharın ruhudu, dolanıb gédir…

Ağarır dağların saqqalı, bığı,
Qayalar dayanıb deyanet kimi.
Göy tala-baharın iten yaylığı,
Duman ütü çekir emanet kimi…

Çaylar yavaşıyıb, sular durulub,
Ayrılıq neğmesi çalır bulaqlar.
Éle bil vaxt susub, zaman yorulub,
Éle bil çağırır meni uzaqlar…

36

Nola Dönüb Uşaq Olam Birce Gün

Nola dönüb uşaq olam birce gün
O çağlarım bir de döne, gele, of…
Dizin-dizin imekleyem, yıxılam.
Anam yéne göz yaşımı sile, of…

Quzuları sübh-obaşdan haylayam
Deryaz alıb çemen boyu laylayam
Ulaqları alıqlayam, taylayam,
Üst-başımdan yovşan etri gele, of…

Harda qaldı o insafsız, çağlaya;
Yéne gelib gözlerimi bağlaya.
Hörüyüne el vuranda ağlaya,
Sonra qaçıb gülümsüne, güle, of…

Men gécikdim, o yamanca telesdi,
Köçüb gétdi, üreyimde tél esdi…
İsteyime béle qara yél esdi,
Urcah oldum bir zeherli dile, of…

Çox öyündüm qelbimdeki dözümnen,
Ağ bayraqtek yaş elendi gözümden.
Böyüdükce aralandım özümden
Axır düşdüm bu delisov séle, of…

Bu heyatdı: her addımı yarışdı,
Arzularım taléyimle barışdı.
Yaşamağa başım éle qarışdı,
Ömrü-günü yaman vérdim yéle, of…

37

Daha

Gözleme yolumu, gözleme, anam,
Başdaşını öpen ayazam daha.
Coşub-çağlamayır deli séllerim,
Sengiyib düşmüşem, ay azam daha.

Beyaz güller açıb qara saçımda,
Deli qasırğalar esir içimde.
Durna hesreti var köçhaköçümde,
Uzaqda saralan payızam daha.

Yandım bir nadanın fitne-fé'linde,
Ocaqlar çatıldı her an bélimde.
Dinib-danışmadım naşı elinde,
Daşlara çırpılan bir sazam daha.

38

Gelirem, Qarşıma Çıxanım Yoxdu

Sen vardın,
Dünyada ne idi derdim,
Sen yoxsan
Bir kimse hayana gelmir.
Sen vardın
Çoxuna <<ana>> déyerdim
Sen yoxsan
Dilime <<ay ana>> gelmir.

Gelmişem yad kimi, uzaq kimiyem,
Otura bilmirem, dura bilmirem.
Özüm öz évimde qonaq kimiyem,
Elimi bir işe vura bilmirem.

Éle bil bu yuva déyilmiş menim
Gelirem, qarşıma çıxanım, hanı?
Dönürem, arxamca el éyleyenim,
Şalıyla gözünü sıxanım hanı?

Bu évin-éşiyin güneşi, ana
Dönerdik başına héy seher-axşam.
Sen yoxsan çekilib here bir yana,
Éle bil quyuya atılan daşam.

Gelirem yad kimi, uzaq kimiyem,
Erkle qapımızı aça bilmirem.
Doğulduğum évde qonaq kimiyem,
Daha qanadlanıb uça bilmirem.

Éle bil qeribem,
Bu év de qürbet!
Hanı gelişime açılan qollar?
Gözümde intizar, qelbimde hesret
Meni qebristana aparır yollar…

Senin ayrılığın qeddimi eyir,
Mezarın önünde tükenib sözüm.
Men dönüb gédirem
Oğlum gözleyir,
Sen döne bilmirsen
Gelerem özüm…

37 Sen vardın,
38 Dünyada ne idi derdim,
39 Sen yoxsan
40 Bir kimse hayana gelmir.
41 Sen vardın çoxuna <<ana>> déyerdim
42 Sen yoxsan
43 Dilime <<ay ana>> gelmir…

39

01 **Anamı Düşünerken**
02 Qeriblik, sensizlik alar üstümü,
03 Üreyim kövreler, qaynayar, çağlar…
04 Buludlar bacandan çıxan tüstümü?
05 Başımın üstünde hönkürer, ağlar…

40

01 **Éşit Ne Déyirem**
02 Éşit, ne déyirem, ay qoca dedem,
03 Temennalı çörek ne ağı imiş.
04 Mene can-can déyen dostum, hemdemim,
05 Sen déme amansız bir yağı imiş.

06 Ömrümde gah duman, gah çen görmüşem.
07 Dünyanı gah qemgin, gah şen görmüşem.
08 Ayılıb saçımı den-den görmüşem.
09 Ağ saçlar pis günün sorağı imiş.

10 Men uddum-uduzdum bu sert yarışda,
11 Üşüdüm baharda, isindim qışda.
12 Anlayıb gördüm ki, dost da tanış da
13 Birce yaxşı günün ortağı imiş.

14 O yurddan-yuvadan düşmüşem uzaq,
15 Gün geler, çekiler bu qar, bu sazaq.
16 Senin buxarında alışan ocaq
17 Menim üreyimin çırağı imiş.

41

Atadan Anadan Uzaq

Atadan, anadan uzaq,
Qardaşdan, bacıdan uzaq
Anam, men kime lazımam?
İçim yanar, çölüm sazaq,
Gel burda bir çuxur qazaq
Anam, men kime lazımam?

Ayrı düşdüm budağımdan,
Öz yurdumdan, yatağımdan.
Neye deyer dédiyin - <<can>>
Anam, men kime lazımam?

Çapılmışam, talanmışam,
Yad budağa calanmışam.
Calaq é'tibarsız olar,
Anam, men kime lazımam?

Dad étmeye sözümmü var,
Yüyürmeye dizimmi var.
Boylanmağa gözümmü var,
Daha mende dözümmü var,
Anam, men kime lazımam?

42

<<Keremi>>nin Dédiklerinden

Bu göyün altında, yérin üstünde,
Menim bu dünyada kimim var, ana.
Gözüm gördükleri her an qesdimde,
Menim bu dünyada kimim var, ana…

Taléyin sehrası yandırdı meni,
Men sınan déyildim, sındırdı meni.
Éşqim ayaqlara éndirdi meni
Menim bu dünyada kimim var, ana…

Susmadı heyatla ömrün savaşı,
Üzümde qurudu gözümün yaşı.
İtirdim, itirdim yarı, yoldaşı
Daha bu dünyada kimim var, ana…

Deryalar qoynunda qalan gemim var,
Könlümün hemdemi öz elemim var.
Bir sazım, bir qelbim, bir qelemim var
Daha bu dünyada kimim var, ana…

Ömrümde-günümde hederem daha,
Başdan-ayağadek kederem daha.
Qelbimi götürüb géderem daha,
Menim bu düyada kimim var, ana…

43

Géce Düşünceleri

Güneş qürub éder, ayaq açar şer,
Görünmez torpağın könül hemdemi.
Tebiet éle bil qara géyiner,
Gözleyer güneşi sehere kimi.

Geler yuxularda ümidlere çen,
Kiminse ömründe bir il ötüşer.
Göyler ulduz-ulduz yanar qüsseden,
Göz yaşı çiçeyin üzüne düşer.

Sükut kéşik çeker çemene, çöle,
Uyuyar dağ-dere, yatar élatlar.
Ulduzlar xelveti göz éyler güle,
Heyadan qönçenin dodağı çatlar.

Gülümser qönçeler, gören fikri ne?
Bülbülün neğmesi çağlar, yükseler.
Ses düşer gécenin qeribliyine,
Bir şair tezeden dünyaya geler.

Baxar buludlardan ay xumar-xumar,
Géceler dünyanın gözü-könlü tox.
Hardasa anadil yéne oxuyar
<< - Hardasan?>>
<< - Burdayam!>>
<< - Tapmadınmı?>>
<< - Yox!>>

Güneş qürub éder, ayaq açar şer,
Görünmez torpağın könül hemdemi.
Tebiet éle bil qara géyiner.
Gözleyer güneşi sehere kimi.

44

Daş Méşe

Buranın sükutu qulaq batırır,
Ay aman, béle de sükut olarmı?
Fikrimi dağıdır, sebrimi qırır,
Ürek béle yérde sakit olarmı?

Bu yérler dağılmış bir şeher kimi,
Mehelle-mehelle, ocaq-ocaqdır.
Oğulsan sen indi düşün alemi,
Burda uzaq-yaxın,
Yaxın-uzaqdır…

Saatım éle bil yérinde sayır,
Hanı bes quşların sesi, sorağı?
Bilmirem evveli hardan başlayır,
Buradır dünyanın qurtaracağı.

Daşlara baxıram boyumdan uca,
Neheng şamlardımı?
Belke sönübdü.
Daşlar alay-alay, qocadan qoca…
Yoxsa bir ordumu, daşa dönübdü?

Her mezar tarixdir, neler söyleyir,
Her daş bir arzudu, bir eldi belke?
Günbezler erlerin debilqesidir,
Qoyublar üstüne, dikeldi belke.

Burda her addımın qulağı sesde,
Daşlar yazılıbdı, qaralanıbdı.
Daşlar éle susub qebirler üste,
Sanki qaravulda sıralanıbdı.

Ölenler daş olub qalxıb ayağa,
Ayrılıq onları yandırıb-yaxıb.
İnsan basdırıblar qara torpağa,
Qaya vüqarları göyerib çıxıb.

Buranın sükutu qulaq batırır,
Ay aman, béle de sükut olarmı?
Fikrimi dağıdır, sebrimi qırır,
Ürek béle yérde sakit olarmı?

45

Payız

Başlayıb quşların köçhaköç demi,
Méşeye bir sarı xebermi geldi?..
Éle bil modabaz gözeller kimi
Salxım söyüdlerin saçı gödeldi…

Oxuyur hesretle çinar éle bil,
Nese bir giléy var dodaqlarında.
Belke, düşünürem yuvalar déyil.
Boş béşik yéllenir budaqlarında.

Zile köklenibdi sanki ağaclar,
Méşeler qorxulu neğme olubdur
Soyuqmu deyibdir, yoxsa ki, ne var,
Güneşin benizi béle solubdur?

Quşlar bulud-bulud uçdular göye,
Bir xeber getirdi şimal küleyi.
Hardasa qar düşdü dağa, dereye,
Üşüdü aranda payız çiçeyi.

Dolama dağ yolu aşırımların
Asılıb çiyninden héybesi teki.
Yol üste vüqarla duran çınarın
Yuvalar başında méyvesi teki…

Qedrini bilmedik bir vaxt payızın,
O aylar, o iller bir xeyal olub.
Menimle gizlenpaç oynayan qızın
Bu payız yanında dilim lal olub.

Dağlar ağ yapıncı géyir eynine,
Mağara soyuqdur, kaha soyuqdur.
Anam yün şalını salar çiynine:
-Hardasan, ay bala, daha soyuqdur…

DÖRDÜNCÜ BÖLÜM: SENDEN UZAQLARDA SARI YARPAĞAM

46

01 **Nola Çata O Dilbere**
02 Nola çata o dilbere
03 Sözüm, ay bulud, ay bulud!
04 Ağlar qalıb senin kimi
05 Gözüm, ay bulud, ay bulud!

06 Yandım oda, gündüz, géce,
07 Dönük çıxdı o gizlice.
08 Bu hesrete söyle néce
09 Dözüm, ay bulud, ay bulud?

10 Al meni de dé - qonağım,
11 Gör hardadı gülyanağım.
12 Başı üste dolub yağım
13 Özüm, ay bulud, ay bulud!

47

Menden Uzaqdasan

Menden uzaqdasan,
Burda qar yağır,
Gören néyneyirsen menden uzaqda…
Qulağın seslense, adımı çağır
Burda üşüyürem isti otaqda.

Her yan bir rengdedi,
Başında ağ tac,
Qara ile ağı gel indi ayır.
Heyetde boynunu eyen bir ağac
Uzaqdan ağ donda sene oxşayır.

Her teref ağarıb
Yaxşı da pis de.
Gören ne paltardı géyib tebiet?
Bulud çiçekleyib başının üste,
Göylere derdini déyib tebiet…

Arzular atlana, hesret dağlana,
Ömür-gün uzana, yaş ötüşmeye…
Qar yağa,
Hicranın yolu bağlana;
Bir de aralığa gelib düşmeye!

Bağrımın başını göynetdin yéne,
Uzun ayrılıqdan yar küsen déyil.
Baharı mektuba qoy, yolla mene,
Mektubun gelmese, qar kesen déyil…

Menden uzaqdasan,
Burda qar yağır,
Gören néyneyirsen menden uzaqda…
Qulağın seslense, adımı çağır
Burda üşüyürem isti otaqda…

48

Orda Bir Söyüd Gördüm

Orda bir söyüd gördüm,
Télleri onunkitek.
Bir qulac kenmed idi;
Birce hime bend idi,
Yamanca kövrek idi,
Héyif, héyif, tek idi…

Orda bir söyüd gördüm,
Télini yélleyirdi.
Éle héy oxuyurdu,
Bilmirem ne déyirdi…

Orda bir söyüd gördüm,
Tutulmuşdu dilleri,
Saralmışdı télleri…

Orda bir söyüd gördüm,
Télleri onunkitek…
Yamanca kövrek idi:
Héyif, héyif, tek idi!
Yollara boylanırdı,
Alışırdı, yanırdı.
Belke o idi yalqız?
Ax, ay payız, ay payız!..

49

O Günden

Baxdım gözlerine,
Coşub çay kimi
Yanımdan acıqlı, hirsli ötüşdün;
Özünden xebersiz, menden xebersiz
Géce penceremden düşen ay kimi
Süzülüb gözümden könlüme düşdün.

O günden alışıb yandım éle bil,
Ovundum tarımla-neğmeqarımla.
Be’zen oğrun-oğrun elimle déyil,
Döydüm qapınızı baxışlarımla.

Açdım üreyimi, qelbimin simi
Titredi. <<Yox>> - déye durdun qesdime.
Qelbimde doğulan körpe éşqimi
Hicrana beleyib atdın üstüme.

Qovuşdum hesrete o günden béle,
Donub gözlerimde, üreyimde qem.
Tek seni itirmek bes déyil hele,
Azıb gözlerinin qaranlığında
Özüm özümü de tapa bilmirem.

50

Dünyanı Qınama

Sen indi hardasan, gören hardasan,
İndi düşüremmi senin yadına?
Bilsem men qışdayam, sen bahardasan,
Donnam, el açmaram senin oduna!

Var-dövlet, şan-şöhret seninçün yazdı,
Gözünde göy maşın göy çiçek kimi…
Téléfon zengleri en xoş avazdı,
Destek ellerinde kepenek kimi…

Gizli nisgilin var bebeklerinde,
Gözlerin qaynamır, gözlerin gülmür…
Sen gözel çiçeksen naşı elinde,
Hele indiyedek etrini bilmir.

Niye giléylisen özün özünden,
Senin ki yolunu duman almayıb.
Bir gile yaş kimi düşdün gözümden,
Gériye dönmeye güman qalmayıb…

Küseyen olubsan sen uşaq kimi,
Özün öz gözünde qara işıqsan!
Büllur qablar kimi, çilçıraq kimi,
O éve adice bir yaraşıqsan.

Hesedle baxardın özün-özüne,
Bextin qarasına neler déyirsen…
Dünya görünmürdü dünen gözüne,
Bu gün bes dünyadan ne isteyirsen?!

51

Hörükler

Biz ki, and içmişdim ilk éşqimize,
Qelbimiz bir vurar, bir de yanardı.
Xelveti durardıq be’zen üz-üze,
Téllerin şé’rimde misralanardı.

Baxardı arxanca anam da herden,
Gelecek gelinle öyünerdi o.
Qara hörükleri görende be’zen
Genclik hesretile déyinerdi o.

Qonşuyduq, yadlığı itireceydik,
Arzular, dilekler ürekde söndü.
Aradan çeperi götüreceydik;
Hörükler kesildi, çepere döndü.

Anam da deyişib nese éle bil,
Qoy qızlar düşünsün bunları barı.
Men éle bilirem hörükler déyil,
Kesildi éşqimin ilk cığırları,

Ay kéçer, il kéçer, yaşar mehebbet,
Qelbimi yandırar, yaxar hörükler.
Sen mene hesretsen, men sene hesret,
Aradan Araztek axar hörükler.

Dostumun Ağrıları Silsilesinden

52

Daha Qovuşmayan Polad Yollarıq

Köksümde sağalmaz bir yarasan sen,
Meni qebre kimi izleyeceksen.
Köksümde bir leke, bir qarasan sen,
Sirrini hamıdan gizleyeceksen.

Arxadan vurulan bir bıçaq kimi
Ruhuma qaranlıq getireceksen.
Men sene oyuncaq, sen uşaq kimi
Meni birdefelik itireceksen.

Daha sağalmağa güman qalmayıb,
Gériye dönmeye yolumuz varmı?
Biz ne sayıbmışıq, sayan ki sayıb,
Qarşıda görünen çiçekmi, qarmı?

Bir zaman anamın vérdiyi üzük
İndi barmağında ilana dönüb.
Qovuşub, ayrılan çehlimik, izik,
Öten aylar-iller yalana dönüb.

Daha tanımışıq biz özümüzü,
Her yanda üzüne yollar açıqdı.
Éle bilirsen ki, bu dünya üzü
Mene qaranlıqdı, sene işıqdı?

Saplandın köksüme bir bıçaq kimi,
Bir düşün, bir düşün, gör néyledin sen.
Qelbimde uyuyan mehebbetini
Özün öz elinle mehv éyledin sen.

İndi qovuşmayan polad yollarıq,
Axı yol gelmişik oddan küledek.
İki balamız var: néçe ki varıq,
Aparaq onları bir menziledek.

53

Seni İtirdim

Dédim, ayrılığa döze bilmerem,
Axır ki, qelbimde dözümü tapdım.
Bu menden olmadı, özünden oldu
Arxanca sepilen izimi tapdım.

Dédim, ay insafsız, béle qaynama,
Sévgime gel deyme, odla oynama;
Axır ki, daş atdın könül aynama,
Ayaqlara düşen sözümü tapdım.

Günleri payıza dönen, saralan,
Bu men déyildimmi, dédin: aralan.
Senin ellerinle sönen, qaralan
Ocağımı tapdım, közümü tapdım.

Meni anlamadın, bu derd böyükdü,
Taléyin éşqimin gözünü tökdü.
Hesretin tüstüsü saçıma çökdü,
Men seni itirdim, özümü tapdım.

54

Héç Vaxt Béle Yanmamışdım

Héç vaxt béle yanmamışdım,
Sen yandırdın!
Héç vaxt béle donmamışdım,
Sen dondurdun!
Héç vaxt béle alçalmamış,
énmemişdim,
Sen éndirdin!
Bu dünyanı
Héç vaxt béle duymamışdım,
qanmamışdım,
Sen qandırdın!
Sağ ol! Sağ ol!

55

Men Seni Tezeden Séve Bilmerem

Barışaq déyirsen, nolar, barışaq,
Bizi tanıyan var; dost var, düşmen var.
Nolar, milyonlara biz de qarışaq;
Sorma: <<Gözlerinde yénemi çen var?>>
Men seni tezeden séve bilmerem.

Gécikmiş qayğıdır méhrin, qılığın,
Qara saçlarımın ağı olmusan.
Ağrı yığın-yığın, dağ yığın-yığın,
Ömrüme-günüme yağı olmusan.
Men seni tezeden séve bilmerem.

Basılmış torpağam, qurtarmış işem,
Seninçün gécikmiş baharam indi.
Özümü özümde defn éylemişem,
Ayaq üste gezen mezaram indi;
Men seni tezeden séve bilmerem.

Hanı, senden ötrü qaynar gözüm yox,
Könlünü inleden şé'rim, sözüm yox!
Gériye yol varmı, hanı, üzüm yox…
Kime yön çévirim, üz tutum kime?
Neyi isteyirsen vérim, amandı:
Mehebbet isteme, sévgi isteme,
Men seni tezeden séve bilmerem.

56

Mene İnanma

Burax xeyalımı, zalım balası,
Çıx gét üreyimden, aman günüdür.
Éşqim, mehebbetim yatır div kimi,
Hissimin, duyğumun yaman günüdür.

Onsuz da üreyim küsüb, usanıb,
Onu yuvasından qopara billem.
Senin gözlerinde alışıb-yanıb,
Évime soyuqluq apara billem.

Şirin dil acıyam, xoş üz möhtacı,
Qaynar baxışlarla besleme meni.
Düşübdür başımdan mehebbet tacı,
Bir de <<şah>> olmağa sesleme meni.

Sen deli deryasan, inanma mene,
Coşqun dalğalardan bézib géderem.
Meni sinen üste atıb-tutarsan,
Sahibsiz qayıqtek üzüb géderem.

Xeyalın könlümü yandırıb-yaxıb,
İterem mehebbet yağışlarında.
Deli sularından salamat çıxıb
Bataram oğlumun göz yaşlarında…

Burax xeyalımı, zalım balası,
Çıx gét üreyimden, aman günüdür.
Éşqim, mehebbetim yatır div kimi,
Hissimin, duyğumun yaman günüdür.

57

Of, Of

Vagifsayağı

Éle baxdı o ayüzlü, üzüme
Qelbim oldu para-para, of, of, of!
Bir ah çekdim, ahım meni yandırdı,
El çatmadı o gülzara of, of, of!

Ay üzünde heyası var, arı var,
Sinesinde köynek dolu narı var.
Gözlerinden anladım ki, yarı var,
Bu derdimi déyim hara, of, of, of!

Héç bilmirem éşqim qaragünlümü,
Ya qedemim bed haraylı, ünlümü?
O insafsız bu yaralı könlümü
Baxışıyla çekdi dara, of, of, of!

Çox déyibler bu iş haqda günahdı,
Yarı varsa, söz ummaq da günahdı!
Gözelliye göz yummaq da günahdı,
Qismet olub keklik sara, of, of, of!

58

Hayanda Sen Varsan

Daha meni gezme, meni arama,
Qar gelir, Lelesiz Kerememburda.
Melhem olammazsan könül yarama,
Hayanda sen varsan,
men yoxam orda…

Canımı almısan, quru kölgeyem,
Ruhum kéşik çekir qaralan yurda.
Éle qarayığval, bedbext ölkeyem,
Göylerden daş yağır,
sen yoxsan orda…

Acıma ömrüme yağan qarıma,
Söylenme qaramca: <<Hardasan, harda?!>>
Gelme oğrun-oğrun yuxularıma,
Hayanda sen varsan,
men yoxam orda…

59

Heyat Mehebbetdi

Üreyim qaralan ocaq kimiydi,
Birce baxışınla alışdı yéne.
Çökmüşdü ruhuma payız sükutu,
Dünyam dalğalandı, qarışdı yéne.

Qayıtdı sévincim, ahım-amanım,
Dikeldi qebirden ölmüş gümanım.
Çekildi göyümden çenim, dumanım,
İten ulduzlarım sayrışdı yéne.

Éşqim qetre-qetre gelib gözümden,
Atmışdım biryolluq onu sözümden.
Sévmişdim, küsmüşdüm özüm özümden,
Üreyim duyğumla barışdı yéne.

Könlümde bayramdı, bu ne büsatdı?
Bir cüt qara gözün meni oyatdı:
Harda gözellik var, éşq var, heyatdı,
Heyat mehebbetdi, yarışdı yéne…

Mavi Dünyam Silsilesinden

60

Mavi Mavi
Göyler kimi başım üste
Mene gülme mavi-mavi.
Bağrımda xalı toxuyub
Vurdun ilme mavi-mavi.

Men xudadan çağlayanam,
Öz-özümü dağlayanam.
Men içime ağlayanam
Gözüm silme mavi-mavi.

Bu éşq senin xetan déyil,
Tufanlarda batan déyil,
Bildim, elim çatan déyil
Yaxın gelme mavi-mavi.

Menim üçün mavi göysen:
Men torpağam, mavi göy, sen.
Axır meni bir gün duysan,
Ölmüş bilme mavi-mavi.

61

Yolumuz Goradı Zalım
Adın mavi ola-ola,
Gözlerin qaradı, zalım.
Yandım, qara téllerini
Külekler daradı, zalım.

Dustağam, yolu bağlıyam,
Dağ çekme, çetin ağlıyam.
Onsuz da sinedağlıyam,
Üreyim yaradı, zalım.

Mene melhem olammazsan,
Menle déyib gülemmezsen,
Derdin menle bölemmezsen
Yolumuz goradı, zalım!

62

Ağlama Könül Ağlama
O gözelin ne günahı?
Ağlama, könlüm, ağlama!
Unut bu amanı-ahı,
Ağlama, könlüm, ağlama!

O, mavi göy, sen torpaqsan,
Xezan döymüş bir yarpaqsan.
Öz éşqinde bil ki haqsan,
Ağlama, könlüm, ağlama!

Ne vaxtdır ki, gülmür üzün,
Qarışıb gécen, gündüzün.
Hicrandı söhbetin sözün.
Ağlama, könlüm, ağlama!

O sene könül bağlamaz,
Seni yadında saxlamaz.
Qelbi yoxmuş, o ağlamaz:
Ağlama, könlüm, ağlama!

63

Sen Derdlisen Men Derdliyem
Sen derdlisen, men derdliyem:
Derdimizi bölek, zalım.
Bu sévgini öldürmeyek:
Gel bir yola gelek, zalım.

İller kéçir, gün azalıb,
Bülbül küsüb, bağ sozalıb.
Ağlamaq bizemi qalıb?
Bir yol biz de gülek, zalım.

Baxmayaq hefteye, aya,
Aramızdan axan çaya.
Ya birge gelek dünyaya,
Ya bir yérde ölek, zalım.

64

Héyif

Vaxtı kéçir, derilmeyir
Héyif o nardan, o nardan!
Dostuna pay vérilmeyir,
Héyif o bardan, o bardan!

Ağ sinemi, qarmı, ayır:
Ruzgar döyür, vaxt korlayır.
Yéyilmeyirse, xarlayır
Héyif o qardan, o qardan!

Qara bulud ötüşmeyir,
Arzu, ümid yétişmeyir.
Dodaqlara şéh düşmeyir,
Héyif o yardan, o yardan!

65

Néce Kéçir Ömrün Günün

Néce kéçir ömrün-günün,
Men çekeni bilirsenmi?
Güldüyümüz anlar üçün
Ağlayırmı, gülürsenmi?

Qış gelib qapını alıb,
Qara téline den salıb.
İndi üreyin yuxalıb
Men déyene gelirsenmi?

İtirdik çehlimi, izi,
Dumanlar aldatdı bizi.
Bölemmedik derdimizi,
Öz-özünle bölürsenmi?

Dağ darıxar, bil ki, çensiz;
Qan ağlayar gül çemensiz
Déyirdin: ölerem sensiz,
Men ölürem, ölürsenmi?

66

O Qız

Cütbayraq tek <<cüt xencer>> in bağrıma taxıb
Varlığımı feth éyleyib baxaydı o qız.
Seherleri güneş kimi köksümden çıxıb
Axşamları üreyimde yaxaydı o qız.

67

Bu Da Bir Behanedi

O qız dürdü, incidi,
Könlümün sévincidi.
Sévdim onu, incidi,
Bağrım şane-şanedi.

Oğrun-oğrun süzer héy,
Üreyimi üzer héy,
Menden kenar gezer héy,
Bu da bir behanedi.

Çiçekdi bağça-bağı,
Dinc durmur el-ayağı.
Sinemin çarpaz dağı
O qızdan nişanedi.

68

Xatırla Meni

Ne vaxt ki qezadı, düşsem yadına
Bilsem darıxırsan, qaçıb gelerem.
Oda tut qelbimi, hesret oduna
Simurq quşu olub uçub gelerem.

Ne vaxt ki, qezadı, düşsem yadına
Oxu bu neğmemi vaxtın var iken.
Senin ünvanına, senin adına
Taléyin yazdığı bir mektubam men.

Oxu, bir mektubam senin adına
Yox éyle qelbimden qemi, qubarı.
Oxu, beyenmesen yandır oduna
Saxla xatiretek külümü barı.

Yandır, qoy bilim ki, yoxdu gülşenim,
Sonradan ağlama sen için-için.
Saxla xatiretek gülümü menim,
Düşmenin gözüne üfürmek üçün.

Başına qaxınclar tökülen zaman,
Ömrün kerpic-kerpic sökülen zaman,
Saçına ağ téller ekilen zaman
Xatırla meni.

Saxla ümidimi gereyin ollam,
Bilsem üreksizsen, üreyin ollam
Ac qalsan bir parça çöreyin ollam
Xatırla meni.

Bacı tenesinden qorunmaq üçün,
Nadan nefesinden qorunmaq üçün,
Bir yad hevesinden qorunmaq üçün
Xatırla meni.

Ne vaxt ki qezadı, düşsem yadına
Bilsem darıxırsan qaçıb gelerem.
Oda tut qelbimi, hesret oduna
Simurq quşu olub, uçub gelerem
Xatırla meni.

69

Éhéy, Kimdir Orda Ocaq Qalayan

Ömrün o tayından aşıb gelmişem,
Çıxın qabağıma görüşek indi.
Qayğılar elinden qaçıb gelmişem
Çıxın yollarıma barışaq indi
Ay ağ çiçeklerim, ağ çiçeklerim.

Baxıram ömrümün gündoğanına,
Qovardım men sizi kepenek kimi.
Anam qışqırardı - yıxarsınız ha?
Kimse götürerdi téz qucağına,
Alıb elinizi ağ çiçek kimi
Baxıb üzünüze gülümseyerdim
Ay ağ çiçeklerim, ağ çiçeklerim.

Anama baxanda batardım qeme,
Eller düyün-düyün, ellikden çıxıb,
Orda neler… neler… boran, qar, yağış…
Çiçek ellerini anam
Sen déme
Bizim ağ günlere bağışlayıbmış.

O vaxt elinizde <<elifba>> idim.
Menimçün ezizdi qolumdan tutan.
İl ötdü bir defe ne ise dédim,
Yéne o elleri tutmaq istedim,
Küsdünüz…
Çıxmışdım elifbalıqdan.

Hayana gétdiniz düzü bilmirem,
Nağıllı, dünyamız uçdu o günden.
Kéçdi aylar, iller…
Sizi bilmirem,
Mense arzuların tutdum elinden.

Dédiler çiçekler çinarlaşıblar,
Geldim kölgesinde dincelem,
Dayan!
Bu nedir, qoymayın yanır bir çinar!
Éhéy, kimdir orda ocaq qalayan!
Éhéy, kimdir orda ocaq qalayan!

70

Menmi Günahkâram, Senmi Günahkâr

Bu néce sévdadı, néce mö’cüze?
Özüm öz öhdemden gele bilmirem.
Bu gündüz - mö’cüze, géce - mö’cüze,
Yaşaya bilmirem, öle bilmirem.
Ömrüme géciken ilk baharmısan,
Yağan çiçekmisen, yağan qarmısan?
Yollar ayrıcında qalmışam naçar,
Menmi günahkâram, senmi günahkâr?

Şamama tağında saralıb gédir,
Payızı qınama, payız néylesin?
Ömür bağçamızı qar alıb gédir,
Bu évli-uşaqlı yalqız néylesin?
Qeriblik duyulur doğma sözümde.
Eksini görürler iki gözümde.
Seni itirmişem,
yoxam özüm de…
Désem ki, özümü özüme qaytar,
Menmi günahkâram, senmi günahkâr?

Néyleyim, bu ömür talé payıdı,
Saçıma yağan qar eriyen déyil…
Hesret aramızda Araz çayıdı,
Milyon il axsa da quruyan déyil.
Déyerdin:
Elçatmaz dağsan, deresen.
Éh, neler çekmedin mene göre sen.
Bir zaman çağırdın milyon kere sen…
Arxada hesret var, qarşıda qubar,
Menmi günahkâram, senmi günahkâr?!

71

Sévdim Gözlerini, Düşdüm Günaha

Sévdim gözlerini, düşdüm günaha,
Ömrüme-günüme sen qenim oldun.
Men senin en yaxın dostunam daha,
Sen menim ne yaman düşmenim oldun!

Sévgi serhedleri gizli kéçildi,
Çen-duman çekildi, yol-iz séçildi.
Gizlinde hemişe zemim biçildi,
Aşkarda gördüm ki, hemdemim oldun.

Meni héy ateşe, oda qaladın,
Çıxmadı yadımdan, çıxmadı adın,
Néynim, vüsalınla menim olmadın,
Deli hesretinle sen menim oldun.

72

Kéçerem Qırmızı İşıqda Bir Gün

Sen qırmızı donda, alov dilimi,
Alemi yandırıb-yaxarsan, gülüm.
Qaynar baxışların güneş sélimi?
Dünyama güneştek baxırsan, gülüm.

Sen qırmızı donda, qezebli sultan,
Baxıram hesretle qara qul kimi.
Bir anda édersen qanıma qeltan,
Yağar göz yaşlarım gümüş pul kimi.

Sen qırmızı donda, qırmızı bayraq,
Qaşların, gözlerin, ayım, ulduzum.
Sen qırmızı donda qızıl bir çıraq,
Eriyer nurunda qem-keder buzum.

Sen qırmızı donda, qırmızı işıq,
Yolumda yanarsan kéçe bilmerem.
Her yan çen-dumandı, her yan qarışıq,
Bir özge boyandı séçe bilmerem…

Bir gün şairliyim vurar başıma,
Yığıb yollarından gümüş pulları,
Çağırıb bir yére qara qulları,
Götürüb géderem qızıl çırağı.
O aylı-ulduzlu qızıl bayrağı,
Énderib başıma güneş sélini
Derib qoxlayaram alov gülünü,
Kéçerem qırmızı işıqda bir gün…

73

Senden Uzaqlarda Sarı Yarpağam

Senden uzaqlarda soyuq torpağam,
Hesretin ömrüme yağır qar kimi.
Rüzgarın elinde sarı yarpağam,
Uçaram, ruhuma dünya dar kimi.

Menden uzaqlarda yaşıl qönçesen,
Vurnuxur dövrende şéyda bülbüller.
Senden uzaqlarda heyat duman-çen,
İçimde yanğınlar, saçımda küller…

Senden uzaqlarda beledçim ölüm
Géciken qayğısan, ahsan, nalesen…
Senden uzaqlarda yaşamaq zülüm,
Menden uzaqlarda yanan lalesen…

74

Gét

Arxanca gelmeyim incidir seni,
Arxanca gelmerem, gét, arxayın gét…
Derdinden ölmeyim incidir seni,
Derdinden ölmerem, gét, arxayın gét…

BEŞİNCİ BÖLÜM: POÉMALAR

75

Ayxanın Sualları

(Lirik Poéma)

I

Göyde ne var,
Yérde ne var?
Orda ne var,
Burda ne var?
O niye ağ;
Bu, qaradı,
Bu rengleri kim yaradıb?
Sual yağır yağış kimi,
Sual bitir qamış kimi,
Her qamışda yüz zurna var:
Her sual yüz zurna çalır.
Bu havalar, bu oyunlar,
Nağılları yada salır…

Sual yağır yağış kimi…
Sual bitir qamış kimi…
Bu suallar yağışında
islanıram,
Bu suallar yağışında
men yanıram.
Oğlum topa tutur meni,
Bu döyüşde udur meni:
Babam déyir - gözüm çendi,
Gözde de çen olurmu?
SSRİ… Azerbaycan…
İki veten olurmu?

Paytaxtımız Moskvasa
Bakı nedir?
Veten, iki
Paytaxt, iki
İki nedir?
Belke éle bu qiymetdir,
Qiyametdir?
Bax, biz kimik?
On béş ölke
On béş paytaxt
Sovét xalqı
Birik, cemik.
Babam herden mene déyir:
<<Kişi iki dilli olmaz!>>
On béş dilli xalq olarmı?

42 On béş dilli kişi varmı?

43 Sual yağır yağış kimi,
44 Sual bitir qamış kimi.
45 Her qamışda yüz zurna var.
46 Her qamışın kölgesinde
47 Yuxu gören
48 Yüz xorna var…

II

49 - Azadlıq nedir ata?
50 - Éle yol gédir, oğlum.
51 - Azadlıq kimdir, ata?
52 - Bir ağlı kemdir, oğlum.
53 - Axı o ne axtarır?
54 - Onu itiren kesi.
55 Bizim içimizdedi
56 Azadlığın kölgesi…
57 - Yéri-yurdu haradır?
58 - Zülmet dolu zindanlar.
59 - Onu kim qurtaracaq?
60 - Bu ölümler, bu qanlar…
61 Ölüm, nağıldı, sirrdi:
62 İnsan azadlığını
63 Duyan günden itirdi…

76

Nağıl
Biri vardı,
Biri yoxdu,,,
Tanrının keremi çoxdu…
İnsan tanrı kölgesinde,
İnsan tanrı yanındaydı.
Bu dünyaya gelmemişdi,
Azadlığı betnindeydi,
canındaydı.
İnsan tanrı dergahında,
yanındaydı.
Xoşbextliyi betnindeydi
canındaydı…
Bu dünyaya gelmemişdi.
O bir defe ağlamamış,
gülmemişdi.
Azadlığı, xoşbextliyi,
betnindeydi,
Ölüm onu tanımırdı,
İnsan hele ölmemişdi.
İnsan tanrı dergahında,
yanındaydı.
Azadlığı betnindeydi
canındaydı.
Göyün yéddi qatındaydı,
Tanrının göy atındaydı.
Her qayğıdan uzaq idi,
Saqqallı bir uşaq idi.
Yémek derdi,
içmek derdi,
Gezmek derdi.
uçmaq derdi,
Sévgi derdi,
övlad derdi,
Şöhret derdi,
bir ad derdi,
Torpaq derdi,
veten derdi,
<<Men-men>> derdi yox idi…
Qelbi, nefsi tox idi…

Ay dolandı, iller kéçdi,
Tanrının göy atı üstde
İnsan néçe göy adladı,
Yér adladı,
Yollar kéçdi,
Éller kéçdi…

Bir gün gördü
sancır qarnı,
köksü yanır.
Gözlerinde
Göy fırlanır,
Yér fırlanır.
Ne ise démek isteyir,
Ne ise yémek isteyir.
Her sirri bilmek isteyir.
Ağlamaq, gülmek isteyir.
Doğulmaq, ölmek isteyir.
Bu istekler üreyinde
Düyünlenir ağrı-ağrı.
Tanrıya ağ olmaq üçün
Sancır qarnı,
yanır bağrı.
Éle bil eli gicişir
Neyise boğmaq isteyir.
Éle bil qurmaq, yaratmaq,
Éle bil doğmaq isteyir.

Sebri-qerarı kesilib…
İsmeti-arı kesilib…
Talayıb-çapmaq isteyir.
Üreyinden kéçenleri
Arayıb tapmaq isteyir.
Ömür-gün yapmaq isteyir.

Tanrı gördü:
İnsan daha
Bu dergahda qala bilmez.
O oynayan havaları
Bundan sonra çala bilmez.
Arzuları üreyinde
Göyerir bir ağac kimi.
İçinde yatan azadlıq
Gelir dünyaya
Ac kimi…

77

****

01 Çox ağrı-acıdan sonra
02 İnsan doğdu azadlığı.
03 Ayaq tutub yérimemiş
04 Saldı qanun kemendine
05 Boğdu onu azadlığı…
06 Yollarına çovğun, qar tek
07 Yağdı, yağdı azadlığı…

08 Gördü daha içi boşdu,
09 Üreyinde bir boşluq var.
10 İçinde yoxdu azadlıq,
11 Oturub orda qem-qubar.
12 Anladıqca öz suçunu,
13 Doldurmaq üçün içini
14 Tanrıya év yapdı insan.
15 Her gün göylere el açıb,
16 Bir teskinlik tapdı insan…

****

17 İnsan balasından qabaq
18 Doğdu azadlığını…
19 Balası belaya döndü
20 Boğdu öz balasını
21 Boğdu azadlığını…

78

III

01 Xoşbextlik nedir, ata
02 Görmüsenmi sen onu?
03 Ağdımı, qaradımı,
04 Nécedi boy-buxunu?
05 Belke yémeli şéydi,
06 Dadı nécedir onun?
07 Belke puldu-dövletdi,
08 Mükafatdı, şöhretdi,
09 Adı nécedir onun?
10 Sudumu, güneşdimi,
11 Oddumu, ateşdimi?
12 Évdimi, vetendimi,
13 Babamın gözündeki
14 Dumandımı, çendimi?
15 Déyirler ki, xoşbext az,
16 Bedbext çoxdu dünyada.
17 Belke éle adı var
18 Özü yoxdu dünyada?
19 Xoşbextlik nedir ata?!

79

01 Lövhe
02 Saçları perişan, dalğın bir cavan
03 Dolanır şeheri bir kölge kimi.
04 İşi yox, pulu yox, olacağı yox
05 Virane, yiyesiz bir ölke kimi…

06 Herden yazıq-yazıq boylanır göye,
07 Éle bil canı var nefesi yoxdu.
08 Penah getirmeye, üz çévirmeye
09 Bu derya şeherde bir kesi yoxdu.

10 Hara gétdiyini özü de bilmir,
11 İnsan denizinde adadı sanki.
12 Hamıdan küsübdü,
13 danışmır, gülmür
14 Yiyesiz bir ruhdu, sedadı sanki,

15 Ne gördü, ne oldu, dayandı birden,
16 Güldü qaşqabağı, birteher oldu.
17 O qem deryasında qerq olmuş iken
18 Éle bil bir anlıq bextever oldu.

19 Vécine déyildi şeherin küyü,
20 Uzanıb lezzetle yatırdı bir it.
21 Qolları üstünde bir cüt küçüyü
22 Yorğunluq gölünde batırdı bir it.

23 Balalar bilmirdi kötek sirrini,
24 Qayğısı bir méhr, bir qarın idi.
25 Sökürdü ananın bal döşlerini,
26 Éle bil bu dünya onların idi.

27 Ana ağuşunda xumarlanırdı,
28 Hele qulaqları kesilmemişdi.
29 Hele oxşanırdı, tumarlanırdı,
30 Hele quyruqları qısılmamışdı.

31 Deli küleklerle dolanan oğlan
32 Bu méhrin, qılığın esiri idi.
33 Herden fikir-xeyal alırdı onu:
34 Sanırdı küçüyün, o, biri idi.

35 Şirin xeyallardan ayılan kimi,
36 Elinden çıxırdı bextiyarlığı.
37 Yadına düşürdü kederi, qemi,
38 Yéne başlayırdı dünya darlığı.

39 Birden buludları qaynadı, axdı,
40 Qopdu üreyinden min feryad, min ah.
41 Zavallı itlere hesedle baxdı:
42 <<Néce de xoşbextdi bu küçük, Allah!!!>>

80

IV

Ana dili kitabında
Oxuyuram:
Köle idi babalar,
Köle idi qız-gelinler,
Köle idi obalar…
Kasıblar işleyirmiş
Birce parça çörek üçün.
Tamarzıymış
Arzu üçün, dilek üçün…
Adamlar axşamadek
Elleşirmiş qul kimi.
Torpağa alın teri
Elenirmiş pul kimi…
Varlılar yoxsulları
İstismar éleyirmiş.
Onlara gén dünyanı
Déyir, dar éleyirmiş.

İndi varlı yoxdumu?
İndi yoxsul yoxdumu?
İndi köle yoxdumu?
İndi bes qul yoxdumu?..

Qonşunun béş otağı,
Qarajı, <<Volqa>>sı var.
Bizimki niye yoxdu?
Sahilde güllü bağı,
Eyninde <<layka>>sı var
Bizimki niye yoxdu?
Kendde yéne adamlar
Elleşirler qul kimi.
Torpağa alın teri
Axır gümüş pul kimi.

İndi meni başa sal:
Köle nedir?
Bilmirem…
Elini yélleyirsen.
Béle nedir?
Bilmirem…

39 Bu kasıblar, fağırlar,
40 Bu üreyi yağırlar,
41 Haqqı oğurlananlar,
42 Nahaq yére yananlar,
43 Köle déyil,
44 Bes nedir?

45 Bu kemende düşenler,
46 Söz ürekde bişenler,
47 Yada yalaq olanlar,
48 Ruhu calaq olanlar
49 Köle déyil,
50 Bes nedir?

51 Bu dövletli, pullular,
52 Yadlar üçün çullular,
53 Öz-özünü öyenler,
54 Öz-özünü döyenler,
55 Köle déyil,
56 Bes nedir?

57 Bu üreyi yoxsullar,
58 Çinli-rütbeli qullar,
59 Qoyunlaşan bu qurdlar,
60 Bu diplomlu manqurdlar,
61 Köle déyil,
62 Bes nedir?

63 Bu başdakı başsızlar,
64 Ürekleri daşlaşan
65 Bu gözleri yaşsızlar,
66 Tarixini dananlar,
67 Özünü unudanlar,
68 Özgelere yananlar,
69 Köle déyil,
70 Bes nedir?

71 Pula, mala susayıb
72 Xalqı zelil édenler,
73 Xalqı nerdivan bilib
74 Ucuz şöhret güdenler,
75 Bu korquyu gödenler
76 Köle déyil,
77 Bes nedir?..

81

****

01 İnsan bilse, köledir,
02 Alemi qata biler.
03 Köleliyi paltartek
04 Soyunub ata biler.

05 İnsan bilse delidi,
06 Dönüb ağıllanar da.
07 Eger bilse gerekdir,
08 Su alışıb yanar da…

09 İnsan bilse köledir,
10 Alemi qata biler.
11 Şahların, xaqanların
12 Sonuna çata biler.

13 Duymur köleliyini,
14 Sanır ki, heyat budur.
15 Acığını, kinini
16 Çéyneyib baltek udur.

17 Anlamayır zavallı,
18 Azadlıq kelmesini.
19 Özüne şeref bilir,
20 Süpürgesi elinde
21 Yıxılıb ölmesini.

22 İnsan bilse köledir,
23 Felekleri dağlayar.
24 Başına hava geler,
25 Güle-güle ağlayar…

82

V

01 Ölüm nedir, ay ata,
02 Niye ölür insanlar?
03 Ölüm nedir, ay ata,
04 Onu kim duyub anlar?

05 Onun rengi nécedir,
06 Eli-ayağı varmı?
07 Yéyib içdiyi nedir
08 Burnu, qulağı varmı?

09 Hansı dilde danışır,
10 Kimdir ata-anası?
11 İlk defe bu dünyaya
12 Omu getirib yası?

13 Cavanmı, qocadırmı,
14 Düşübmü saçına den?
15 Ölüm senden güclüdü,
16 Ya sen ondan güclüsen?

17 İnsanı öldürmeyi
18 Men ona bildirerem!
19 Sen darıxma ay ata,
20 Sen darıxma böyüyüb,
21 Ölümü öldürerem!..

83

****

01 Haçandı yatırdıq qefletde,
02 Yatanı qaldırdı şehidler.
03 Düşmenler héyretde, dehşetde,
04 Dostları güldürdü şehidler.

05 Kişitek gülmeyin sirrini,
06 Kişitek ölmeyin sirrini,
07 Tezeden
08 Dünyaya gelmeyin sirrini
09 Aleme bildirdi şehidler.

10 Büründü qerenfil güllere,
11 Yayıldı dillerden dillere.
12 Birliyi gösterib éllere
13 Qan olub göl durdu şehidler.

14 Torpağın altında o susub,
15 Démeki sehv édib, uduzub.
16 İçinde qorxunu qorxuzub
17 Ölümü öldürdü şehidler…

84

VI

01 Serhed nedir, ay ata,
02 Aralığa çekibler?
03 Tikanlı direkleri
04 Sıra ile ekibler?

05 Niye obalar éller
06 Böyle bölüm-bölümdü?
07 Quş da kéçe bilmeyir
08 Kéçse qandı-ölümdü…

09 Niye Xudaferinden.
10 Bir yol kéçe bilmirik?
11 Arazın sularından
12 Niye içe bilmirik?

13 Kim bölüb yurdumuzu,
14 Yatıbmı qoç Koroğlu?
15 Niye geze bilmirik
16 İzmiri, İstanbulu?

17 Burda sovét ordusu
18 Qoruyur serhedleri:
19 <<Düşmenler>> kéçemmesin
20 Bereleri bendleri.

21 Şeherde tanklar gezir,
22 Şeherde serhedmi var?
23 Her obada bir bölük
24 Her yérde serhedmi var.

25 Bu tanklar, éle bil ki,
26 Bizi bizden qoruyur.
27 Bu çölleri, düzleri
28 Élimizden qoruyur…

29 Uşaqlar oğrun-oğrun,
30 Baxırlar boynuburuq…
31 Bu tanklar bizimdise,
32 Niye ondan qorxuruq?

33 Her addımda yoxlanış,
34 Her döngede <<Dayan>>, <<Dur>>.
35 Bu esgerler bilmirem
36 Bizi kimden qoruyur?

37 Oğrunu milis tutur,
38 Bilmirem doğrudurmu?
39 Hamı milisden qorxur,
40 Bes hamı oğrudurmu?

41 Bu ordular kim üçün,
42 Bu serhed ne üçündür?
43 Her yan çitek-çitekdir,
44 Her yan düyün-düyündür…

85

VII

01 Ata, ata, ay ata,
02 Niye titreyib esir
03 Çıraqların kölgesi?

04 Ata, ata, ay ata,
05 Söyle, üze bilirmi
06 Mayakların kölgesi?

07 Ata, ata, ay ata,
08 Niye qırmızı olmur
09 Bayraqların kölgesi?

10 Sual yağır yağış kimi…
11 Sual bitir qamış kimi…
12 Her qamışda yüz zurna var
13 Her havada gel gör ne var:
14 Bir tövlede yaşayammır
15 Qurd, quzu…
16 Qara xallı İskenderin
17 Buynuzu var, buynuzu!..

86

01 YALAN

02 **Qanlı Géce**
03 Gécelerin birinde
04 Her yan qana boyandı,
05 Alem yata bilmedi,
06 Yuxusundan oyandı.
07 O géce dalğalanıb,
08 Çalxandı derya kimi.
09 Çoxlarının yadında
10 Qalıb bir röya kimi…

11 Qalxdı aclar, çılpaqlar,
12 Barıt kimi alışdı.
13 Qalxıb yéridi <<haqlar>>,
14 Ayaqlandı <<nahaqlar>>,
15 Dünya deydi, qarışdı…

16 O géce çırpınırdı,
17 Qaynayırdı o géce.
18 Alışırdı, yanırdı
19 Vulkanlı torpaq kimi
20 Oynayırdı o géce.

21 <<Ura!>> sedalarından
22 Küçeler titreyirdi.
23 Bu dehşete, vehşete
24 Felekler baş eyirdi.

25 Deste-deste adamlar
26 Vurnuxur, qaçışırdı.
27 Bu küçe o küçeyle
28 Döyüşür, atışırdı.

29 Axan qanlar gécenin
30 Méri, ağası idi.
31 Qıvrılırdı o géce,
32 Qovrulurdu o géce
33 Nése doğası idi…

34 <<- Düşmeni gördün, öldür,
35 Öldür sorğu-sualsız!
36 Öldür körpesinedek
37 Yaşayaq qéylü-qalsız!>>

Öldürmek bir haqq idi
Qırmaq - yaşamaq idi.
Ölen kim…
Öldüren kim…
Bu sirleri bilen kim…

Qan su yérine axdı,
Géce ağrı çekirdi…
Géce hamile idi,
Néce ağrı çekirdi!

<<Xalq düşmeni>> dédiler
Varlılara o géce.
Qoşuldu bu axına
Her avara o géce.

Qaranlıqda atılan
Gülleler bir ömürdü.
Bir anlıq ümid kimi
Alışırdı, sönürdü…

Azadlıq bextiyarlıq
Hele dumanlı idi…
Gelecek xoş günlerin
Elleri qanlı idi.

Natiqler kürsülerde
Alışırdı, yanırdı.
Başından tüstü qalxır,
Sözü alovlanırdı.

Déyirdiler: <<Bu géce
Bir ağ seher doğacaq
O seher öz nurile
Zülmetleri boğacaq.

Ne quldar olacaqdır,
Ne de bil qul dünyada.
Ne varlı olacaqdı,
Ne de yoxsul dünyada.

Béş barmağın béşi de
Bir boyda olmalıdı.
Kiçik barmaq böyükden
Qisasın almalıdı.

Varlıları dünyadan
Kürüyüb atacağıq.
Sabahdan süd gölünde.
Dincelib yatacağıq.

Dövran bizim olmalı,
İş bizim olmalıdır.
Şişlik bizim olmalı,
Şiş bizim olmalıdır>>.

Bu sözden sonra sanki
İldırımlar çaxırdı.
Néçe ulduz doğurdu,
Néçe ulduz axırdı.

İllerle qurulanlar
Sökülürdü bu géce.
İnam-é'tiqad göye
Çekilirdi bu géce.

<<Dünya bizim olacaq>>
Dédikce daşırdılar.
Axır ki, bir binanı
Dévirib aşırdılar…

Qan su yérine axdı,
Géce ağrı çekirdi.
Géce hamile idi:
Néce ağrı çekirdi!..

87

Qırmızı Seher

Hava barıt qoxulu,
Her yan qan deniziydi.
Seher alayuxulu,
Bir solğun beniziydi.

Bir masanın başında
Oturub béş-on nefer.
Géceni tehlil édib,
Yéni plan çekirler.
Qızışır mübahise,
Yaman girirler behse.
Saf-çürük éleyirler
İrelini-gérini.
Be'zen olur, éle bil
Yéyirler bir-birini.

Arabir yumuruqlar
Masaya döyeclenir.
Aralıq deniz kimi
Gah qalxıb, gah da énir.

Biri déyir: <<Bu géce
Yaman amansız olduq.
Uçurduq her bir şéyi,
Dinsiz-imansız olduq!..>>

Biri déyir: << - Yox cenab,
Qırmasaq qırılarıq!
Kéçmişin iliyini
Vurmasaq, vurularıq!>>

Biri déyir: << - Yox canım,
Yanır dinim-imanım.
Yaxşı, biz bu padşahın
Évini yağmaladıq.
Özünü gülleledik,
Adını damğaladıq.
Béşikde körpesinin
Axı neydi günahı?
Günahsız axan qanın
Bizi tutacaq ahı!..>>

Biri coşur: << - Dayanın!
Menem düşmene qenim!
Ancaq icaze vérin,
Men sizden şübhelenim!

42 Yoxsa düşmenimizin
43 Vekilisen?
44 Danış bir.
45 Kulaka canı yanır
46 Düzü çox qeribedir!..>>

47 - Éle lap dünenecen
48 Böyük hümanizmden
49 Déyen sen déyildinmi?
50 Bütün impériyaları
51 Söyen sen déyildinmi?

52 - Dünene göre sağ ol
53 Gel bu günden danışaq!
54 Gözel yaddaşın varmış,
55 Ancaq uşaqsan, uşaq!
56 Siyaset başqa şéydi.
57 Ağa déyiler qara.
58 Biz seni unutmarıq.
59 Sen de o körpe kimi…
60 Ahın qoca dağlara!

61 - Heqiqet qalib geldi.
62 Hanı bizim heqiqet?
63 Yoxsa bunlar yalandı?
64 Dehşet! İlahi, dehşet!

65 Bu heqiqet uğrunda
66 Hamı qoşuldu bize.
67 Qardaş qırğını saldıq
68 Doğmaca évimize.
69 Néce qaça bilerik
70 Déyin, haqq sözümüzden?
71 Dédik, azad olarıq
72 Barı öz-özümüzden…
73 Yoxsa bunlar hamısı
74 Sadece bir oyundur?!

75 - Sen sus!
76 Saqqallı uşaq!
77 Bu xalq ki var - qoyundur.
78 Elinde göy ot tutub
79 Hara gétse, gelecek.
80 Vérme, dé ki, senindi,
81 Öl dédinmi, ölecek.

Kütle bir deli atdır,
Cilovlamaq gerekdir.
Şıllaq atsa, ovlamaq,
Yox, tovlamaq gerekdir!

- Dostlar, çox aşıb daşdıq,
Metlebden uzaqlaşdıq:
<<Avropanın jandarmı>>
Démişik ordumuza.
<<Xalqlar hebsxanası>>
Démişik yurdumuza.
Daha köhneliklerin
Dağılıbdır binası
Bu günden qurmalıyıq
<<Xalqlar yataqxanası>>

Hebsxanadan çıxıb
Yataqxanada qalmaq.
Bir parça çörek tapıb,
Rahatça nefes almaq
Hamıya xoş gelecek.
Hamı bayram édecek,
Sévinecek, gülecek…

Her kesin öz otağı,
Qapısı, penceresi,
Öz arvadı-uşağı…
İsteyende gelecek,
İsteyende gédecek.
Hamı da bir-birine
Göz qoyacaq, güdecek.
Bir dehlize çıxacaq
Hamı her seher axşam,
Birge bayram, éhtişam…

Torpaqları paylayaq,
Qoy ekib-bécersinler.
Pambıq ekib, bağ salıb,
Alma, üzüm dersinler.

Onların ellerinde
Yaxşı mehsul olacaq.
Tüklendikce özleri
Bir-birini yolacaq.

121 Çünki biz varlıların
122 Dalınca daş atmışıq.
123 Mala-dövlete qarşı
124 Hamını oyatmışıq.

125 Kimse qartal da olsa,
126 Uça bilmeyecekdir
127 Bizim <<yataqxana>>dan
128 Qaça bilmeyecekdir.

129 Uçmaq isteyenleri
130 Özümüz yolacağıq,
131 Evvelki yuvasına
132 Hebse alacağıq.

133 Hamı azad olacaq,
134 Könüller şad olacaq.
135 Yataqxanada qalmaq
136 Böyük imdad olacaq…

88

Günortaya Yaxın

<< - Alın a!
Yana-yana
qalın a!
Çıxdım hebsxanadan!
Éle bil ki
indice
doğulmuşam
anadan.
Su bizim,
torpaq bizim,
Göy bizim,
qurşaq bizim.
Daha menim
öz évim,
öz qapım,
açarım var.
İnnen béle
démerem
nisgilim
qubarım var>> -
Déyerek cavan şair
Unutmuşdu özünü.
Sonsuz pilleken kimi
Düzürdü her sözünü
Sévincinden az qala
Üreyi dayanırdı.
İlhamı qanadlanır,
Köksü sanki yanırdı.

<<Azadam -
şadam!>> déyib
Az qala bağırırdı,
Fikrinde zencirleri
Parçalayıb qırırdı.

<<Azadam>> - déyib
yolun
Gédirdi ortasıyla
Baş-başa xoşbeht idi
Öz azad dünyasıyla.

Kéçerek küçelerden,
Ayrılıb doğma yérden
Éle bil ki, uçurdu.
Gözlerinde gülürdü,

Qelbinde oxuyurdu.
Qayıdıb öz évine,
O sévine-sévine;
Öz doğma qapısını
Açdı öz açarıyla,
Böyük ixtiyar ile…

Baxdı boz divarlara
Qırmızı döşemeye.
Açdı köhne dolabı
Bir şéy yoxdu yémeye…

Baxdı qan iyi gelir
Otağın havasından.
Yéne ağrılar kéçdi
Belalı qafasından.

Döşemeni éle bil
Qan ile boyayıblar.
<<Burda çox oğulları
Divara dayayıblar:
Taq-taraq!
Qalib geldi
haqq!>>

Qulağına kiminse
Doldu deli feryadı.
O darıxdı,
karıxdı,
Pénceyini çıxartdı,
Asmağa yér tapmadı…

Götürüb boz divara,
Bir mıx çaldı,
elbeel
Qapı döyüldü.
- Gel-gel!

Qapıdan iki nefer
Girdi çox ağır-ağır.
Gördü bu qonaqların
Üzünden zeher yağır.

80 - Kéçin, kéçin eyleşin,
81 Biriniz çarpayıda,
82 Biriniz bu stulda.
83 Bir az kasıbçılıqdı,
84 Bizim xoş günlerimiz
85 Hele yol gelir yolda…
86 Oturdular:
87 - <<Haqq>>danıq.
88 Şair, nécedir qelem?
89 - <<Haqq>>dan?
90 Lap gözel oldu!
91 Men sizden giléyliyem.
92 - Niye?
93 - Baxın bu döşemeye.
94 Döşemeni, tavanı
95 Qanla boyayarlarmı?
96 Her yan qıpqırmızıdır,
97 Bunun me'nası varmı?

98 - Şair, ayıbdı size,
99 Bu qan qardaş qanıdı.
100 Bizim qanlı bayrağı
101 Bütün dünya tanıdı…

102 Tökülen qanlar seni
103 Azadlığa çıxartdı.
104 Év vérdi, éşik vérdi,
105 Qaniçen celladları
106 Silib-süpürüb atdı…

107 Güneş seher çıxanda
108 Üfüqlerde - qızıl qan!
109 Güneş de qansız çıxmır,
110 Sen indi her şé'rinde
111 Bu qandan yazmalısan.

112 Adımız qırmızıdı,
113 Sözümüz qırmızıdı.
114 Kül altında gizlenen
115 Közümüz qırmızıdı…
116 İndi bildin nedir qan?
117 Niye qıpqırmızıdı
118 Bu döşeme, bu tavan?

119 İndi kéçek metlebe,
120 Döyüş asandı génden.
121 He…
122 Sen bizden giléylisen,

123 Qonşular ise senden.
124 - Qonşu?
125 Yox ola bilmez!
126 Hansı?
127 - Hamısı: aşağı, sol, sağ.
128 Biri déyir: asta gez.
129 Biri déyir: qışqırma!
130 Biri: déyir divara
131 Bu uzunda mıx vurma…
132 - Yox-yox!
133 Bu ola bilmez!
134 Néce ye'ni asta gez?!
135 Qışqırma…
136 Divarlara mıx vurma!...

137 Bu döşeme, bu tavan,
138 Bu pencere, bu éyvan,
139 Bu dörd divar menimdi.
140 Bu dörd divar içinde
141 Her ixtiyar menimdi…

142 - Dayan, malçişka, dayan!
143 Bu döşeme, bu tavan,
144 Dövrendeki dörd divar,
145 <<Menim>> dédiyin ne var-
146 Birdefelik onu bil
147 Tekce seninki déyil.
148 - Bes kimindi?
149 - Hamının!
150 - Neyi <<haqq>> oldu bunun?
151 - <<Haqq>>dan danışma, dayan.
152 Atıb namus-arını,
153 Mıx çalıb korlayırsan
154 Qonşunun divarını.

155 Déyirler: <<yériyende
156 Sanki qulyabanıdı.>>
157 Bil ki senin döşemen
158 Qonşunun tavanıdı!
159 Sübhedek lampan yanır,
160 Bir an sesin kesilmir.
161 Şübheden, seksekeden
162 Qonşular yata bilmir.

163 - Démeli menim évim
164 Döşemesiz, tavansız,
165 Divarsızmış
166 men ise
167 Olmalıymışam cansız…
168 Ağac kimi, daş kimi,
169 Rüzgara yoldaş kimi…
170 Bu ne gün, néce halet…
171 Budurmu <<haqq>>, <<edalet>>?!

172 - Dayan, malçişka, dayan,
173 <<Haqq>>dır bu tökülen qan!
174 Haqq odur - inanasan.

175 <<Haqq>> dédiler Allah'a.
176 O haqqa inandılar.
177 Olmayan <<haqq>> yolunda
178 Çox odlara yandılar.

179 O göyde, bizse yérde,
180 Mezlumların ahıyıq.
181 Yanırıq éyni derde,
182 Biz yérin Allahıyıq…

183 - Évim var, tavanı yox,
184 Sabaha gümanı yox.
185 Divarsız, döşemesiz
186 Bir ahı-amanı yox…
187 Düzü lap tapmacadı,
188 Nedir bu évin adı?..

189 - Bura yataqxanadı.
190 <<Menim>> kelmesinden qorx!
191 Hamının her şéyi var;
192 Her kesin héç neyi yox!

193 - Axı, biz ki, qan töküb
194 Çıxmışıq azadlığa.
195 Yénemi biz hesretik
196 Yére, göye, işığa?
197 Yénemi biz hesretik
198 İxtiyara, isteye?!
199 Yénemi haqq-edalet
200 Çekildi, Allah, göye?!

201 Sabah burdan baş alıb
202 Géderem bir méşeye.
203 Orda bir koma tikib

Tüpürerem her şéye…
Bu <<haqqlar>> yalan imiş,
Bu dünya talan imiş!

- Siyasi sehv éleme,
Şair, ayıl yuxudan.
Siyaset başqa şéydi,
Birdefelik bunu qan.
Seni bu söze göre
Bilirsen ne döyerdim?!
Xalqın düşmeni kimi
Burda gülleleyerdim!

Qalıb çürümekdense,
Dünya talan yaxşıdı
Acı heqiqetdense,
Şirin yalan yaxşıdı!

Bu acı yalanları
Bal kimi yazan gerek!
Bu yuxu dövlet-varı
<<Haqq>> kimi yozan gerek!
Qur'an da şé'rledi,
Millet ona inandı.
Şé'r, bir mö'cüzedi
Şé'r dindi, imandı.

Qollarını çırmala…
Bizim heqiqetden yaz!
Bir bayraq altındakı
Azad, xoşbext firavan
Yüz bir min milletden yaz!

Yoxsa işin fenadır,
Başını ekecekler.
Yoxsa seni reng kimi
Divara çekecekler.
Biz gédirik,
fikirleş,
Ağlını yığ başına.
Su calama aşına…
Onlar gétdi,
otaqda
Bir şair, bir de sükut:
<<Dünyaya geldiyini
Unut, üreyim, unut!

Néce xoş günler vardı,

Qışdan sonra bahardı,
Kimler gelib apardı?
Unut, üreyim, unut…

Derdden dikelen dağam,
Öz içimde dustağam.
Aldanmışam ve’dlere
Saqqallı bir uşağam
Unut, üreyim, unut!>>

Biçare öz özüyle
Danışdı deli kimi,
Sonra baxıb güzgüye
Güldü gülmeli kimi:

<<Dünen alışıb yanan
Bir tonqalın külüyük.
Ayaq üste dolanan
Dirigözlü ölüyük
Göyden daş ele, Allah!
Bir quruca nefesdir
Menim dövletim varım…
Néce azadam, çatmır
Özüme ixtiyarım,
Göyden daş ele, Allah!

Üzlere güle-güle
Ve’dler ayırdı bizi.
Hansı ümidler ile
Qırdıq bir-birimizi
Göyden daş ele, Allah!

Gör néce de ömrümü
Vérdim bada, ilahi!
Men niye yaşayıram
Bu dünyada, ilahi?!>>

Biçare öz-özüyle
Danışdı deli kimi.
Baxıb özü özüne
Güldü, gülmeli kimi:

<<Bedbext şair, sen kimsen?
Sen aldanmış yétimsen.
Yérin yox, otağın yox!
Yurdun yox, torpağın yox!
Söyle kimsen, neçisen!
He, özün öz évinde
Teze kirayeçisen!>>
Sonra çıxdı otaqdan,
Çıxdı başı dumanlı,
Baxdı, hamı günahkar,
Hamının eli qanlı…

Héç kese yovuşmadı,
Sanki dünya boş idi.
Kéçenler adam déyil
Qaya idi, daş idi…
Yol boyu salamlaşıb,
Qoluna da girdiler.
Çox hal-ehval tutdular;
Çox suallar vérdiler.

Onun fikrinde qanlar.
Aldanışlar yanırdı.
Bu adamlar içinde
Özünü tenha bilib
Üreyi bulanırdı.

- Şair, ne olub yéne,
Yéne qerq olub gemin?!
Rengin-rufun saralıb,
Yiyesiz qalıb zemin?!

Xeyalın qanadlanır
Yéne qemler içinde.
Bilmirem, ne tapmısan.
Bu sitemler içinde?!
Çöreyin var, suyun var,
Qapı-bacan, öyün var.
Başımızın üstünde
Haqq-edalet bayrağı.
Bu bayraq vérdi bize
Yéri-göyü, torpağı.

Axı ne olub sene?
Çıxaq bu qem-qubardan!
Unudaq qışı-qarı,
Söhbet açaq bahardan.
Şair köksün ötürüb

Onlara baxdı-baxdı…
Gördü bu yazıqların
Hamısı éle uşaqdı.

Dédi: canım qardaşlar,
Éy igidler, erenler
Mene ağıl vérenler,
Bir tapmaca déyim tapın.

Qazan bizim -
xörek yox!
Tekne bizim -
çörek yox!
Év bizim -
divarı yox!
Bağ bizimdi -
barı yox!
Arı bizim -
balı yox!
Kol bizimdi -
gülü yox!
Qala bizim -
yolu yox!
Ocaq bizim -
közü yox!
Biri bizim -
yüzü yox!
Beraberlik, azadlıq:
Sözü bizim -
özü yox!

İgidlerim,
Tapın görüm!

Göz -
Yalan.
Söz -
Yalan.
Eyri -
Yalan!
Düz -
Yalan.
Xörek -
Yalan.
Çörek -
Yalan.
Divar -
Yalan.

Var -
Yalan.
Yol -
Yalan.
Axıb géden
Ömür - yalan!
İl - yalan!
İgidlerim!
Tapın görüm!

Hamı susdu.
Kimi qorxdu…
Kimi pusdu…
- Biz béle démemişdik
Biz yalan yémemişdik!

Éşitdiyimiz bu ses,
Aldığımız her nefes.
Bu obalar, bu éller,
Bu méşeler, bu çöller.
Bu dağlar, bu dereler,
Bu zerrin menzereler.
Bu kendler, bu şeherler,
Bu çadralı kederler,
Belke éle men özüm,
Yazdığım şé'rim, sözüm
Yalandı!
Yalan!
Yalan!
Alına!
Yana-yana
Qalına!
<<Memleketi-Rey satıram
ay alan!
Hamı çaşıb el çaldı
Sonra da üstlerini
Bir qara sükut aldı.
Şair ayrılıb gétdi
Hara gétsin, hara var?
<<Her yanda ağ yalanlar,
Her yanda bir yara var…>>

Qayıtdı öz évine,
Gah ağlaya-ağlaya,
Gah sévine-sévine…
Açdı qapını
Her yan
Divar,

döşeme,
tavan
Yéne qıpqırmızı qan…
Yéne qan iyi gelir
Otağın havasından.
Baxdı yad divarlara,
Baxdı bir qonaq kimi.
Baxdı ki, vurduğu mıx
Göyerib budaq kimi.

Gördü döşeme tavan
Éle bil bir az şişib.
O göyeren budaqdan
Divarlara çat düşüb…

Dönüb yaşıl budağı
Öpüb bağrına basdı.
Sonra péncek qarışıq
Özünü ondan asdı…

Şair yaşıl budaqda
Yéllendi bayraq kimi.
Yaşıl bir yuxu gördü
Yalançı uşaq kimi.
Gördü ağır dağların,
Ağrı-ağrı dağların
Başına qar elenir,
Gördü bu yér üzüne
Yamyaşıl nur elenir.
Dünya yaşıla dönür…
Sarı işıqlar sönür…
Ay eyri qılınc kimi
Géceni biçib tökür.
Qoşub qem kotanını
Yaşıl gözlü bir qoca
Qoca dünyanı sökür.
Yaşıl gözlü, ay üzlü,
Ay saçlı bir gözel de
Yaşıl-yaşıl ağlayır…
Göz yaşı bulaq kimi
Yaşıl-yaşıl çağlayır…

Qırmızı yataqxana
Birden dönür tendire.
Bir yaşıl alov düşür
O asılan kendire.

Eli baltalı <<haqq>>lar
Kesir şiv budaqları,
Axtarır otaqları.
Palçıqla malalayır
Divardakı çatları,
Çağırır élatları…

89

Günorta
Böyük sütunlu salon
Doludur ağzınacan.
Alqışların sélinde
İclas gédir bayaqdan.

Aşıb-daşır te’rifler,
Yalan cıdıra çıxır.
Kimse gücle dilini
Dişleyib berk-berk sıxır.

Ayaq tutar yérimez
Déyirler, yalan,
hanı?
Yalan cıdıra çıxır
Gezir éli-obanı…

Haqq-edalet donunda,
Din-imanı bilinmir.
Atişlemez günkéçmez,
Yol-erkanı bilinmir.

Hamı yéyir bal kimi,
Feqet tamı bilinmir…
Niye ona inanır
Béle hamı, bilinmir…

Salonda quşa dönüb
Qanad açır yalanlar.
Hamı déyir yüz faiz
Ödenilir planlar…

Kürsüde yarış gédir:
Yalan, terif yarışı.
Salon od tutub yanır,
Yağır çepik yağışı.

<< - Dostlar, bu béşillikde
Borudan süd axacaq.
Körpelerimiz aydan,
Ulduzlardan baxacaq>>

<<- Beli, xalqın arzusu
Axır yétdi yérine:
Can déyib, can éşidir
Hamı biri-birine>>
<< - Bağbanlarımız ilde

Üç defe mehsul alır.
Sévincimiz boy atır,
Hesret-hicran qocalır…>>

<< - Qoyunlar da fealdır:
İlde üç bala doğur!
Göylerden yağış déyil,
Mehsul yağır, pul yağır.>>

Natiqlerin dilinde
Né’metler aşıb-daşır.
Oturanlar sévincden
El vérib qucaqlaşır…

Başı kéçe papaqlı,
Şalvarları yamaqlı,
Ayağı patavalı,
Sözleri dağ havalı
İki kişi eyleşib
Adamların içinde.
Ömürleri-günleri,
Héy ekinde biçinde…
Mehemmed mürgüleyir,
Ehmed gözünü döyür
Eyilib Mehemmede:
- Eye, bunlar ne déyir?
Çekir çiyinlerini
Yérinde qurcalanır.
Éle bil ki, canına
Od düşür, qor calanır.

Söz alıb Ehmed kişi,
Qalxır axır, kürsüye.
Çıxış éyleyenlere
Coşub az qalır söye.

- Bu ne herze-hedyandı,
Bu ne yalan-palandı!
Éh, besdirin, siz Allah,
Éşitdim, bağrım yandı!

Hamı déyir: planlar
Dolur yüz elli faiz.
<<İlde üç defe mehsul!>>
Niye yéne acıq biz?

Hanı ekdiklerimiz,
Hanı yığdıqlarımız?

81 Yoxsa göye çekilir
82 Dövletimiz, varımız?

83 Seherden axşamacan
84 İşle, işle…
85 Bes hanı?!
86 <<Kéçeceyik hamını
87 Bu gédişle>>.
88 Bes hanı?!
89 Haqq-edalet ebedi
90 Zefer çalıb - déyirsiz.
91 Éle
92 bextiyarlığa
93 Lap az qalıb - déyirsiz.
94 <<Bir ayağımız burda,
95 Biri orda - bu haqqdı>>
96 Eye, Ehmed uşaqdı?
97 Paçamız, bes, aralı
98 Ne qeder qalacaqdı?!

99 Sesimiz-harayımız
100 Tutub bütün dünyanı:
101 Bağ béle bostan béle
102 Şaftalı şele-şele.
103 Hanı?!
104 Hanı?!
105 Bes, hanı?!

106 Ehmed éndi kürsüden
107 Öz yérine gelmedi.
108 Hara gétdi, nécoldu
109 Héç kim héç ne bilmedi…

110 Burdan sonra kürsüye
111 Qalxdı Mehemmed kişi.
112 Canı üşürgelendi,
113 Sanki duymuşdu işi…

114 Salona göz gezdirdi:
115 Yox, Ehmedi görmedi.
116 <<Yér uddu, göy apardı,
117 Kişi yox oldu, nedi?..>>

Özüne toxdaq vérib,
Danışdı planlardan.
Te’rifledi, söz vérdi
Olmazın olanlardan.

- Yoldaşlar, aşıb-daşır,
Yağımız, péndirimiz.
Yumurtamız, etimiz.
Süd içib, qaymaq yéyir
Pişiyimiz, itimiz…

Malımız, dövletimiz
Şanımız, şöhretimiz
Tutub bütün dünyanı
Men démirem
<<Bes hanı!>>
Onsuz da hamı görür
Çuvaldakı cidanı.
Ehmed gözüme deymir,
Déyirem, Ehmed hanı!

90

Axşamdan Kéçende

- Salam, ay baba!
- Salam.
- Ne olub?
- Yorulmuşam.
Sahilde xéyli gezdim
İndi éle bil huşam.

- Bugünkü qezétlerde
Yéne yaman yazırlar.
Sizin qanlı illeri
Héy birucdan qazırlar.

- Qoy qazsınlar,
qazdıqca
O yalanlar,
talanlar,
Günahsız axan qanlar,
O olmazın olanlar
Bir-bir çıxacaq üze.
Çox örtülü metlebler
Belli olacaq size…
Bax men ölü, siz qalı,
Bu qan bu yérde qalmaz.
Cida cırır çuvalı,
Daha ört-basdır olmaz.

- Baba, herden déyirsen
Bu cidadan, çuvaldan.
Çox soruşmaq da olmur,
Nese çıxırsan haldan.

Daha dövran deyişib,
Kim ne isteyir déyir.
Xalq özü tikdiyini
İndi sökmek isteyir.

Qaynayır böyük, uşaq,
<<Heqiqet>> qezétinde
Vérilen başlığa bax:
<<Qehr olsun qan yuvası
Xalqlar yataqxanası!>>

Daha qısqanma,
söyle:
Cida ne, çuval nedi?
Silkele qoy tökülsün:
Deymiş nedi, kal nedi.

<<Bedbext şair>> - déyirdin,-
Ona héykel qoyurlar
O cellad rehberinse
Héykelini uçurub,
Mezarını oyurlar.

Qocanın bir anlığa
Gözü alacalandı.
Derinden nefes aldı,
Yanaqları allandı.

- He, gözümün işığı,
Démeye çox sözüm var.
Déyerler: <<İlan vuran
Ala çatıdan qorxar>>
Men de éle qorxmuşam.
Öz-özüme atılan
Bir parça qara daşam…

Başım gora titreyir,
İçim qovrulub, bala…
Ömrümün yétmiş ili,
Yéle sovrulub, bala…

Bax bu yataqxanada
Hamımız günahkarıq.
Tökülen o qanlarda
Bil ki, hamımız varıq.

Burda biz yalan yéyib,
Yalanla dolanmışıq,
Bu yalanlar uğrunda
Çox oda qalanmışıq.

Bu böyük yataqxana
Dibsiz qara çuvaldı.
Çox yarmalar üyündü,
Bu çuvala boşaldı.

Bu dibsiz qara çuval
Özü boyda yalandı.
Bu yalanın içinde

78 Çox biçare şairler,
79 Çox zavallı Ehmedler
80 Cida kimi dayandı.

81 Süzülüb ordan-burdan,
82 Çuval gücle dayanır.
83 Yalan öz yalanına
84 Daha özü inanır.

85 Bu yalan bir séhrdi,
86 Bu açarsız bir sirrdi.
87 Bu en varlı-dövletli,
88 Bu en miskin yésirdi.

89 Çox şéyler ve'd éleyib,
90 Aldadıb, aldanmışıq.
91 Onu yaşatmaq üçün
92 Özümüzü danmışıq.

93 Allahın belasıdı,
94 Göze çöken çendi bu.
95 Suya susuz aparıb
96 Susuz getirendi bu.

97 Yalançının évi yanar,
98 Dé, kim ona inanar?
99 Düz dörd il évi yandı,
100 Hamı axışdı geldi.
101 Bu qeribe tufandı
102 Bu qenirsiz gözeldi.

103 Qanlı bayraq elinde,
104 Sülh şüarı dilinde.
105 Düşmene el uzadıb
106 <<Dost>> déyib yağmalayan.
107 <<Şimal>>da elin yuyub,
108 <<Hind>>e ayaq sallayan,
109 Bir zaman qurd olanı
110 İndi manqurd éleyen;
111 Ayağı deyen yéri
112 Özüne yurd éleyen;
113 <<Menem>> déyen milletin
114 Yurdunu yurd éleyen,
115 Tilsimli nerdi, bala
116 Mekrdi şerdi, bala.

Ebedi yol yoldaşı
Zelillik, éhtiyacdı.
Bütün dünya onundu
Yéne acdı ki, acdı…

Kim <<Azadlıq>> - dédise,
Dünya ona dar oldu.
Bir vaxt <<Jandarm>> idi
Dönüb <<Xilaskar>> oldu.
Bexti ayaq üstedi,
Oba-oba kéçdikce
Adı dilde gezerdi.
Oraqlayıb biçdikce
Çekicleyib ezerdi.

Dostluq perdesi altda
Çox tufanlar qopardı.
Dünyanın her yérinde
Qanlı izleri vardı.

Bax, bu neheng yalanı
Çox tikib, uçurublar.
Çox rengleyib, bezeyib,
Çox yéniden qurublar.

Heqiqet cilidinde,
Edalet cilidinde,
Qardaşlıq, beraberlik
Seadet cilidinde,
Azadlıq cilidinde
Min kere doğulubdu.
Maskası cırılanda
Sudan çıxan balıq tek
Tentiyib, boğulubdu.

Yéne çıxıb astarı
Üzü tökülüb gédir.
Ordan yamaq vururlar,
Burdan sökülüb gédir.

Yéne rengleyirler,
Yéne yamaq vururlar
Yéne qan iyi gelir
Yéne nese qururlar…

Başım gora titreyir,
İçim qovruldu gétdi.
Ömrümün yétmiş ili
Yéle sovruldu getdi…

Goru gözümle gördüm,
Bu yalanın içinde.
Çöreyim ümid oldu
Bu talanın içinde.

Men adam déyilem ha,
İndi quru nefesem.
Bir boxça xatireyem,
Daha yériyen sesem.

Ömrümün yétmiş ili
Éh, havayı ötüşdü.
He, yéne yadıma
Bir él meseli düşdü

<<Bir deli bir quyuya
Bir daş atdı - qanmadı.
Yüz ağıllı yığışıb
Daşı çıxardammadı>>

Belke éle varlığın
Bu da bir naxışıdı?
Üzümüz tanrıyadı:
Tanrı bilen yaxşıdır.

91

KÖLGELER

Yéne köksüm yandı, sinem alışdı,
Qaldırım göylere haqqın sesini!
Bu géce menimle kölgem danışdı,
Yazım kölgelerin faciesini!

Dostların çoxundan vefalıdır o,
Hemişe yanımda mene heyandı.
Dünya işlerinden bax, halıdır o,
Arxamca süründü, oduma yandı.

Hesretdir işığa yaranışından,
Görende gizlenir utanmış kimi.
Böyüyüb boy atır sökülende dan,
İşıq arzusuyla héy yanmış kimi.

Vardır kölgesine boyun eyenler,
Kölge var özünü insan sayıbdır.
Üzüme sözünü déyemmeyenler,
Arxada kölgemi qılınclayıbdır.

92

****

01 Ne qeder kölge var dünya üzünde,
02 Heresi bir rengde, bir biçimdedi.
03 Adam var kölgesi iki gözünde
04 Adam var kölgesi öz içindedi.

05 Onların öz dili öz baxışı var
06 Amalı, meqsedi rengberengdi.
07 Çoxdu kölgesinden qorxan adamlar,
08 Özü öz yanında dili gödekdi.

09 Gör neler dolanır fikrimde neler,
10 Bir özge milletdi, bir özge ölke…
11 Sahibsiz yaşayan qara kölgeler
12 Qara talé ile qohumdu belke?!

13 Bir görüm işıqda yéddice reng var,
14 Sonsuz kainatta her şéy qarışıq.
15 Qapıbir qonşudur sévincle, qubar,
16 <<İşıqda kölge var, kölgede işıq.>>

17 İşıq var el açır güneşe, aya
18 Kölge var işığı talanır hele…
19 Adam var kölgesiz gelib dünyaya
20 Kölge var yiyesiz dolanır hele…

93

****

01 Uşaqdım anamın men idim derdi:
02 <<Sene kec baxanlar saralıb solsun>>
03 Men yola çıxanda atam déyerdi:
04 <<Tanrının kölgesi üstünde olsun>>

05 Bu sözden qelbimde yanardı çıraq,
06 Hemişe göyleri tutardıq eziz.
07 Güneşin kölgesi bu ana torpaq,
08 Onun kölgesinde yaşayırıq biz!

09 Kölge rengindedi torpağın üzü,
10 Güneş - tanrı kimi, şah çıraq kimi…
11 Dostların kölgesi qayğısı, sözü,
12 Olaydı güneşle bu torpaq kimi…

94

****

01 Kölgesi özünden böyük olanlar,
02 Bütün kainatı tutmaq isteyir.
03 Dilinde zeherli şirin yalanlar,
04 Bu elvan heyatı udmaq isteyir.

05 Onun kölgesinde böyümek olmur,
06 Minnetli qayğılar dönür qılınca.
07 Kölgede olanlar yaşamır, ölmür,
08 Baxır kéçmişinin, baxır dalınca…

09 İçinde işığı ölür, sozalır,
10 Kölgede yaşayıb kölgeye dönür
11 Ulu kéçmişine qısılıb qalır,
12 Bu günü, sabahı, héç neye dönür.

13 Kölge rengindedir torpağın üzü.
14 Güneş - tanrı kimi, şah çıraq kimi.
15 Dostların kölgesi qayğısı, sözü
16 Olaydı güneşle bu torpaq kimi…

95

KÖLGELER DANIŞIR

Birinci Kölge

Bir él, bir oba idim,
Pirani baba idim.
Yérim yatağım vardı,
Başım, papağım vardı.
Yada hörmetim vardı,
Bede nifretim vardı.
Qılınclı elim vardı,
Laylalı dilim vardı.
Gécem, gündüzüm vardı,
Söhbetim-sözüm vardı.
Duyurdum her belanı
Qelbimde dözüm vardı.
Tükü tükden ayıran
Éyneksiz gözüm vardı…

Bir gün ay işığında
Qapıma kölge düşdü.
<<Dostum>>, <<qardaşım>> - déyib
Geldi, menle görüşdü.
Kölge qayğı géyinib
Döşendi yollarıma.
Serildi qollarıma;
Axdı damarlarıma,
Namusuma, arıma…

Kölge qayğıya dönüb
Belendi vüqarıma.
<<Dostum>>, <<qardaşım>> - déyib
Çatdı é'tibarıma…
Kölge qayğını géyib,
<<Dostum>>, <<qardaşım>> - déyib
Üreyime yayıldı,
Çöreyime yayıldı…
Ayılanda gördüm ki,
Her yan éle kölgedi;
Héç bilmedim bu nedi…

Tükü-tükden ayıran
Gözümü tapammadım.
Nese démek istedim
Sözümü tapammadım

41 Başım yérinde idi,
42 Tapmadım papağımı
43 Elek-velek éledim
44 Yérimi, yatağımı

45 Qılınclı elim hanı?
46 Laylalı dilim hanı?
47 Her yan éle kölgeydi,
48 Héç bilmedim bu neydi…

49 Néynim dönmüşdüm daha
50 Kölgenin kölgesine.
51 Düşdüm vaxtın nesine…
52 Yada hörmetim öldü,
53 Bede nifretim öldü.
54 Döndüm kor canavara,
55 Gördüyüm her şéy qara…
56 Dağlar da éşiderdi
57 Bir vaxt her buyruğumu,
58 Gör ne güne qalmışam,
59 Didirem öz-özümü,
60 Yéyirem quyruğumu…

96

İkinci Kölge
Adım kor yapalaqdı,
Özüm de ki bey quşam.
Géceleri ulamaq,
Gündüz yatmaqdı péşem.

Bir zaman qartal kimi
Men de qanad çalardım.
Çaqqalları téyleyib
Qolpunlardan salardım.

Başçımız qartal idi,
Zirvede dolanırdı.
Toğlugötürenle men
Derelerde yanırdıq.

Qızılquş ellerdeydi,
Söhbeti dillerdeydi.
Qırğıyla Şonqar lele
Kéşikçiydi düzlere.

Bülbül neğme déyirdi,
Yatan oyanmamışdı.
Hele gülün éşqile
Qana boyanmamışdı.

Tutuquşu alim olub
Şöhrete çatmamışdı,
O vaxt hele qarğanı
Tülkü aldatmamışdı.

Bu köçhaköç yox idi
Élde-oylaqda idik.
Qışda évde-éşikde,
Yayda yaylaqda idik…

Bir gün bizim obaya
Bir sarı kölge düşdü.
Dost kimi, qardaş kimi
Salam vérib görüşdü.

Yédi-içdi toxdadı,
Şirin-şirin danışdı.
Éle bil ki, bizimle
Yüz illerdi tanışdı:

<<Başçınız néynir orda
Zirve dumandı-çendi?!
Harda yémek tapılsa
Ora éle vetendi!..>>

O çox söhbet éledi
Azadlıqdan, çörekden,
Ağzından çıxanları
Alqışladıq ürekden,

Qartala düşmen olduq,
Obadan üz çévirdik
Qırıb bir-birimizi
Selteneti dévirdik.

Azadlığa çıxaraq
Quşlar dağılıb itdi
Here bir yana gétdi.

Éle hemin o günden
Qızılquş elden çıxdı,
Söhbeti dilden çıxdı…

Bülbülün nalesinden
Yatan güller oyandı,
Vüsal günü yazığın
Köksü qana boyandı

Tutuquşu oxuyub
Alim heddine çatdı,
Şelequyruq tülküler
Qarğaları aldatdı.

Durnalar qerib oldu.
Qerib çoxaldı artdı.
Qırğının yuvasında
Yadlar bala çıxartdı.

İtdi yaddaşımızdan
Ana veten, yurd yéri.
(Quşlar, kezib axtarır
Hele o vaxtdan beri).

Qartal qezeblenerek
Şonqarı da, meni de,
Toğlugötreni de,
İlim-ilim itirdi.
Meni kölge götürdü

77 Dédi: <<Bu günden béle
78 Gécelerin şahısan
79 Sene beylik vérirem,
80 Virane allahısan!>>

81 Yaşayıram o günden
82 Kölgenin kölgesinde.
83 Özüm özüme şaham,
84 Hem bende, hem Allaham
85 Géceler ölkesinde.

86 Adıma kor déyirler
87 Gören gözü néynirem!
88 Yémeyim-içmeyim var
89 Gün-gündüzü néynirem!

97

01 **Name'lum Kölgenin Sesi**
02 O qeder kölgede yaşamışıq ki,
03 Qorxudan güneşe baxa bilmirik.
04 Géceye vurulmuş yarasalar tek
05 İndi qaranlıqdan çıxa bilmirik.

98

Tanış Ünvan

Men onu tanıyırdım,
Kasıb bir oğlan idi.
Emeli arzuları
Éle bir dastan idi.

Héç kesi éndirmezdi,
Yaman vüqarlıydı o.
Ağılı, savadıyla
Çoxundan varlıydı o.

Dolandı günler, aylar,
İller bir-bir ötüşdü.
Çoxuna kölge salan
Özü kölgeye düşdü…

Bir qız gözelliyile
Onu kemende saldı.
Bülbül feğan éyledi,
Benövşe bende saldı…

Qızın gözelliyinin
Kölgesinde uyudu
Dédi: o qara gözler
Qırx arşınlıq quyudu.

Gerek xoşbextliyimi
Düşüb axtaram orda.
Divlerin, reqiblerin
Bağrını yaram orda.

Dédiler, tayın déyil,
Ondan aralan, bala!
Şerdi ata-anası
Qandan aralan, bala!

Sen kasıb bir adamsan.
O varlı balasıdı.
Bilirsenmi o tayfa
Allahın belasıdı…

Oğlan söze baxmadı,
Özge göze baxmadı.
Gözel qızın dalınca
Sürüdü kölge kimi.
Axır öz üreyini
Apardı belge kimi…

***

Birce il yaşadılar
Sözsüz, sakit, méhriban.
Bir ilden sonra, qardaş,
Qopdu, ne qopdu tufan:

<<Cındırından cin hürkürdü.
Seni adam éledik.
Bir çürük qoz déyildin,
Yağlı badam éledik.

Gah işe téz gédirsen,
Gah işden géc gelirsen,
Eli boş, ayağı boş…
Bir lüt olduğun yérde
Sen bize güc gelirsen!

Hele eynimdekiler
Papam aldıqlarıdı.
Déyirdin arvad erin
Namusudu, arıdı!

Menim kimi namusa
Bir karlı yiye gerek!
Armudun yaxşısını
Ayılar yéye gerek?!

İtin suya düşeni
Laykaya bürünübdü.
Er déyilsen, kölgesen,
Bu harda görünübdü?

Papamın hésabına
Év aldın, kişi oldun.
Bizim ailemizin
Ağrıyan dişi oldun…>>

Her gün nağara çaldı
Bu sözler qulağında
Gücden düşdü, boşaldı
Özü öz qabağında
Sözü söz qabağında…

Yaxına, dosta, yada
Derdini déyemmedi.
Désin, bes, néce désin?
Sévdiyi bu xöreyi
Çalışdı yéyemmedi.
Yésin, bes, néce yésin?

<<Ortada bir gül bala,
Yola gét, bala, yola…>>

Qohumların yanında
Oldu gözükölgeli
Sirrini açammadı
Qaldı sözükölgeli…

99

Palıdlı Méşenin Dédiklerinden

Dayan, ayaq saxla, eli baltalı,
Doğra budağımı, kölgeme deyme!
Mensiz yaman olar dağların halı,
Meğrur palıdıma, cökeme deyme!

Bir xoş gün görmedim hele yaşımdan,
Sél döşümden vurdu, şimşek başımdan.
Daşı torpağımdan, daşı daşımdan
Çinarlı-vüqarlı ölkeme deyme!

Déyirsen: <<xestesen, geldim, qurtarım>>
Qoy özüm yükümü özüm aparım.
Coşan bulaqlarım - derdim-azarım
Köksümde çağlayan bu qeme deyme!

Min yérden éşmisen yér-yatağımı.
Yazmısan elinle sine dağımı.
Qırıb azaltmısan yalquzağımı
Barı maralıma, tekeme deyme!

Gülen puçurların gözleri qandı,
Ümiddi, belkedi, hele gümandı.
Seni and vérirem göye, amandı,
Menim pöhreleyen belkeme deyme!
Doğra budağımı, kölgeme deyme!

100

Yazılmamış Bayatılardan

Geldim onun etrine,
Deyemmedim xetrine,
Kölgede biten gülün
Özü küsgün, etri ne!..

Bu zalım soydu meni
Soyduqca öydü meni.
Özü ağ güne çıxdı.
Kölgede qoydu meni.

Gördünmü o yağını,
Çıxartdı lap ağını.
İşığım düşen yére
Tıxadı papağını…

Yadıma feryad geldi,
Géc geldi, imdad geldi…
Qapıma kölge düşdü.
Qorxdum - yéne yad geldi…

Qılıncam, tiyem hanı,
Sözümü déyem, hanı?
Sahibsiz bir kölgeyem
Bes menim yiyem hanı?

101

Ayxanın Sualları

I

Ata, burda yazırsan ki,
Gözler - qaşın kölgesinde,
Ağıl - başın kölgesinde,
Tamah - dişin kölgesinde,
Arzu - işin kölgesinde,
Yér - güneşin kölgesinde.
Sular - göyün kölgesinde.
Yaxşı, onda mene söyle,
Güneş neyin kölgesinde?

102

II

01 Kölgem özümden büyükdü,
01 Kölgesi böyük olanlar
03 Uşaqdımı?

04 Dağlar gözümden böyükdü
05 Gözlerime néce sığır,
06 Qoçaqdımı?

07 İşıqları gören kimi
08 Kölgeler qaçıb gizlenir,
09 Qaçaqdımı?

103

III

01 Ata, ata, ay ata,
02 Niye titreyir-esir
03 Çıraqların kölgesi?

04 Ata, ata, ay ata,
05 Denizde üze bilir
06 Mayakların kölgesi?

07 Ata, ata, ay ata,
08 Niye qırmızı olmur
09 Bayrakların kölgesi?

104

Kölgede Çekilen Şekil

Arxın kenarında bir yaşıl çinar,
Yaşıl alov kimi qalxıb göylere.
O kimdir yanında béş-on quzu var,
Kölgede
Lezzetle uzanıb yére?

Başının altında kitab-defteri,
Teze çatmış olar on béş yaşına.
Üzülmüş çepişden yoxdu xeberi
Çörek çantasını géyib başına.

Yatır quru yérde, yatır daş kimi,
Éle bil dünyadan kamını alıb.
Çinar ata kimi, dost, qardaş kimi,
Ala kölgesini üstüne salıb.

Herden sifetine duman, çen çökür,
Yeqin yuxusunda alıbdır <<iki>>,
Köhne arx éle héy doğrayıb tökür,
Nese, gümüldenir anası teki.

Çöreyi yéyilib, özüse yatıb,
Dörd yanı cennetdi - güldü, çiçekdi.
Kölge yuxusuna éle bal qatıb,
Ona quru yér de yorğan-döşekdi.

Köksüne bir sarı yarpaq qonubdu.
Yanır yaxasında mükafat kimi.
Varlığı uyuyub, ruhu donubdu,
Sabah ayılacaq bir heyat kimi…

105

****

01 Oxucum, yatan uşaq
02 Éle men özüm idim.
03 Kölgeler baresinde
04 Béş-on sözümü dédim…

05 Andıqca o günleri
06 Köksüm oda qalanır,
07 Kölgem quzularıyla
08 Yéne orda dolanır…

09 Kövrek uşaqlığımla
10 Çoxdan vidalaşmışam.
11 Çox yollar dolaşmışam.
12 Çox belenler aşmışam.

13 O çinar kölgesinde
14 Kéçib gözel günlerim.
15 Kölgelerde qalıbdı.
16 Toylarım, düyünlerim…

17 Sonralar anladım ki,
18 Rengbereng kölgeler var.
19 Kölgelerde inleyen
20 Éller var, ölkeler var.

21 Kömek, qayğı donunda
22 Qılınclar, baltalar var.
23 Kömek, qayğı donunda
24 Buxovlar, xaltalar var.

25 <<Dostum, qardaşım>> - déyen
26 Oğrular var dünyada.
27 Qıpqırmızı yalançı
28 <<Doğrular>> var dünyada

29 Canavar dine bilmir
30 Qoyunun kölgesinde.
31 Yaşayıb-yaradırlar
32 Dayının kölgesinde.

33 Deyişib rengini
34 Üzler min dona düşür
35 Gözler min dona düşür.
36 Kölgelerin qorxusu
37 İliye, qana düşür,
38 Arzu, imkana düşür.

39 Kölgede yaşadıqca
40 İnsan dönür kölgeye.
41 Özünden üz çévirir
42 Üz tutur sonsuz göye…

ARXADA HESRET VAR (1986)
BİRİNCİ BÖLÜM: SABAH NE DOĞACAQ HAMİLE DÜNYA

106

Türkayam

Türkayam, bu adı qebul éyledim,
Özümü özüme men qul éyledim.
Götürüb qelbimi üzü güneşe,
İşığa, sabaha men yol éyledim!

107

Sabah Ne Doğacaq Hamile Dünya

Babama

Menim Türkay babam, Aya tay babam,
Ruhuyla hem bu tay, hem o tay babam.
Tek cana bir alay döşleyen babam,
On adam yérine işleyen babam.
İndi azad yurdum, azad élim var,
Firavan heyatım, azad dilim var.
Gorun nurnan dolsun rahatca uyu,
Sahibi olmuşuq torpağın, suyun…
Orda muştuluqla <<ölübdü qem>> dé!
Men senin néçenci neticenem, dé!
Senin qanın axır damarlarımdan,
Ruhun xeber vérir ilk baharımdan.
Cismin torpaqdadı, adın adımda
Yaşayan nefesin, gören gözünem.
Külün külümdedi, odun odumda,
Déye bilmediyin neğmen, sözünem…

Bu Gün Sabaha[46]

[46] "Bu Gün Sabah" adlı şiir *Éşgim Menim Dar Ağacım* kitabında "Sabah Ne Doğacaq Hamile Dünya" adıyla yer almaktadır.

108

Veten

Üz qoyduğum torpaq élim, vetenim.
Çörek çıxan yére veten démerem.
Anam öyretdiyi dilim - vetenim,
Meni sıxan yére veten démerem.

Qürbetde Allah ol, qepiye deymez,
Qürbeti ölümden béter déyibler;
Arzular güllener, budağı eymez,
Ot kökü üstünde biter, déyibler.

Köksünde veteni daşıyanları,
Hemişe gözleri dolan görmüşem,
Vetende vetensiz yaşayanları,
Saralan görmüşem, solan görmüşem.

Bir parça vetendir Füzuli qebri,
Dözmeyib, yanından öten ağlayır;
El çatmır, ün yétmir, daralıb sebri,
Qürbetin elinde veten ağlayır.

Bu qem üreklerde çıraq-çıraqdı,
Hemişe nur yayır sévinc paylayır.
Men néce déyim ki,
Sirdi-soraqdı
Vetende vetene gétmek olmayır.

Vetenden danışmaq olubdur yaman,
Vetensiz olanlar, bundan halıyam.
Bulanlık sél kimi axır vaxt, zaman,
İlan tek dilimi çıxarmalıyam.

Ölke var yaşayır ağayla köle
<<Azadlıq>>, <<edalet>>- déyib bağırır.
Millet var utanmaz-utanmaz, hele
Qan tökdüyü yéri <<Veten>> çağırır.

Veteni mal-dövlet sayanlar ne çox,
Daraşıb sökürler qarışqa kimi.
Vetenden bézikib, doyanlar ne çox,
<<Veten>> çağırırlar bütün alemi…

Olmaq isteyirler hereden bir az,
Onların ruhu da alabezekdir.
Bir éli ikiye ayıran Araz.
Duymurlar dünyada qanlı tütekdi.
Qoca savalanın esen küleyi,

40 Yanan ocağının hisi Vetendi.
41 Sabir’in, Celil’in éşqi, dileyi,
42 Bülbül’ün, Cabbar’ın sesi Vetendi.

43 Vetendir <<ata can>> déyen bu uşaq,
44 Secde éleyirem ona pir kimi.
45 Vetende vetenden uzaqdır, uzaq,
46 O kimdir danışır mühacir kimi?!

47 Vetendir
48 Qılınc tek derdli Arazım,
49 Vetenin qelbine sancılıb, qalıb.
50 Vetendir oxuyan sedefli sazım
51 Edalet éşqile yanıb-qaralıb.

52 Üz qoyduğum torpaq élim, vetenim,
53 Çörek çıxan yére veten démerem.
54 Anam öyretdiyi dilim-vetenim,
55 Meni sıxan yére veten démerem!

109

Ata Yurdum, Qayıtmışam

Ata yurdum, qayıtmışam qonağın kimi,
Burdan çıxsam bir gédecek yérim var daha.
Buyur, çağır öz kiçiyin-uşağın kimi
Fikir vérme saçlarıma yağır qar daha…

Hanı menim qırğı kimi delibaş atam?
Gözlerinde at oynadır ömrün dumanı.
Ah, bu géce tük balışda çetin ki, yatam,
Uşaqlığım, decelliyim burdaydı, hanı?
Qonum-qonşu qaramızca giléylenerdi:
<<Ala qarğa elinizden bala böyütmez>>.
O günlerim bir de dönmez, bir de qayıtmaz.

Ümid tutub elimizden çekib gédirdi,
Güneş énib gözümüzden baxası idi…
Aylar, iller ömrümüzü söküb gédirdi,
Sabah… sabah qanadımız çıxası idi…
Boz sehrada yol gözleyen ağac kimiydik,
Öten bulud gözlerini sıxası idi.
Héyif, ve'dler innen béle meni ovutmaz,
O günlerim bir de dönmez, bir de qayıtmaz.

Géce kéçir dan yéri de nese sökülmür,
Ulduzlar da avazıyıb dönüb gümüşe.
Evvelki tek gözlerimden yuxu tökülmür,
Yuxular da pul kimidi, olmur hemişe.
İxtiyar bol, ümidler bol, vaxt da bol idi,
Arxada yol, qarşıda yol, her yan yol idi,
Uşaq idik, açılardı üz tutsaq neye…
Fikirlerim, xeyallarım çekilib göye…
<<Derdin alım, gécikirsen dersine>>- déye
Anam meni <<daş>> yuxumdan bir de ayıltmaz,
O günlerim bir de dönmez, bir de qayıtmaz.

Arxada Hesret Var[47]

[47] "Arxada Hesret Var" adlı şiir *Éşgim Menim Dar Ağacım* kitabında "Arxada Hesret Var Qarşıda Hesret" adıyla yayımlanmıştır.

110

Ata Gelib Çatıb Oğlu Yaşına

Ata <<gelib çatıb>> oğlu yaşına
Tezece saçına den düşür indi…
Sağ eli, déyirem, <<qardaş>> başına;
Yérişi lengiyib, gözü korşalıb,
Seksende ömrüne çen düşür indi…

Dünyaya gelibdi elinde yaba,
Kéçib <<41-45>> vuruşlarından.
Sévinib sévince, dözüb ezaba,
Yadında ne qalıb ilk baharından?
Kéçib uşaqlığı dağda-aranda,
Etirli çiçekler balıncı olub.
Haylayıb sürünü alatoranda,
Çox vaxt év-éşiyi yapıncı olub…
Eli tutan günden qurub-yaradıb,
Éline-gününe neler étmeyib.

Hesreti-möhneti doyunca dadıb,
Alovlu illerde ölüb-itmeyib…
Éndirib göylerden ayı, ulduzu.
Çıxıb ağ günlere oğulu, qızı.
Axır <<gelib çatıb>> oğlu yaşına;
Sağ eli, déyirem, <<qardaş>> başına…

Oğlu görmeyibdi qanlı illeri,
Şöhretli illeri, şanlı illeri…
Silah götürmeyib, gülle atmayıb,
Yüz adam içinde adam sayılır.
Onu atası tek top oyatmayıb
Saatın zengine gücle ayılır.
Oxuyub, gözünün qarası gédib,
Otuz béş yaşında alimdir adı.
Suallar, qayğılar ruhunu didib,
Ömrün ağ günleri saçlarındadı…
Év-éşik qayğısı, uşaq qayğısı,
Dost-yaxın qayğısı, uzaq qayğısı…
Düşüb éhtiyacın sert kemendine,
Géceler vuruşub kağızlar üste.
Düşüb nadanların fé'l-fendine
Ruhu atım-atım, üreyi xeste…
Atası çatıbdı onun yaşına;
Sağ eli déyirem <<qardaş>> başına…

Oturub üz-üze atayla oğul,
Birisi heqiqet, birisi nağıl.
Alınlar éynidi, üzler éynidi,

44 Boy-buxun, éynekli gözler éynidi.
45 Ata oddan çıxıb, ocağındadı,
46 Oğul ağ günlerin qucağındadı…
47 Biri ordénlidi, gülür, danışır,
48 Biri fikirlidi, niye, bilmirem.
49 Onlara baxanda fikrim qarışır,
50 Kim kimin oğludu?
51 Déye bilmirem…

111

01 **Azadlıq**

I

02 Göyde süzen qartalı
03 Kimse éndirecekdi.
04 Bu yanan lal çırağı
05 Kimse söndürecekdi.
06 Bu lal-kar qayaları
07 İstedi, istemedi
08 Şimşek dindirecekdi.
09 Axan bu deli çaylar
10 Denizde lal olacaq;
11 Herdenbir esib-coşub,
12 Yéne bihal olacaq…

13 Qartal yélden çekinir,
14 Çıraq elden çekinir…
15 Şimşekleri görende
16 Qayalar zağ-zağ esir,
17 Çaylar da qorxa-qorxa
18 Denizlere telesir…

19 Çaylar dönüb tersine
20 Gören axa bilermi?
21 İldırımın gözüne
22 Qaya baxa bilermi?
23 Çırağ eli yandırıb
24 Gören yaxa bilermi?..
25 Tufandan, burulğandan
26 Qartal çıxa bilermi?

112

II

01 Qabağına qoyduğun
02 Çöreyin azadlıqdır;
03 Doyunca yé, qardaşım!..
04 Ellerinde çırpınan
05 Üreyin azadlıqdır;
06 Doyunca yé, qardaşım!..

113

III

01 Qerbden şerqe daşınıb
02 Şerqden qerbe daşınıb.
03 Gah eminamanlığa
04 Gah da herbe daşınıb
05 Qanunlara bükülüb
06 Gah hediyye vérilib,
07 Gah mükafat vérilib;
08 Gah ölüb, gah dirilib…
09 Yaşayır üreklerde.
10 Yaşayır dileklerde
11 Alov kimi, köz kimi,
12 Üreklerden çıxanda
13 Dodaqları yandırıb.
14 Dileklerden çıxanda
15 Bayraqları yandırıb,
16 Çıraqları yandırıb…
17 Axtarıblar düz kimi.
18 Yaşamaq xatirine
19 Bir az utancaq olub
20 Gelin kimi, qız kimi…

IV

21 Kendden, şeherden uzaq,
22 Qéybet - zeherden uzaq;
23 Derdden, qeherden uzaq
24 Barı birce anlığa
25 Unut bütün dünyanı;
26 Unut yéri, insanı…
27 Dé ki, <<Her şéy menimdi
28 Bu dağlar, bu dereler.
29 Yurdumdu, meskenimdi >>…
30 Bura qoruqdu - déme,
31 Unut seddi, serheddi.
32 Barı birce anlığa
33 Unut hedeni, heddi…
34 Mağallaq aş, éşelen,
35 Çiçeye, güle belen.

36 Qışqır sinen dolusu.
37 Çağır éli, ulusu…
38 Uzan arxası üste,
39 Axan buludları say.
40 Bir derinden nefes al
41 Sineni aç, dé <<oxqay>>.
42 Körpe gicitikanlar
43 Dalasın ayağını,
44 Çiyelek, böyürtikan
45 Boyasın dodağını,
46 Ağacların budağı
47 Götürsün papağını…
48 Bir de kola ilişib
49 Lap cırılsın köynéyin
50 Bir buzbulaq başında
51 Yıxıl, qalmasın héyin.
52 Birce udum su içib,
53 Ara vér nefesine;
54 Qulaq as bu méşede
55 Sükutun neğmesine…

114

01 Göyde süzen qartalı
02 Kimse éndirecekdi.
03 Bu yanan gur çırağı
04 Kimse söndürecekdi.
05 Bu lal-kar qayaları
06 İstedi, istemedi
07 Şimşek dindirecekdi
08 Axan bu deli çaylar
09 Denizde lal olacaq;
10 Herden bir esib-coşub,
11 Yéne bihal olacaq…

Nağıl[48]

[48]"Nağıl" şiiri *Éşgim Menim Dar Ağacım*'da "Nağıla Çox İnanma" başlığıyla yer almaktadır.

115

Bu Dağ Dağımdı Menim

Adını deyişdiler,
Qırdılar méşesini,
Batırdılar sesini.
Üstünden yol çekdiler,
Yamacını ekdiler;
Éşim-éşim éşdiler,
Yüz yérinden déşdiler,
Buz suyundan içdiler,
Başına iller boyu
Min bir oyun açdılar,
Héç vécine almayıb
Lal kimi dayandı o.
Qışda qara bürünüb
İçin-için yandı o.

Şiv palıdlar biçildi,
Boyu bir az kiçildi.
Périk düşdü quşları.
Pelengleri, qurdları
Bu dağa qurban olum
Boş qalmadı yurdları.

Bir azca alçaltdılar,
Bir azca éndirdiler,
Torpağını gec kimi
Daşıyıb yandırdılar.
Şimal küleklerinden
Başına qar elendi
İllerle erimedi.
Cenub küleklerinden
Üstüne qor elendi
Bulağı qurumadı.
Bu dağa qurban olum;
Kesilmedi nefesi,
Göyerdi benövşesi.

Eteyinde lalesi
Alışdı oda yandı,
Zirvesinde qar altda
Novruzgülü oyandı…
Yéne veles bitirdi,
Yéne cöke yétirdi.
Demirağac, şah palıd
Qolu qanadı oldu.
Qartallı qayaları
Şöhreti-adı oldu.

Derelerden boy vérdi
Yéne çeni-dumanı.
Berelerden hay vérdi
Qurdu-quşu, aslanı…
Benövşesi yéne de
Ter-benövşe qoxudu.
Bulaqları yéne de
Öz dilinde oxudu…
Bu dağa qurban olum
Min bir ağrı çekse de
Ağır kişiler kimi
Ağır-ağır dayandı.
Buludları ağladı
Çiçekleri oyandı,
İstekleri oyandı…

Milyon yaşlı bu dağın
Adını deyişdiler,
Üreyinin ateşi,
Odu deyişilmedi.
Çiçeyine, gülüne
Min bir péyvend étdiler,
Ne etri, ne de ki
Dadı deyişilmedi.
Bu dağa qurban olum!
Bu dağ dağımdı menim,
Kam oylağımdı menim,
Qem oylağımdı menim…
Bu dağ dağımdı menim.

116

Xezer Haqqında Düşünceler

Göz yaşı tek duru idi
duzlu idi,
Köksündeki esrlerin qoru idi
gizli idi,
Yolumuzda bir ebedi göy nur idi,
nazlı idi…
Xezeri gördünüzmü ola?

Ateşine <<pervaneler>> uçub geldi,
Ne'resine divaneler qaçıb geldi,
İştahlılar ağzını açıb geldi.
Xezeri gördünüzmü ola?

Lepeleri şumladılar, düzlediler,
Dalğalara buruq ekib gözlediler,
Göylerini tüstülerle bezediler,
Xezeri gördünüzmü ola?

Kağız kimi lülelenmiş lepeleri
şikayetdi,
Oxusalar bir kederli,
sızıltılı hékayetdi,
Bézib qaçır insanlardan,
Bu heyatdan nehayetdi…
Xezeri gördünüzmü ola?

Sahillerin ağzı indi zeher olub,
Çox hönkürüb, çox çalxanıb heder olub,
Denizlerden ayrı düşüb
bu da ona qeher olub…
Xezeri gördünüzmü ola?

Lüle-lüle lepelerin-
<<erizelerin>> yatacaqdır…
Kimse ona el-üzünü
Silib sene atacaqdır…
Yéne çare buna qalıb:
Coş, ay Xezer, daş ay Xezer!
Sahilleri yar, parçala, aş, ay Xezer!
Sussan, dözsen sinen üste
Buruq déyil, turp ekerler!

Arazdan Çox Yazan Bir Şaire[49]

117

Şeherde Ayaqlar Deymir Torpağa

Şeherde ayağım deymir torpağa,
Torpaqdan bir köynek aralanmışam.
Hesretem çiçeye, dereye, dağa
Saralıb bostanım, uralanmışam.

Şeherde ayaqlar deymir torpağa
Örtübler üstünü demirle, daşla.
Ağaclar başını eymir torpağa,
Bağışla ay baba, meni bağışla!

Ağaclar böyümür kenddeki kimi,
Etri oğurlanır çiçeyin, gülün…
Bu şeher qoynuna yığıb alemi,
Deyişir dilini obanın-élin…

Gezdikce üstünde demirin, daşın
Ürek demirleşir, ürek daşlaşır.
Hardasa, neyese qarışır başın,
Gün kéçir,
Qayğılar başından aşır.

Ürek demirleşir, ürek daşlaşır,
Bélece gözünde ölür héyretin.
Çörek daşdan çıxır
Çörek daşlaşır…
Saqqallı uşağa dönür qéyretin…

Héyret de dözüm de qurtarır darda,
Ürekler daşlaşır, çox da durmayır.
Belke buna göre qaranquşlar da
Şeher éyvanında yuva qurmayır.

Şeherin altında başlı-başına
Torpaqlar uyuyur sirri itmeyir.
Daş yollar, sekiler düşüb başına
Çemeni bitmeyir, gülü bitmeyir!

Daş yollar üstünde yaşadıqca biz,
Ayaqlar daşlaşır, ürek daşlaşır.
Ölçülü-biçili oluruq temiz
Xeyal qanadlanır, dilek daşlaşır.
Kağız güller kimi her şéy ütülü

[49] "Arazdan Çox Yazan Bir Şaire" adlı şiir *Éşgim Menim Dar Ağacım*'da yine aynı adla yer almıştır.

37 Dostluğu <<vér-vérim>>, bazar örtülü…
38 Baxışlar ütülü, üzler ütülü…
39 Söhbetler ütülü, sözler ütülü…
40 Her şéy dübbedüzdü daş yollar kimi,
41 Sévgiler ütülü, gözler ütülü…

42 Şeherde ayağım deymir torpağa,
43 Örtübler üstünü demirle, daşla.
44 Ağaclar başını eymir torpağa
45 Bağışla, a kendim,
46 Meni bağışla…

118

01 **Yuxu Gétmir Gözüme**
02 Bir kölge gülümseyir
03 Seher-axşam üzüme,
04 Şé’rime, sözüme;
05 Yuxu gétmir gözüme…

06 Gözüm o tay, bu tayda,
07 Sözüm o tay, bu tayda…
08 Başım hayda-harayda…
09 Gözüm çaş olar, anam.
10 Dilim, sözüm-söhbetim
11 Ayaq-baş olar, anam…
12 É’tibarım qalmayıb
13 Qelbimdeki dözüme,
14 Yuxu gétmir gözüme…

119

Méşenin Nağılı

(Revayet)

Xéyli vaxt olardı ki,
Méşe padşahsız idi.
Bütün héyvanlar, quşlar,
Ağaclar başsız idi.

Şahlıq quşu uçurub
Şah séçmeli idiler.
Çox ölçmeli idiler,
Bir biçmeli idiler.

Axır şahlıq quşunu
Havaya buraxdılar.
Hesretle, heyecanla
Arxasınca baxdılar.
Quşcuğaz çox dolandı,
Döndü zaman, qerine.
Axır ki, boz ayının
Qondu çiyinlerine…

Filler, şirler, pelengler
Héç halını pozmadı.
Meğrur-meğrur dolandı,
Eyri-eyri gezmedi…

Tülküler yaltaqlandı,
Çaqqallar yaltaqlandı.
Dédiler ki, <<neslimiz
Ayılara qurbandı.
Bézmişdik bu şirlerin,
Pelenglerin elinden.
Gözümüz açılmırdı
Nehenglerin elinden.
Bu palıdlar, velesler
Günden doyub özleri.
İşığa, aydınlığa
Hesret qoyub bizleri…>>

Açıldı giléylerin,
Qéybetlerin ağızı.
Çox yazıb korladılar
Qalaq-qalaq qağızı.
Baxıb bu kağızlara
Ayı qan-qan éledi.
Edaletli olmağa
Çox and-aman éledi.

42 O gün canavar beyin
43 İti saldı izine.
44 Uzunqulaq éşşeyi
45 Vezir séçdi özüne.
46 Évinde dustaq étdi
47 Pelengleri, şirleri
48 Onlar anlamadılar
49 Bu qarışıq sirleri…

50 Ferman vérdi: <<méşede
51 Canlı, cansız ne ki var,
52 Bir boyda, bir buxunda,
53 Bir fikirde olsunlar.
54 Sonra iclas çağırdı,
55 Qezeblendi, bağırdı:
56 <<Niye develer, filler
57 Şişib dam boyda olur?
58 Palıdın kölgesinde
59 Kollar saralıb solur!
60 Pelengin ne'resinden
61 Marallar zağ-zağ esir!
62 Niye qurdun önünde
63 Qoyun sesini kesir?!

64 Qartalın adınamı
65 Yazılıbdı zirveler?
66 Daha gözünden geler!
67 Göylerden ayrılmayır,
68 Beyenmir bu torpağı.
69 O bizim hamımıza
70 Baxır üstden aşağı!
71 Niye elde-ayaqda
72 Sürünür bu serçeler?
73 Ne déyim? Neler… neler…
74 Hamının haqqı éyni,
75 İxtiyarı éynidir.
76 Hamı çılpaq doğulub
77 Pulu-varı éynidir.
78 Bu méşenin üstünde
79 Tufan tek esek gerek!
80 Qürrebaz nehenglerin
81 Köksünü kesek gerek!
82 Bundan sonra çetin ki
83 Bir de yamanlıq olar.
84 Qurd quzuyla otlayar,
85 Emin-amanlıq olar!..>>
86 Méşede bir qasırğa
87 Başladı birden-bire

88 Neheng-neheng ağaclar
89 Qışqırıb deydi yére.
90 Héyvanları, quşları,
91 Ağacları, daşları
92 Bir vahime bürüdü.
93 Qoyunlar canavarın
94 Üstüne şax yéridi…
95 Qanla doldu dereler.
96 Xoruzların sözüne
97 Söz qaytardı fereler…
98 Qartal éndi zirveden
99 Serçeyle qonşu oldu.
100 Méşede alaq çekmek
101 Péşesi, işi oldu.
102 Tülküler ayılara
103 Toxudular çelengler.
104 Éşşeklerin önünde
105 Mil dayandı pelengler.
106 Qurd quzuyla otladı,
107 Unuduldu qurd adı.
108 Kollar gül çiçek açdı,
109 Bu méşe düm-düz oldu.
110 İtdi qara kölgesi,
111 Gécesi gündüz oldu…

<<SESSİZ GÜLLELER>> SİLSİLESİNDEN

120

Béle Maskalanma

Béle maskalanma, adam oğlusan,
Ömrünü-gününü sovurma yéle.
İllerle min sifet olmağın asan,
Bir gün özün olmaq çetindi béle?

Gah uşaq olursan, gah da ki yazıq,
Éle boylanırsan izime menim.
Onsuz da dünyada çoxundan azıq
İyleme, eleme sözümü menim.

Bilirem hayana bağlanıb başın,
Satırsan, qéyretle sat, satanda da.
Vurma arxasından dostun, yoldaşın.
Kişisen, qarşıdan at, atanda da.

Qanın temiz déyil, bellidi adın,
Élimde-günümde derdsen, qadasan.
Düşüb arasına qohumun, yadın,
Eslini gizleden haramzadasan.

Papağın gözüyün üstüne énib,
Yéyib namusunu, atıb arını;
<<Veten>> kelmesinin dalına sinib,
Vurursan vetenin balalarını.

Qatır başımızı dumanın, çenin,
Hele bext getirir yüyrekdi atın.
Adın bizimkidi, işin özgenin,
Belke-nevesisen Sehl-sumbatın?!

Dayanıb arxanda <<dayı>>,<<emiler>>
Yüz dona girirsen bir menim üçün.
Sen tekce déyilsen, senin kimiler
Sessiz güllelerdi vetenim üçün…

Béle maskalanma, adam oğlusan,
Ömrünü-gününü sovurdun yéle.
İllerle min sifet olmağın asan;
Özünü yaxından tanımaq üçün
Birce gün özün ol sen innen béle.

Sene Néylemişem[50]

121

Sesssizce
Sessiz gülle kimi kéçdin sinemden,
Sessizce, sessizce oda yandım men…
Sessiz, xerçeng kimi düşdün canıma,
Sessiz, zeher kimi kéçdin qanıma…
Sessiz, yuxu kimi gözümü tuttun,
Sessizce-sessizce meni unutdun…
Sessizce, qar kimi saçıma yağdın,
Sessizce-sessizce sesimi boğdun…
İndi cınqırımı çıxarım néce?!
Qalmışam Arazdan, Kürden aralı,
Sinesi yaralı, ruhu yaralı…
Sessizce mehv étdin meni bélece…

122

Kin Dağarcığı
Bir qarış boyun var
Dam dolusu toyun var,
Mezen olsun kişi.
Yaşın kéçib,
Barı bundan sonra
Adam ol eşşi!
Yanından kéçende
<<Bissimillah>> déyirler;
Üzüne susurlar,
Arxanca söyürler…
Téz-téz çalırsan,
Gürzeden bétersen;
Zeherinden
Lezzetmi alırsan?
Bilirsenmi
Hamı sene <<çayan>> - déyir,
Yoxdur abrın-hayan - déyir.
Hardan almısan
Bu qeder kini,
acığı?
Xirddeyecen kinle
dolusan,
Kin dağarcığı…

[50] "Sene Néylemişem" adlı şiir *Éşgim Menim Dar Ağacım*'da "Deyme Könlüme" adıyla yayımlanmıştır.

123

01 **Sapand Daşı**

<<Yéne de yan kéçdi bu yaz yağışı>>

S. Rüstemxanlı

02 Yıx menim évimi, qardaş
03 qara daş.
04 Men senin üçün ağladım,
05 Bu günün,
06 sabahın,
07 dünenin üçün ağladım.
08 Sen qış günü
09 Sındırdın könlümün penceresini,
10 Qaldırdın dalğa-dalğa
11 Qıpqırmızı sesini.
12 Menden gözümü aldın,
13 Yüyrek dizimi aldın,
14 Keserli sözümü aldın…

15 Baş seninkidi,
16 Huş özgenin.
17 Ağız seninkidi,
18 Diş özgenin.
19 Ömür seninkidi,
20 Yaş özgenin.
21 Eller seninkidi,
22 İş özgenin.
23 Yarımçıqsan her şéyde.
24 Meni de sal öz gününe!
25 Deyiş başımı,
26 Deyiş huşumu,
27 Deyiş dişimi,
28 Deyiş yaşımı
29 Deyiş işimi!
30 Yétişib vaxt-ve'de,
31 Onsuz da her şéy deyişmede…
32 Birce reng gören
33 gözüm gözeldi!
34 Boğazdan çıxmayan
35 sözüm gözeldi!
36 Üstünde oturduğum
37 dizim gözeldi!
38 Bir ömürlük
39 dözüm gözeldi!
40 Bax, béle…
41 Yıx menim évimi, qardaş
42 qara daş!
43 Ne barıya hörülensen,
44 Ne év tikensen.

45 Ellerde sapanddaşısan,
46 Göz tökensen.
47 Onsuz da yan kéçir yaz yağışları.
48 Boş durma, yağ görek;
49 Senden sonra ne göyerecek…

124

01 **Yarımçıq**
02 Bir qarış boyu var, edasına bax.
03 Gédir, yéridiyi yola sığışmır.
04 Birce sesine bax, sedasına bax,
05 O sağa sığışmır, sola sığışmır.

06 Bir az tercümeçi, bir azca nasir,
07 Bir az tenqidçidi, hamısından kesir…
08 <<Yarımçıq>> söyleyir çoxuna, ne sirr?
09 Aza qané olmur bola, sığışmır.

10 Bir azca ayıqdı, bir azca kéydi,
11 Dünyada sévdiyi mezedi-méydi.
12 Özü öz içinde <<özündeşéydi>>
13 Başını kollayır, kola sığışmır.

14 Herden öz-özüne dolur boşalır,
15 Salam vérende de minnetle alır.
16 Markésden danışır, Şopénden çalır
17 Di gel ki, obaya-éle sığışmır.

18 Vetenden dem vurur düşende çemi,
19 Çalmır, döyecleyir héy <<sarı simi>>
20 Gezir budaq-budaq qarışqa kimi,
21 Deymişe sığışmır, kala sığışmır.

22 İddeası dağdı, imkanı fındıq,
23 Ağzını açanda metlebin qandıq.
24 Başı göyle gédir, daha usandıq
25 Yüyene sığışmır, çula sığışmır!

26 Külü ayaqlayır saymayır odu,
27 Çekisi belke de otuz kilodu.
28 Yarımçıqlığını anlayır, odu
29 Héy düşür o haldan-hala, sığışmır…

125

Mektub

Helim xasiyyetin, güler üzünle,
Qelbime yamanca yatmışdın, lele.
İnan, gözlerimde şirin sözünle,
Allahlıq heddine çatmışdın, lele.

Layla tek hopmuşdun iliye, qana
Yaxına, uzağa bire on idin.
Qohumluq bir yana, dostluq bir yana
Sanki insanlığa étalon idin.

Böyüdü vezifen, artdı imkanın,
<<Arzuya, isteye çatıb>>- dédiler.
Her meni görende qaraldı qanın,
<<Téléfonlar başını qatıb>>- dédiler.

Néçe yol zeng vurdum, özünü dandın,
Dédin: <<iclasdadı, déyin ki, yoxdu>>
Néçe yol söz vérdin, sözünü dandın,
Yalanlar üreye atılan oxdu.

İtirdin özünü, sapdın yolundan,
Baxdın qohumlara bir <<qemiş>> kimi.
Dördelli yapışdın öz stolundan,
Sehrada su tapan <<görmemiş>> kimi.

İlbeil böyüyüb qol-budaq atdın,
Yanına-yörene kölgen düşmedi.
Öteri qayğını minnete satdın,
Yaş ötdü saçına bir den düşmedi.

Yaman <<canhacan>>san zamanla, vaxtla,
Dostların yanında çıxar paxırın.
Sévinme ezelden açılan baxtla,
Evvelin gelince, gelsin axırın!

Bir deli madyandı vezife, imkan,
Bir gün de üstünden atacaq, lele.
Vefasız qadındı bu vaxt, bu zaman
Sévdiyi bucaqda yatacaq, lele!

Bir düşün haraya baş alır bu yol,
Ürekde vetensiz-ölkesiz olma.
Torpaq ol, ağac ol, demir ol, daş ol,
Kimese gerek ol, kölgesiz olma!

<<Aşıq Edaletin Neğmeleri>> Silsilesinden

126

Koroğlunun Son Günü

Ona béle bél bağlama,
Dünya namerd dünyasıdı.
Çox sızlama, çox ağlama,
Dünya namerd dünyasıdı.

Her işini ara, ele,
Quyruğunu vérme ele.
İnsan çiy süd emib, lele,
Dünya namerd dünyasıdı.

Namerd gör ki, çapar, talar,
İsteyini göyden alar.
Merdin quru adı qalar,
Dünya namerd dünyasıdı.

Acı sözle min derd éler,
Söker bağrını-yurd éler.
Qova-qova namerd éler,
Dünya namerd dünyasıdı.

Ezelki dövranım hanı,
Qılınc qınında paslanı.
Beyenmir tülkü aslanı,
Dünya namerd dünyasıdı…

127

Koroğlu Dübéyti

Bu duman çekiler géder,
Könül, sebr éyle, sebr éyle.
Bu qar-qış söküler géder,
Könül, sebr éyle, sebr éyle…

İten bulaqlar tapılar,
Sınıq könüller yapılar.
Açılar bir gün qapılar,
Könül, sebr éyle, sebr éyle…

Gül olma amana-aha,
Dan yéri ağarır daha.
Ümidle baxaq sabaha,
Könül, sebr éyle, sebr éyle…

Gül-çiçek xalı toxuyur,
Él-oba veten qoxuyur.
Şükür, Edalet oxuyur,
Könül, sebr éyle, sebr éyle…

Bu derde düşmen yarıyar,
Yaramı yadlar sarıyar,
Arpaçay, Araz quruyar,
Könül, sebr éyle, sebr éyle…

Ağrı Dağ ağrım-acımdı,
Savalan beyaz tacımdı.
Derde dözmek elacımdı
Könül, sebr éyle, sebr éyle…

Bu qem bu hesret ha yanar,
Dünya ateşe boyanar.
Yatanlar bir gün oyanar,
Könül, sebr éyle, sebr éyle…

Bu dünya, bu gerdiş nedi,
Gördüm ki, sonu héç nedi.
Bu xemir suya teşnedi,
Könül, sebr éyle, sebr éyle…

128

01 **Yordu Bu Şeher Meni**

02 Salam, xeyallara dalan şeherim,
03 Derdi-sévinciyle qalan şeherim!
04 Daha kendden gelir sesin-sorağın,
05 Kendi öz gününe salan şeherim.

06 Sévdi toy-büsat kimi,
07 Yapışdı heyat kimi.
08 Her seher saat kimi
09 Qurdu bu şeher meni.

10 Boyadı dan yérine,
11 Üyütdü den yérine.
12 Sonra küleklerine
13 Vérdi bu şeher meni.

14 Dözdüm yayı-qışına,
15 Mat qalmışam işine;
16 Axır ehlet daşına
17 Vurdu bu şeher meni.

18 Çalım yox, çeperim yox,
19 Malım yox, keherim yox,
20 Qelbimde teperim yox,
21 Yordu bu şeher meni.

Sévgim Mene Qenim Oldu[51]
Behmen Vetenoğluna

[51] "Sévgim Mene Qenim Oldu" ve "Behmen Vetenoğluna" adlı şiirler *Éşgim Menim Dar Ağacım*'da aynı başlıklarla yayımlanmıştır.

Menmi Günahkaram Senmi Günahkar[52]

<<Yazılmamış Mektublar>> Silsilesinden
129
Seni Düşünürem
Bu soyuq havada,
Damın altında
Seni düşünürem yéne men yazıq
İki qat oluram qemin altında
Xoş gün dileyirem sene men yazıq

Seni düşünürem,
Gören nécesen,
Hardasan,
Başına belke qar yağır?
Fikrimde, duyğumda gündüz-géce sen,
Seni düşünmek de ağırdır, ağır…

Bayırda fırlanır qar boğanağı,
Fırlanır-fırlanır içimden kéçir.
Bu heyat cığırı, bu doğanağı:
Gör hardan dolanır,
Gör kimden kéçir…

Bu soyuq havada,
Tenha otaqda,
Didib-parçalayır dörd divar meni,
Bir neğme dolanır yanar dodaqda:
<<Kim salıb itirer, kim tapar meni…>>

Sanki üreyimi dara çekibler,
Üreyim éşqimden asılı qalıb.
Bütün yollarımı gora çekibler,
Ümidler gümana qısılı qalıb…

Bu soyuq havada,
Damın altında,
Seni düşünürem yéne men yazıq.
İki qat oluram qemin altında,
Xoş gün dileyirem sene men yazıq…

[52] "Menmi Günahkaram Senmi Günahkar" adlı şiir, aynı başlıkla *Éşgim Menim Dar Ağacım*'da yayımlanmıştır.

Menden Uzaqdasan[53]

130

Ne Déyim

Ne déyim ürekde éşqe, ilhama,
Ne vaxtdı méylini salıb göylere.
Men qara torpağam, o mavi sema,
Ellerim uzalı qalıb göylere.

Menim mehebbetim göylere hesret,
Alışar yalvarar alov diliyle.
Menim mehebbetim göylere qismet,
Séviner, yükseler öz emeliyle…

Ay Ömrümün Seadeti[54]

131

Orda Üfüqlerin Rengi Bembeyaz

Orda üfüqlerin rengi bembeyaz
Orda xeyalımda bir işıq qalıb.
Orda menim üçün ilıqdır ayaz,
Orda fikirlerim dolaşıq qalıb.

Orda ulduzların géce hevesi,
Orda bir rengin min bir rengi var.
Orda çiçeklerin payız nefesi,
Orda tebietin öz ahengi var…

[53] "Menden Uzaqdasan" adlı şiir, aynı başlıkla *Éşgim Menim Dar Ağacım*'da yayımlanmıştır.
[54] "Ay Ömrümün Seadeti" adlı şiire bir kıta daha eklenmiştir. Bu hâliyle yayımlanmamış şiirleri arasına alınmıştır.

132

Payızda Açılan Çiçek

Başlayıbdı yarpaqların yağışı
Sen ne vaxtın qönçesisen, gülüsen?
Dumanlanıb üfüqlerin baxışı
Yoxsa könlün éşqe düşüb, delisen?

Harda idin kécikmisen dé, niye?
Quşlar köçür, ağarıbsan sazaqdan.
Bülbül üçün, neğme üçün bax göye,
Bu hesretle sévin, qemlen uzaqdan.

Sarı xeber yayılıbdı çöllere,
Son baharın saçlarına den düşüb.
Qara sükut qanad gerib göllere
Bulaqların gözlerine çen düşüb.

Dağ uyuyur, lele köçüb yurd qalıb…
Kim duyacaq, qönçe-qönçe alış, yan.
Yurd yérini hesret alıb, derd alıb,
Belke éle bu hesretden çıxmısan!

Belke ömrün payızında tebiet
Gül-çiçekle qarşılayır boranı?
Qem éleme bizde de var bu adet
Hele yoxdu soruşanı-soranı…

Ne günah var indi sende, ezizim,
Hesretimi yaman saldın yadıma.
Men de tekem, bu çemende ezizim,
Qovruluram öz közüme, oduma
Hesretimi yaman saldın yadıma.

01 **<<DOSTUMUN AĞRILARI>> SİLSİLESİNDEN**

Men Seni Tezeden Séve Bilmerem[55]

133
02 **Seni Bağışlamaram**
03 Bağım baharım sola
04 Seni bağışlamaram.
05 İki dünya bir ola,
06 Seni bağışlamaram.

07 Yétişe qada-bela,
08 Ezrayıl canım ala.
09 Elacım sene qala,
10 Seni bağışlamaram.

11 Yolumda ah édesen,
12 Éşqimi şah édesen.
13 Meni Allah édesen,
14 Seni bağışlamaram.

[55] "Men Seni Tezeden Séve Bilmerem" adlı şiir *Éşgim Menim Dar Ağacım*'da aynı başlıkla yayımlanmıştır.

POÉMALAR

Kölgeler[56]

134

Ömrün Serhedleri

I

Men dünyaya gelende
Déyirler ağlamışam.
Dostları sévindirib
Düşmeni dağlamışam,
İsti ana qucağı
O vaxt béşiyim olub,
Bu yér, bu göy, bu alem
Évim-éşiyim olub.
Hamını incitmişem
Menden incimeyibler,
Başımı sığallayıb
Éle ezizleyibler
Mene nağıl déyibler.

Dolanıb aylar, iller
Deyişibdi fesiller…
Ağlım kesen gün imiş,
Qarğı atı seyirdib
Dağda-bağda oynamaq
Mene toy-düyün imiş.
Bir gün néce olubsa
Üstüme tepinibler,
Şıltaqlıq éyleyende
İnadımı yénibler.
Xortdanla, canavarla
Qorxudublar susmuşam.
Mene her şéy yuxuymuş
Sanki yuxudaymışam.
Atamın sert baxışı,
Be'zen hede qorxusu
Bildiribdir heddimi.
Ömrümde ilk defe
Gösterib serheddimi:
<<Béle otur, béle dur
Béle dayanmaq olmaz!
Téz duran xéyir tapar,
Béle oyanmaq olmaz!
Tanı dostu, düşmeni
Qarı düşmen dost olmaz!
Pisdir, yéne senindir,

[56] "Kölgeler" poéması *Éşgim Menim Dar Ağacım*'da da yayımlanmıştır.

Kök-kömence qesd olmaz!
Yériyende şax yéri,
Qabağına bax yéri.
Atan gap éyleyende
Qulaq as ses éyleme.
Böyük dédi qanundur,
Öceşib behs éyleme!
Qonşunun toyuğuna
Daş atmaq olmaz, bala.
Buynuzlu qoçun héyfi
Buynuzsuz qoçda qalmaz,
Qalmaz ki, qalmaz, bala!>>
Atamın nesiheti
Gösterdi öz heddimi,
Gösterdi serheddimi…

Bildim ses serheddi var,
Bildim behs serheddi var,
Bildim qonşu serheddi,
Bildim kend serheddi var.
Bu yér otaraq déyil
Bildim hend serheddi var.
Bildim söz serheddi var,
Duydum bu ömrün-günün
Hele yüz serheddi var.
Hele balaca iken
Bu serhedler önünde
Omaşıyıb qalmazdım.
Beyenmediyim söze
Qulaq assam da béle
Onda héç el çalmazdım.

Yériş serhedlerini,
Duruş serhedlerini,
Sesin serhedlerini,
Behsin serhedlerini,
Sözün serhedlerini,
Gözün serhedlerini,
Téz-téz pozar-aşardım;
Bax bélece yaşardım.

Dolandı aylar, iller
Kéçdi günler, fesiller.
Çatdım mekteb yaşına,
Atam hele saz idi.
Den düşse de başına
Qüsse-keder az idi.
Heyat bir çay kimiydi,

86 Séllenirdi axırdı.
87 Gündoğandan çıxan gün
88 Günbatanda yaxırdı…

89 Sévindim öyrendikce
90 Oxumağı, yazmağı
91 Öyrendim yavaş-yavaş
92 Yozulmağı, yozmağı.
93 Bir sözün néce cüre
94 Yazılmağı var imiş,
95 Bir sesin néçe yére
96 Yozulmağı var imiş…
97 <<Bu sözü béle yazma,
98 <<O>>nu <<a>> kimi oxu
99 Oxu, öyren, inleyen
100 Bir sarı simi oxu.
101 Kolxozu <<kalxoz>> oxu
102 <<Komsomolu>> <<kamsamol>>
103 Düşün bir ömrü-günü
104 Hara aparır bu yol!>>
105 Müellim danışardı
106 Neler, neler… éh neler…
107 Be’zen de dolaşardı
108 Qaranlıqla kölgeler…

109 Yavaş-yavaş anladım
110 Yaxşı nedir, pis nedir?
111 Yavaş-yavaş anladım
112 Tamah ne, nefs nedir?
113 Qonşu ne, qohum nedir,
114 Ögéy ne, doğma nedir
115 Vexşiş ne, yağma nedir?

116 Üstüme qoşun-qoşun,
117 Üstüme qatar-qatar
118 Yürüş étdi suallar,
119 Müellim sualım var;
120 Ay ata sualım var;
121 Ay emi sualım var;

122 Güneş niye qırmızı,
123 Torpaq niye qaradı?
124 Doğulduğum bu yurdun
125 Adı nedir, haradır?
126 Ulu babam kim olub?
127 Niye sévincden evvel
128 Bize mehrem qem olub?
129 Niye, başa düşürem

Özbeklerin dilini,
Qazaxların sözünü?
Radioda dinlemişem,
Görmemişem üzünü…

Déyirler ki, Erebler
Bize <<Türkman>> déyir.
Türkler <<Oğuz>> çağırır,
Farslarsa <<İran>> déyir.
Men hansına inanım?
Qulağımın dibinde
Nenem <Musurman>> déyir.

Kime üz çévirdimse
<<Ne>>ler, <<kim>>ler, <<nedir>>ler,
Bu her şé'r qadirler
Önünde diz çökdüler.
Çox ekdiler, biçdiler,
Çox biçdiler, ekdiler…
Çox sualın üstünden
Bir sükutla kéçdiler…

Aman, sükut ne sükut…
Qulaq batıran sükut…
Şirin laylaya dönüb,
Ruhu yatıran sükut…
Barmaq qıcayan sükut…
Acize qeh-qeh çekib
Be'zen acıyan sükut…

Sonra öyüd, nesihet
Sonra yéne meşveret:
Her şéyin bir heddi var,
Bir heddi, serheddi var.
Burnun girmeyen yére
Başını soxma, bala.
Kiri kişi ağlamaz,
Gözünü sıxma, bala!
Hele uşaqsan, uşaq,
Amandı étme, bala!
Tufandı, burulğandı,
Derine gétme, bala!
Otur, dersini oxu,
Senin suallarına
Cavab vérmişem, axı.
Déyirsen ki, <<kimik biz>>
Bu torpağın oğluyuq.
Biz kimik? -Biz insanıq

Éle-güne bağlıyıq.

Hele o yaşın déyil
Oxuma her kitabı.
Hésab kara gelende,
Yaxşı öyren hésabı…
Böyüklerin yanında
Axı bir heddini bil.
Éle sual vérirsen
Sözün serheddini bil.
Her şéyi soruşmazlar,
Her işe qarışmazlar.
Her yana boylanmazlar,
Adam onda çaş olar.
Her işe el aparsan
Ayaq dönüb baş olar.
Kim ne déyir qoy désin,
Derya kimi bulanma.
Ereb kimdi, fars kimdi,
Onlar dédiyi sözün
Çox başına dolanma.
Biz insanıq vessalam,
Sévirik insanları,
Héyvanları, quşları,
Ağacları, daşları.
Bu göy, bu yér bizimdi,
Év bizim, sirr bizimdi…

Müellimim, atam, emim
Sıyırmışdı qılıncı,
Başımın altındaydı
İndi sükut balıncı.
Üreyimden kéçenler
Donurdu dodağımda,
Atamın ters şillesi
Yanırdı yanağımda…

Qarşımda qalaq-qalaq
Kitablar açıldıqca;
Menim kiçik dünyamın
Serheddi çoxaldıqca,
Serheddi kiçildikce;
İlk defe arzu duydum
Üreyimin başında.
İlk defe ümid duydum
Beli mekteb yaşında.
İçimde arzu, ümid
Göyermeye başladı.

Bes, kim idi, arzumun
Kölgesini daşladı?

İlk defe arzu duydum
Üreyimin başında.
İlk defe ümid duydum
Beli on béş yaşımda.
On béş yaşım var idi,
Yay, payız, qış menimçün
Éle ilk bahar idi…

Vurulduğum gözele
Bir gün toy éylediler,
Menimse üreyimde
Sanki vay éylediler.
İlk éşqim daşa deydi,
Bildim, yaşım çatmadı.
Arxasınca daş atdım
Ona daşım çatmadı…

Ayıra bilmeyirdim
Bir vaxt qaranı ağdan,
Bostanı bağça-bağdan.
O rengler, o boyalar
Yéne séçilmez oldu.
Ömrümün serhedleri
Yaman kéçilmez oldu…

Bildim él serheddi var,
Bildim oxu serheddi,
Doğma dil serheddi var.
Bildim torpaq serheddi,
Bildim çöl serheddi var.
Bildim yol serheddi var.
Yolun sağ serheddi var,
Yolun sol serheddi var,
Bildim sévgi serheddi,
Bildim yaş serheddi var.
Anladım ki, üreyin
Hele daş serheddi var…
Bu serhedler önünde
Arzum qol-budaq atdı.
Menim yaşıl ümidim,
Menim yaşıl inamım
Axır meni yaratdı…

135

II

Birinci Monoloq

İl néce dolandı ay néce kéçdi,
Başımda dolanan fikirmi, çenmi?
Bahar néce geldi yay néce kéçdi,
Yoxsa men dünyadan xebersizemmi?

Éle kövrelmişem, éle dolmuşam,
Fikrim peren-peren, xeyalım çaşıb.
Éle bil göylerde dolanan quşam,
Dünya gözlerimde balacalaşıb.

Öten günlerimi varaqlayıram,
Haradan başlayıb axan çayam men.
Ömrümün yazını soraqlayıram
Héyif o illerden uzaqdayam men.

Kéçib ömrüm-günüm, seksen yaşım var,
Gözlerim korşalıb, dizlerim esir.
Hele görülesi milyon işim var,
Néynim, bu serhedler éyledi esir…

Gör dünen kim idim, gör bu gün kimem,
Basılmış, talanmış ölke kimiyem.
İndi hem xesteyem, hem de hekimem,
Sahibsiz dolaşan kölge kimiyem.

Şükür éyleyirem bu ana, şükür,
Hele yériyirem bax, asta-asta!
Şükür éyleyirem bu güne, şükür,
Sabah yaş gelecek yaşımın üste!

Şükür éyleyirem, bu güne şükür!
Sabah bir arzudu, sabah gümandı.
Şükür éyleyirem, gözlerim görür,
Sabah göreceyem her yan dumandı…

Hemişe sabaha can atmışam men,
Sabahda görmüşem seadetimi.
Bu günde duymayıb, axtarmamışam,
Menim gözü yaşlı heqiqetimi.

136

****

01 Böyüdüm, böyüdükce
02 Aralandım özümden.
03 Vuruldum topuğumdan,
04 Yaralandım sözümden.
05 Böyüdüm, ağac kimi,
06 Aralandım kökümden.
07 Yüküm-ağlım, qéyretim,
08 Zehlem gétdi yükümden.
09 Hansı siyahıdasa
10 Birinci gétdi adım.
11 Özgelere uyuşub
12 Özgelere oxşadım,
13 Özümü beyenmedim
14 Özgelere vuruldum.
15 Axır seksen yaşımda
16 Temizlendim, duruldum.
17 Ayıldım seksenimde,
18 Men néyleye bilerem
19 Axı qoca sinimde?!
20 Niye?
21 Dayan, telesme,
22 Söylerem niyesini.
23 Deyişse bu havalar,
24 İt tutar yiyesini…

137

****

01 Telebelik illeri
02 Bir özge alem idi.
03 Yémek-içmek, pal-paltar,
04 Pul, vaxt, beli ne ki var
05 Her şéy, her şéy kem idi…
06 Üreyimiz tox idi.
07 Açılan sabahlardan
08 Xeberimiz yox idi.

09 Düşünürdüm qurtardı.
10 Müellim tenesi de,
11 Atamın hedesi de,
12 Qoruqçunun sesi de
13 Kendin efsanesi de…

14 Daha uşaq déyilem
15 Ki mene tepineler,
16 İnadımı yéneler…
17 Ağılım var, başım var,
18 Dostum var, yoldaşım var.
19 Daha qurtardı seddler,
20 O heddler o, serhedler…

21 Hele qarşıda idi
22 Xoş ümidler, gümanlar
23 Hele qarşıda idi
24 Qıpqırmızı sabahlar
25 Gözişlemez dumanlar…

26 Adını gücle yazan
27 <<<Dörd>>, <<Béş>> ala bilermiş!
28 Telebenin dalınca
29 <<Çayka>> gele bilermiş!..
30 Müellim telebeye
31 Yaltaqlana bilermiş.
32 İnsan da ayaqüste
33 Dirigözlü ölermiş.
34 Pulla ad almaq varmış,
35 Sözden od almaq varmış…

36 Od-dédim oda düşdüm,
37 Dostlar oduma düşdü.
38 Telebelik illeri…
39 Xatireler dil açdı
40 Neler yadıma düşdü:
41 - <<Od alıb alışmasan

42 Tüstün seni yéyecek.
43 Vücudunu paltar tek
44 Öz eynine géyecek.
45 Yaşayacaqsan béle,
46 İçin tüstüyle dolu,
47 Başın hay-küyle dolu…
48 Tüstün başından çıxıb
49 Saçlarına çökecek.
50 Varlığını sürüyüb
51 Şumlayacaq, ekecek.>>

52 <<- Alışmaq asan déyil
53 Alışmaq olmur, qardaş.
54 Ağıl kesen her şéyi
55 Soruşmaq olmur, qardaş.
56 Vaxt olur, öz işine
57 Qarışmaq olmur, qardaş.
58 Deyişen havalarla
59 Yarışmaq olmur, qardaş….
60 Her an baxtla, yığvalla
61 Barışmaq olmur, qardaş>>.

62 <<Od alıb alışanlar
63 Kéçir serhedlerini,
64 Yarır öz heddlerini.
65 Yanır, éli-obası
66 İstisine qızınır,
67 İşığına boyanır.
68 Arzuları göyerir,
69 İstekleri oyanır.>>

70 <<- Bir parça çöreyim var
71 Alışsam söndürerler.
72 Çörekden néce kéçim?
73 Bir nasaz üreyim var.
74 Cehennem olsun her şéy!
75 Ürekden néce kéçim?>>

76 <<-Bilmek olmaz dünyanı
77 Ne vaxtsa işim düşer;
78 İşimden néce kéçim?
79 <<Dişlerem çiy loxmanı
80 Yérine dişim düşer>>
81 Dişimden néce kéçim.>>

82 <<- Maşınım var pulum var,
83 Düz, rahatca yolum var,

Pulumdan néce kéçim?
Alışmağın sonunda
Kül olmaq var, ölüm var,
Ömürden néce kéçim?>>

<<- Men yada uyuşmaram
Gülüm var, bülbülüm var,
Şirin-şeker dilim var.
Dilimden néce kéçim?
Élimdi-vetenimdi.
Pisdi, yéne menimdi.
Élimden néce kéçim?!>>

Dostları dinledikce
Fikir apardı meni.
Alıb qanadlarına
Yérden qopardı meni.

İki göz, iki qulaq,
İki el, iki ayaq,
Bir ürek, bir baş, min iş…
Ürekde derdler éyni,
Milyon serhedler éyni…
İlahi! Qohum imiş
İnsanlar derdlerile
Ömrün serhedlerile…

Yéne oddan söz açdım
Canım oduma düşdü.
Qanadlandı xeyalım
Neler yadıma düşdü…

138

Yaddaş Varaqlanır

Birinci Lövhe

Axşam sabah söz oldu
Onların arasında
Melhem birce <<döz>> oldu
Bu derdin çarasında
<<Döz>> dédi qız atası:
<<Dözsen olmaz xatası
Évin yox, éşiyin yox,
Derdin çox, azarın çox…

Seni hara aparım,
Burda <<ustalıq>> gerek!
<<Köpöğlu>> qoy év alsın
Sonra baxarıq, görek
Onda néce olacaq.
Dalınca sürünecek,
Saralacaq, solacaq.
Qablarını yuyacaq.
Döşemeni silecek,
Atası, anası da
Ayağına gelecek.
Onda bütün öybaşı
Qedrini bilecek!
Döz, qızım, döz, amandı,
Axmağın başı qandı.
Hele <<pişim-pişim>>- dé.
<<Sévgilim>>- dé, <<kişim>>- dé.
Éle ki <<ordér>> aldı
Başında qoz qırarsan.
Üstüne bağırarsan.
O yan bu yan élese
Haray heşir qoparıb
Kömeye çağırarsan.
Sonrası da bellidi.
Hamı onu qınayıb
Déyecekler <<delidi…>>
Men déyenle gétsen, o
Yaman güne qalacaq.
Ya redd olub gédecek,
Ya da qulun olacaq…
Besdi, üç uşağın var,
Év olsun, er tapılar.
Atalar yaxşı déyib:
<<Pul olsun, yér tapılar>>.

Oğlanla rastlaşanda

Dédi <<- Eye, bura bax,
Bu köhneliyi burax!
Bilmirem bu ne sirdi,
İyirminci esirdi;
Bu günedek qanmırsan
Kişiler qadınlara
Daim esir-yésirdi.
Dünyanın işlerine
Özge-yad déyilsen ki!
Rayonun katibinden
Böyük-zad déyilsen ki.
Camaat arasında
Başı buluda deyir.
Ancaq ki arvadının
Qarşısında baş eyir.
O yan, bu yan élese
Vezife elden çıxar.
Arvad açar sirrini.
Onun évini yıxar.
Vezife
Qarşısında
Durur bir çeper kimi
Odur ki buyruğunu
Éşidir şeker kimi…

Bu böyük ölkemizde
Kişiden çox qadın var.
Aya uçan-qadınlar,
Göye uçan-qadınlar,
Zemi biçen-qadınlar,
Yollar çeken-qadınlar,
Évler tiken-qadınlar,
Torpaq eken-qadınlar,
Pambıq yığan-qadınlar,
Uşaq doğan-qadınlar…
Bir gözel mahnı da var:
<<Qoy hemişe güneş olsun,
Qoy hemişe anam olsun,
Qoy hemişe men olum>>.
Bir bura bax, men ölüm
Ata yada düşmeyir.
Bizim cavanlar ise
Örgeşmir, yétişmeyir.
Patriarxat zamanı
Çoxdan ötüb kéçibdi.
Qerbde, şimalda hamı
Qadınları
Évde <<böyük>> séçibdi.

93 Bizlerdese hele de
94 Oğlum olsun déyirik.
95 Qız olanda küsürük,
96 Ağzımızı eyirik.

97 O qızı hirslendirme
98 Ne dése, bax sözüne.
99 Küsende gét qılıqla
100 Soyuq su sep gözüne…>>

101 Tanıyırdı qızını
102 Elinin içi kimi.
103 Anlayırdı suçunu
104 Zamanın suçu kimi.
105 Ancaq ki, övlad hissi,
106 Var éşqi, dövlet hissi,
107 Serhedd idi önünde.
108 Çox serhedler görmüşdü
109 O ömründe-gününde.
110 Hamısından kéçmişdi,
111 Bundan kéçe bilmedi.
112 Üreyinde ağladı
113 Gözlerini silmedi.
114 Qéyretinden kéçdi o,
115 Adetinden kéçdi o,
116 İsmetinden kéçdi o…
117 Hiyleni şerab kimi
118 Birnefese içdi o…

119 Ara bir az sengidi,
120 Dédi-qodu lengidi…
121 Bir gün teze menzile
122 Şad-xürrem köçseler de,
123 Öten sözün-söhbetin
124 Üstünden kéçseler de,
125 Yéne de aralıqda
126 Köhne qazan qaynadı.
127 Atası çaldığına
128 Gelin yaman oynadı.
129 Milis işe qarışdı…
130 Qaraldı yanan ocaq,
131 Onlar yéne barışdı…

132 Tézlikle genc atanın
133 Saçlarına qar yağdı.
134 Giléylendi köksünden,
135 Üreyine qor yağdı…
136 Évini-uşağını

137 Atıb géde bilmedi.
138 Dostların arasında
139 Danışmadı, gülmedi…
140 Üç bala, üç qala tek
141 Kesdi onun önünü.
142 Göy esgiye düyledi
143 Ömrünü-gününü…
144 Namusundan-arından,
145 Dövletinden varından,
146 Ağrıyan üreyinden,
147 Şirince çöreyinden,
148 Birdefelik kéçdi o.
149 Üstünden su içdi o.
150 O gül üzlü balalar
151 Qarşıda bir sedd oldu.
152 Kéçilmez serhedd oldu.

139

İkinci Lövhe

-Alo, salam, ay adaş,
Kéfler-ehvallar, qardaş!
-Siz yaxşı olun, biz de
Dolanaq kölgenizde.
Qardaş, sabah gel bize,
Qonaq ol bendenize!
-İçmeye ne olacaq
Zoğal arağın varmı?
-Hele xengel de olar,
Ona marağın varmı!
-Yaxşı.
Oldu, dé sağ ol.
-Dost-tanışın yanında
Hemişe üzü ağ ol.
Desteyi yére qoyub
Qaşlarını çatdı o.
Dişlerini qıcayıb
Qem qüsseye batdı o.
Yumruğunu stola
Döyecleyib:
-Ay alçax,
Ora menim yérimdi,
Bir mene bax, ona bax!
Mene müdürlük édir
Menden néçe yaş kiçik.
Hüre-hüre it olub
Dünenki qotur küçük.
Fikirler aleminde
Ruhu alışdı yandı.
Ürekden gelenleri
Üze déye bilmedi;
Bir anlığa dayandı.
Üreyinden kéçdi o,
Çöreyinden kéçdi o,
Şerabından kéçdi o,
Ezabından kéçdi o…
Gözü alacalandı,
Héç ne séçe bilmedi.
Balaca stolundan
Feqet, kéçe bilmedi.
Birden döze bilmeyib
Hönkür-hönkür ağladı,
Ümidini yéne de
Sabahlara bağladı.

140

Üçüncü Lövhe
Bir çırağın altında,
Bir stolun başında;
Üç qız söhbet édirdi,
Ömrün bahar yaşında.
Biri aspirant idi,
İkisise telebe.
Dumanlar içindeydi
Arzu, ümid, qelebe.
Dinleyirdi kiçikler
Danışırdı böyük qız,
Dünyadan halı idi,
Yaşı olardı otuz.
Mütenasib bedeni,
Qara gözleri vardı.
İlantek ağıllıydı,
Şirin sözleri vardı.
Mehebbeti sarıdan
Bexti getirmemişdi,
Özü dédiyi kimi
Çox şéy itirmemişdi.
<<- Sizin ne yaşınız var…
Qabaqdadı ömür-gün
Qadının etrafında
Serhedler düyün-düyün.
Gözüne min göz baxır,
İzine min göz baxır.
Gülsen <<çox güleyendi>>.
Sussan <<qaraqabaqdı>>.
Baxsan <<meni beyendi!>>
Dinsen <<dilden qocaqdı>>.
Ere gédene kimi
Umub-küsen çox olur.
Bircе süzgün baxışın
Çoxlarına ox olur.
Éle ki, ere gétdin
Bu nezerler yoxalır.
Dövrendeki serhedler
Möhkemlenir, çoxalır:
Her üze baxmaq nedi?!
Tek yola çıxmaq nedi?!
Axşama qalmaq nedi?!
Anıb kéçen günleri
Xeyala dalmaq nedi?!
Év derdi, yémek derdi,
Kimseden kömek derdi,
Uşaq doğ, uşaq böyüt,

48 Erine qulluq éle.
49 Qayğılar içinde it,
50 Yaşa bu sayaq-béle.

51 Ürek isteyen kimi
52 El-qol açmaq olmayır.
53 Bu deli serhedleri
54 O vaxt kéçmek olmayır.
55 Bir adamın üzüne
56 Ne qeder baxmaq olar?
57 Su olub éyni semte
58 Ne qeder axmaq olar?

59 Bu serhedler içinde
60 Men dayana bilmedim.
61 Bu vaxtla bu zamanla
62 Axır alvér éledim:
63 Er-aile adlanan
64 Baxtı-qismeti vérdim.
65 Kéçdim gözelliyimden
66 Heya-ismeti vérdim.
67 Evezinde hemin gün
68 Yardım bu serhedleri,
69 Qırdım bu serhedleri!
70 Kéçdim er serheddini,
71 Kéçdim yér serheddini,
72 Kéçdim vaxt serheddini,
73 Qismet, baxt serheddini!
74 İndi azad bir quşam
75 Min budağa qonmuşam
76 Bilirem dünya nedir,
77 Nağıldır, efsanedir>>.

141

İkinci Monoloq

Baş aldım göylerin yéddi qatına
Yérde bütövlüyü men qehet gördüm.
Baxdım küremizin bu heyatına
Sinesi çal-çarpaz min serhed gördüm.

Bölünüb torpaqlar, sular, méşeler
Obalar bölünüb, éller bölünüb.
Her şéy parça-parça bölünüb neler:
Lehceler bölünüb, diller bölünüb.

Sual çeten-çeten, yol çeten-çeten,
Bacar bu sirrleri agah ét, ayır:
O yanda vetendi, bu yanda veten,
Vetende vetene gétmek olmayır.

Néçe reng deyişir yanaqda, üzde
Serhedler içinde kéçir ömür-gün.
Ne qeder serhed var üreyimizde,
Duyğu düyün-düyün, ruh düyün-düyün…

Bu günle sabahın serheddi géce,
Dünyada ne varsa bölüm-bölümdü.
Tebiet işini görür gizlice,
Bir üzü heyatdı, bir üz ölümdü.

Olsaydı insanın ömrü serhedsiz
Yeqin qanadları çıxa bilerdi.
Qalxıb arzuların yéddi qatına
Özü öz qelbine baxa bilerdi.
Uçardı göylere öz qanadıyla,
Çatardı tanrıya bu inadıyla.

Serhedler deniz olur
Artıb ümmana dönür.
Evvel heqiqet olur
Sonra gümana dönür.
Bürüyür yolu izi
Çene-dumana dönür.

İnsanın ömrü-günü
Bu ümmanda bir ada
Béle-béle işler var
Béle, oğul, dünyada…

BİR GÜN GELER

01 BİRİNCİ BÖLÜM: SÖKÜLER DAN YÉRİ

Od Göyler Oğludur[57]

142

02 **Dağ Çayı**
03 Yazda köpüklendi héy çiçek-çiçek,
04 Emib bulaqları çağladı-daşdı.
05 Güvendi gücüne
06 Şıltaq uşaq tek
07 Qayadan sallandı, dağla tutaşdı.

08 Sesledi gén dere qoynuna onu,
09 Sévincle, ferehle axdı, héy axdı.
10 Feqet düşünmedi, bilmedi bunu,
11 Derede susacaq, çağlayacaqdı?

12 Lal oldu derede, hayqıran sular,
13 Üstünü çen-duman aldı, dinmedi.
14 Qayanı qopartdı, daşı qopartdı,
15 Saldı öz başına, saldı, dinmedi.

16 Zirvede bilmedi dar ne, çetin ne,
17 Derdini dağ ile böldü dağ çayı.
18 Göl oldu… Dözmedi dağ hesretine,
19 Dağın ayağında oldu dağ çayı.

[57] "Od Göyler Oğludur" adlı şiir *Éşgim Menim Dar Ağacım*'da "Belke" başlığıyla yayımlanmıştır.

143

Bir Gün Geler

İnsan emeliyle cahan kimidir,
Düzlerde baharıq, dağda qarıq biz.
Heyat fırtınalı ümman kimidir,
Üzen efsanevi adalarıq biz.

Fikirler yaşayır sakinler kimi,
Fesiller gizlenib yaddaşımızda.
Çox da öyünmeyin, bütün alemi
Fikirler axıdar göz yaşımızda.

Ürek yox, dünyadır köksümüzdeki,
Her baxış bir ümid, bir ulduz işıq.
Hardasa uyuyan adalar teki
Hele çoxlarımız tapılmamışıq.

Déyirler serin su olar derinde,
Ne vaxtsa, hardansa séllener, axar.
Söküler dan yéri bebeklerimde,
Ordan şé'rlerim boylanar, baxar.

Biz hele arzuyuq, hele ümidik,
Soyuq baxışlardan donar, yanarıq.
Belke sözümüzü déye bilmirik,
Gün geler hardasa arzulanarıq.

144

01 **Zirve**
02 Dağlar, ayrı düşdüm sizden néçe il
03 Arzum ayrılığa kesildi qenim.
04 Zirvede qıy vuran qartal éle bil
05 Qartal xeyalımı ovladı menim.

06 Size küsenirem, qartallar, ne qem,
07 Ümid çiçek-çiçek
08 Yérem, göyem men.
09 Xalqımın qelbine yol tapa bilsem
10 Sanaram en uca zirvedeyem men.

11 Yox-yox, incimesin Himalay, Qoşqar,
12 Meni qınamasın ne dağ, ne dere.
13 İnsan qelbi kimi uca zirve var,
14 Ordan baxmaq olar qerinelere!

15 Zirve - ebediyyet, zefer, son nida
16 Zirve emelimde, arzularımda…
17 Güneşin oduna yaxın olsa da
18 Orda ebedidir ömrü qarın da…

Daş Méşe[58]

[58] "Daş Méşe" adlı şiir *Éşgim Menim Dar Ağacım*'da aynı adla yayımlanmıştır.

145

Menim Üreyimi, Özüme Vérin

Dolanıb hefteler, dolanıb iller,
Hardansan éle bil aralanmışam.
Deyişib büsbütün meni fesiller,
Min aya, min güne paralanmışam.
Ömrün o tayında qalıb uşaqlıq,
Kimse üreyine yazıb adımı,
Daha çinarlardan qaralanmışam.
Bir deli hesretle, aman, a dostlar,
Könlümden, gözümden yaralanmışam,
Menim üreyimi özüme vérin!

Mene layla çalıb deli külekler,
Fikrimde éllerin bextiyarlığı,
Gözümde arzular güler, çiçekler,
Sıxmır varlığımı méydan darlığı;
Yoluma, izime min göz ağarıb,
Déme ki, ilhamın odu sengiyir.
İzime iz düşüb, bağrımı yarıb
Nedir köksümdeki béle tengiyir?!
Uçmaq isteyirem üzü küleye,
Menim üreyimi özüme vérin!

Dünya başdan-başa toydu-mağardı,
Gözümde <<laleler bayrağa dönüb>>.
Menim vetenimde solmaz bahardı,
Hesretin, möhnetin ocağı sönüb…
Gözümün nuruna duman qarışıb,
Gördüyüm yuxunu yoza bilmirem.
Başım yaşamağa yaman qarışıb,
İndi yaşamaqdan doymayır gözüm.
Yurduma bir neğme yaza bilmirem,
Men béle déyildim, béle déyildim,
Menim üreyimi özüme vérin.

146

Géceler
Şirin bir xeyal kimi,
Yuxuları bal kimi
Géceler...
Düşünürem, qelbinde
Gizli sévgisimi var?
Ulduzlarla bezenib
Seheri qarşılayar.
Utancaq oğlan kimi
Üreyinde héy yanar.
Seherin nur şefeqli
Gözlerinden utanar...
Üreyinde ağlayar.
Üreyinde kiriyer,
Xeyal kimi eriyer,
Géceler...

Fesillerin, illerin
Ağır, qara günlerin
Belke qara sapıdır?
Bu gün ile sabahın
Arasında qapıdır
Géceler...

147

Üzüm Gülmür Déme Mene
Üzüm gülmür déme mene
Gülemmerem, gülemmerem.
Deryada neyim qalıbdır,
Bilemmerem, bilemmerem.

Düz yollarım tepe, dere,
Yıxılmışam néçe kere.
Arzum yélken açan yére
Gelemmerem, gelemmerem.

Yollar meni çapıb, soyub
Boylanmaqdan gözüm doyub...
Béle derdi-seri qoyub
Ölemmerem, ölemmerem.

Anamı Düşünerken[59]
Gel, Ay Bahar

[59] "Anamı Düşünerken" ve "Gel, Ay Bahar" adlı şiirler *Éşgim Menim Dar Ağacım*'da aynı adlarla yayımlanmışlardır.

148

Zirveye Çekdiler Kor Yapalağı
Zirveye çekdiler kor yapalağı
Qartalla yanaşı dayansın déye.
Gözleri qaraldı, deyişdi halı,
Yapalaq daş kimi düşdü dereye,
Çoxları günahkar saydı qartalı.

Dağdan Bir Qaya Düşdü[60]

149

Belke
Déyirler aşiqdir yér ile güneş,
Güneş mehebbetden alışıb yanır.
Belke buna göre yér pervane tek
Güneşin başına dönür, dolanır.

Dağlara baxıram, qarlı dağlara,
Düzenler dağların eteyidirmi?
Buludlar
Güneşin torpağa o vaxt
Nişançün aldığı örpeyidirmi?

Torpağa her zaman ana démişik,
Ana bizim üçün ezizdir, eziz.
Belke atamızdır o böyük güneş
Bu iki aşiqin övladıyıq biz?

150

Sabah
Qırmızı bir seher gelecek sabah,
Güneş ovcumuzda oyanacaqdır.
Qırmızı bir xeber gelecek sabah,
Dünya qırmızıya boyanacaqdır.

Qırmızı géceler olacaq sabah,
Qırmızı yuxular göreceyik biz.
Éh, neler olacaq…
Öz-özümüze,
Haçansa imtahan véreceyik biz…

Son günü olacaq ahın, amanın,
Arzunun, ümidin yolları ağdı,
Ağ üzü yanında
Qoca dünyanın
Sabah qara üzü qızaracaqdı.

[60] “Dağdan Bir Qaya Düşdü” şiiri *Éşgim Menim Dar Ağacım*’da “Yazıqlar” adıyla yayımlanmıştır.

16 Qırmızı yağışlar yağacaq sabah,
17 Qırmızı ulduzlar doğacak sabah,
18 Qırmızı yuxular göreceyik biz,
19 Qırmızı suallar véreceyik biz.
20 Elvida, elvida qara kölgeler!
21 Elvida, elvida qara belkeler.

Bu Yol Bizi Hara Çekir Göresen[61]

151

01 **Bahar Lövheleri**
02 Bürüyüb alemi quşların sesi,
03 Yéne tebietin eli açılıb.
04 Ne vaxtdır lal olan dağ şelalesi
05 Oxuyur, déyesen dili açılıb.

06 Tebiet bezendi, güller tezeter,
07 Ağ yağış elendi ilk nübar kimi.
08 Yollar kenarında ala kölgeler
09 Uzanıb, yorulan yolçular kimi…

10 Quzular ayrılmır yamacdan bir an,
11 Éle héy otlayır, héy meleyirler.
12 Sanki tebietin <<dağ>> kitabından
13 <<Bahar>> neğmesini ezberleyirler.

Alqışlar[62]
Mene Tanışdı[63]

[61] "Bu Yol Bizi Hara Çekir Göresen" başlıklı şiir *Éşgim Menim Dar Ağacım*'da ve *Her Şéyi Tezeden Başlayan Gerek*'te "Yol" başlığıyla yayımlanmıştır.
[62] "Alqışlar" şiiri *Bir Gün Geler*'de iki kıtadır. Türkay daha sonra bu şiire eklemeler yapmış, şiiri yayımlamamıştır. Bu sebeple "Alqışlar" şiiri Yayımlanmamış Şiirler kısmına eklenmiştir.
[63] "Mene Tanışdı" şiiri *Éşgim Menim Dar Ağacım*'da aynı adla yayımlanmıştır.

152

Bir Ananın Ağısı

Hüséyn Cavidin xatiresine

Éhéy!.. é…héy!..
Dé hardasan?!
Oğul, oğul. Cavid! Cavid!
Ah, üreyim, sus, parçalan, dağıl, dağıl…
Cavid… Cavid…

Bir zamanlar men qedrini bilemmeddim,
Oğul… oğul…
Zindanlarda zindanlandın,
Göz yaşını silemmedim,
Oğul… oğul…
Ağlamalı günlerimde gülümsedim,
Uğunmalı anlarımda gülemmedim,
Oğul… oğul…
Ah, kaş dilim quruyaydı,
Men arxanca neler dédim,
Oğul… oğul…
Açılmayır indi éynim,
Néynim… néynim…

Hesretinden yayım, yazım, qışım yanar,
Od ağlaram,
Gözlerimde yaşım yanar.
Birce arşın mezarınçün
Héy torpağım, daşım yanar,
Cavid!.. Cavid!.. Cavid!..

153

Ata ve Anama

Payız qanad germiş bağçalarsınız,
İller saçınızda dincelir, ana.
Köçüb durnalartek, köçüb oğul, qız,
Yoxsa ömrünüze qış gelir, ana?!

Qızlar teze yurda köçdü, élemi,
Qeriblik qelbini bürüyer, beler.
Sabah ömrünüzün baharı kimi
Qızlar neveleri getirer geler.

Gözünüz yolumda qaraldı, söndü,
Dilinizin varı, yoxu men oldum.
Néyleyim, arzular bir yaya döndü,
Kamandan üzülen oxu men oldum.

İller ne téz kéçir, ne téz ötüşür,
Kime giléylenim illerden, kime?
Orda ömrünüzden yarpaqlar düşür,
Burda fikir olur yağır üstüme…

154

Karvan

Soltan Hacıbeyovun xatiresine

Yayın istisinde, qışın qarında
Uçub üreklerden kéçdi <<Karvan>>ın
Odlu könüllerin sehralarında
Qaynar baxışlardan içdi <<Karvan>>ın.

Uçdu qanad-qanad köksüme sarı,
Qelemim lületek tuşlandı göye.
İlhamım qıy vurub kesdi yolları,
Hay-haray qopardı <<xerac vér>>- déye.

<<Karvan>> bir hemlede aldı qelbimi,
Fikrim peren-peren… deyişdi halım.
Qelemim baş eydi utanmış kimi,
Neğmeler sélinde axdı xeyalım…

Ayıldım…
Sesledim, alışdı sinem,
<<Karvan>> uzaqlardan hay vérdi mene.
Qelbimi uyudub kéçdise, ne qem
<<Xerac>> yox, bir neğme pay vérdi mene…

155

01 **Dédiler**
02 Dédim sévmemişem hele ürekden,
03 Güldüler, sözüme yalan dédiler.
04 Cavanken düşübdür saçlarıma den,
05 Mene, a yüz ilden qalan, dédiler.

06 Anlaya bilmedim düzü bu sirri,
07 Gömüldüm torpağa men diri-diri.
08 Ötende sazımda <<Keremi>>, <<Misri>>
09 Mene köhne hava çalan dédiler.

10 Bağa yolum düşdü, çırpındı ürek,
11 Gördüm, aparırlar héy etek-etek;
12 Éle ki, istedim men de bir çiçek
13 Qoymayın, éyledi talan, dédiler.

14 Alışdım, heyatdan qelbim küsdümü?
15 Suallar qılınctek kesdi üstümü.
16 Dost-tanış éle bil görüb tüstümü,
17 Hele harasıdır, yan, yan, dédiler.

Géce Düşünceleri[64]

[64]"Géce Düşünceleri" şiiri *Éşgim Menim Dar Ağacım*'da aynı adla yayımlanmıştır.

156

Qeribe Yuxular

<<Seyahet>> defterinden

Dünen géce yuxumda ah,
Dünyamızı yaman gördüm.
Bir küçede, bir sekide
Min ah gördüm,
Aman gördüm.
Bir ixtiyar oturmuşdu yol üstünde.
Bir biqerar oturmuşdu yaman günde.
Sağ yanında uyuyurdu
Yaxın dostu-elağacı.
Yalvarırdı her yétene,
Her kéçene acı-acı.
Béş-on qepik atılmışdı
Papağına,
Bir az çörek qoyulmuşdu
Qabağına.
Gözlerinde bütün dünya
Duman idi.
Ayaq sesi onun üçün
Ümid idi, güman idi…
Bir ixtiyar oturmuşdu
Yol üstünde.
Bir biqerar oturmuşdu
Yaman günde.
Birden göyler buludlaşdı
Şırım-şırım yandı, yandı,
Tez kölgeler daldalandı…
Feqet torpaq öz barından
Ne utandı, ne usandı…

Göyler yaman qaralmışdı,
Yağırdı héy,
Ağlayırmı, gülürmüdü, bilemmedim.
Durmaq üçün o çırpındı,
Çağırdı héy,
Baxdım, baxdım, yazıq dédim.

İslanırdı, qoca yaman darda idi…
Onu bura getiren bes harda idi?
Gelen-géden <<yaman vurub, bu da azdır>>
déyirdiler.
Papağına béş-on qepik
Atanların,
Af-uf déyib qaşlarını çatanların
İnsafımı daşa döndü?!
Gözlerimde dünya yandı,

46 Dünya söndü…

Payız[65]
Quruyan Ağaclar

157

01 **Doğma Yurda Mektub**
02 Éşit, ne déyirem ay qoca dedem,
03 Temennalı çörek ne ağı imiş.
04 Mene can-can déyen dostum, hemdemim,
05 Sen déme amansız bir yağı imiş.

06 Ömrümde gah duman, gah çen görmüşem.
07 Dünyanı gah qemgin, gah şen görmüşem.
08 Ayılıb saçımı den-den görmüşem.
09 Ağ téller pis günün sorağı imiş.

10 Men uddum-uduzdum bu sert yarışda,
11 Üşüdüm baharda, isindim qışda.
12 Anlayıb gördüm ki, dost da, tanış da
13 Ancaq yaxşı günün ortağı imiş.

14 O yurddan-yuvadan düşmüşem uzaq,
15 Gün geler, çekiler bu qar, bu sazaq.
16 Senin buxarında alışan ocaq
17 Menim üreyimin çırağı imiş.

[65] "Payız" ve "Quruyan Ağaclar" şiirleri *Éşgim Menim Dar Ağacım*'da aynı adlarla yayımlanmışlardır.

01 İKİNCİ BÖLÜM: YADINA DÜŞSEM

158

Géçer Zaman

Géçer zaman, geler bir gün, yétişer payız,
Gözelliyin solub géder yarpaqlar kimi.
Xeyalımda sabahına géciker bir qız,
Qara teller beyazlaşar dağda qar kimi,
Gözelliyi solub géder yarpaqlar kimi.

Alar menim <<gısasımı>> zaman, darıxma!
O vaxt sene acıyaram, héyifim geler.
İndi béle cilvelenib özünden çıxma,
Sabah neler olacaqdır éh, neler, neler…
O vaxt sene acıyaram, héyifim geler.

Orda Bir Söyüd Gördüm[66]

[66] "Orda Bir Söyüd Gördüm" şiiri *Éşgim Menim Dar Ağacım*'da aynı adla yayımlanmıştır.

159

01 **Azdı Baxışlarım Qara Hörükler**
02 Azdı baxışlarım, qara hörükler
03 Qaranlıq cığırmı…
04 Qelbimi sıxdı.
05 Dönüb mene baxdın-açıldı seher,
06 Gözlerim işıqlı dünyaya çıxdı.

07 Sévdim saçlarını, ay benizini,
08 Dédim yaşadaram öz baharımla.
09 Açılan sap kimi ayaq izini
10 Dolardım könlüme baxışlarımla.

11 Bulud tek içimden alışdım, söndüm,
12 <<Yox>>- dédin, qelbine yağa bilmedim.
13 Éşqinden odlanıb güneşe döndüm,
14 Vüsal üfüqünden doğa bilmedim.

15 Dédiler kimese nişanlanmısan,
16 Hardasa bir özge könül sévindi.
17 Ah! Hansı éşqinse buludlarından
18 Qönçe dodaqlara şéh düşüb indi…

19 Ay kéçir, il kéçir… kederi, qemi
20 Mene bexş éyledin o günden béle.
21 Éşqimin ezizi anası kimi
22 Yolur saçlarını hesretin hele…

O Günden[67]
Dünyanı Qınama

[67] "O Günden" ve "Dünyanı Qınama" şiirleri *Éşgim Menim Dar Ağacım*'da aynı adlarla yayımlanmışlardır.

160

Yadına Düşsem

Éh, işdi, qezadı, düşsem yadına
Bilsem darıxırsan, qaçıb gelerem.
Oda tut qelbimi, hesret oduna,
Simurq quşu kimi uçub gelerem.

Éh, işdi, qezadı, düşsem yadına
Oxu bu neğmeni vaxtın var iken.
Senin ünvanına, senin adına
Taléyin yazdığı bir mektubam men.

Oxu, bir mektubam senin adına,
Dağıt üreyimden qemi, qubarı.
Oxu, beyenmesen yandır oduna,
Saxla xatiretek külümü barı.

Yandır, qoy bilim ki, yoxdu gülşenim,
Sonradan ağlama sen için-için.
Saxla xatiretek külümü menim,
Düşmenin gözüne üfürmek üçün.

Éh, işdi, qezadı, düşsem yadına
Bilsem darıxırsan, qaçıb gelerem.
Oda tut qelbimi, hesret oduna,
Simurq quşu kimi uçub gelerem.

161

Kesme Téllerini

Kesme téllerini, ay ömrüm-günüm,
Qoy sözüm deymesin senin xetrine.
Başına dolanım, başına dönüm,
Batım téllerinin çiçek etrine.

Kesme téllerini, kesme, ezizim,
Uşaqlıq illeri çoxdan ötüşüb.
Éle bil yuxusuz gécelerimin
Senin téllerine qarası düşüb.

Démirem télinden qırx hörük ayır,
Axsın küreyinden şelale kimi.
Bilirem qırx çaya baxmaq olmayır,
Sen birce dalğada yaşat éşqimi.

Dara téllerini kirpiklerimle,
Boyasız-filansız görüm çöhreni.
Menim gözlerimde güzgülen, gülüm,
En gözel gösterer gözlerim seni.

Bir parça gécedir qara téllerin
Xeyalım hemişe géceler orda.
Ne zaman yorulsa menim ellerim,
Oxşasa inan ki, dinceler orda.

Kesme téllerini, ay ömrüm-günüm,
Qoy sözüm deymesin senin xetrine.
Alışım, başına dolanım-dönüm,
Batım téllerinin çiçek etrine.

162

Öteri Mehebbet İstemirem Men

Ürekden savayı yoxdur héç neyim,
Sabah kim olaram, déye bilmerem.
Sen menim ümidim, arzum, dileyim,
Könülsüz balı da yéye bilmerem.

Méhriban baxışın menimçün yazdı,
Çiçekler gözümde dünya bir anda.
Senin soyuqluğun qardı, ayazdı,
İterem, azaram çende, dumanda.

Hesretin yuxumu alar gözümden,
Nur olub yağarsan duyğularıma.
Sensizlik dünyanı salar gözümden,
Sakitce gelersen yuxularıma.

Sına ümidini, mehebbetini,
Gör qelbin menimçün yana bilirmi?
Sına üreyini, deyanetini,
Mensiz darıxırmı, dona bilirmi?

Sına dözümünü, sına özünü,
Kim bilir yolumuz çiçekmi, qarmı?
Yoxla üreyini, neğmelerimin
Orda sesi varmı, sorağı varmı?

Be’zen fikirlerim düşer derbeder,
Göresen éşqimde bextiyarammı?
Göresen iynenin ulduzu qeder
Könlünde, gözünde senin varammı?

Men olam qelbinin dostu, hemdemi,
Öteri olmaya bu arzu, istek.
Dolanam başına pervane kimi,
Menimçün bir ömür yanasan gerek.

Déme yalvarıram, ya ağlayıram,
Bu ömür yoludur, béşgünlük déyil.
Özümü kitabtek varaqlayıram,
Könülsüz mehebbet ömürlük déyil.

Ürekden savayı yoxdur héç neyim,
Sabah kim olaram, déye bilmerem.
Sen menim sabahım, arzum, dileyim,
Könülsüz balı da yéye bilmerem.

Éhéy, Kimdir Orda Ocaq Qalayan[68]

163

İmtihan
Çekilir varlığım divana her gün,
Feqet ne öldürür, ne aman vérir.
Belke de ebedi yaşamaq üçün
Éşqim hesretine imtahan vérir?

164

Gelerem
Gelerem üreyin meni istese,
Gelerem çaldığın sazın sesinde.
Gelerem üreyin meni istese,
Gelerem qelbinin döyüntüsünde.

Gelerem üreyin meni istese,
Gelerem, gelerem yox olsam béle.
Xeyalın bir vaxtı oyanıb sese
Baxarsan eksimdi gelibdi dile…

Gelerem üreyin meni istese,
Bextiyar sanaram bu ömrü-günü.
Gécenin bir vaxtı oyanıb sese
Dinlersen qelbinin döyüntüsünü…

[68] "Éhéy, Kimdir Orda Ocaq Qalayan" adlı şiir *Éşgim Menim Dar Ağacım*'da aynı başlıkla yayımlanmıştır.

HER ŞÉYİ TEZEDEN BAŞLAYAM GEREK (1985)

01 BİRİNCİ BÖLÜM: BU GÜN SABAH

165

Sabahıma Üzürem Men
Bu dünyaya getiribdir
Hamı kimi meni ana,
Atılmışam fırtınalı
Heyat adlı bir ümmana.
Fikirlerim qayıq olub,
Arzularım mene yélken.
Qelemimi avar édib
Sabahıma üzürem men.
Ümidlerim işıq saçır
Ulduz-ulduz yollarıma.
İlhamımın qucağına
Duyğularım dama-dama,
Sabahıma üzürem men.
Men alovam,
Men çiçeyem.
Ümidlerim çıraq-çıraq
Çetin sönem,
Çetin solam,
İsterem ki bu alovla
Arzulara qarışaraq
Bir gün özüm arzu olam!

Bu Yol Bizi Hara Çekir Göresen[69]
Nola Dönüb Uşaq Olam Birce Gün

[69] "Bu Yol Bizi Hara Çekir Göresen" *ÉMDA*'da ve *BGG*'de; "Nola Dönüb Uşaq Olam Birce Gün" ise *ÉMDA*'da aynı adlarla yayımlanmışlardır.

166

Çinarın Söhbeti

Çinartek boy atıb ucalsam da men
Senden gén düşmerem, a köküm menim.
Öten buludlardan bac alsam da men
Yéne çiynindedir bu yüküm menim.

Min yol budanmışam, şarxalanmışam,
Min péyvend olunub budaqlarıma.
Yad odda-ocaqda çox qalanmışam,
Yad neğme yatmayıb dodaqlarıma.

Ağrısan saralıb-solar yarpağım,
Ağrısan ağlayar daşım-torpağım.
Qolların en derin qatlardan kéçir,
Yolların en derin qatlardan kéçir.

Yolunda her ne var qırıb kéçmisen,
Qolunda qéyretim, gücüm yaşayır.
Belke de bu yéri yarıb kéçmisen
O üzde qardaşım, bacım yaşayır.

Bir kökden su içib böyüsek de biz,
Orda adım palıd, burda çinardı…
Orda qardaşım var, menimle ekiz
Orda payızdırsa, burda bahardı.

Nadanlar sineme min ad yazıbdı,
Ay kéçib, il kéçib itirmişem men.
Çoxları kökümü éşib, qazıbdı
Yöremde çinarlar bitirmişem men.

Gemirib gövdemi uzunqulaqlar,
Dişi batmayanlar neler söyleyib...
Néçe reng péyvendler, néçe calaqlar
Şümşad budağımda göyeremmeyib...

Qara torpakların qaranlığından,
Yaşıl alov kimi boy vérmişem men.
Bir durna hesretli dönse cenubdan,
Bahardan payıza hay vérmişem men.

Çinartek boy atıb ucalsam da men
Senden ayrılmazam a köküm menim.
Öten buludlardan bac alsam da men
Yéne çiynindedir bu yüküm menim,
Senden ayrılmaram a köküm menim.

167

01 **Memmed Araza Mektub**

02 <<Mükafat>> şé'rini oxuyarken

03 Ömrüm boyu can qoymuşam yolunda,
04 Birce defe o üzüme gülmeyib.
05 Dolanmışam héy sağında-solunda
06 Ağlamışam, göz yaşımı silmeyib.
07 Bu sévgide yarımadım, ay lele.

08 Tarlasında sünbül oldum, den oldum,
09 Yaylasında duman oldum, çen oldum,
10 Dar gününde arxasında men oldum
11 Bu sévgide yarımadım, ay lele.

12 Yadlar ile eylendi o, güldü o,
13 Çoxlarının qedrini bildi o.
14 Ölüm vaxtı ayağıma geldi o,
15 Bu sévgide yarımadım, ay lele.

16 Ömrü-günü bu sévgide sovurdum,
17 Üreyimi köksüm altda qovurdum.
18 Öz éşqimi qanım ile yoğurdum.
19 Bu sévgide yarımadım, ay lele.

20 Gör kimlere qismet oldu istisi,
21 Saçlarıma gelib çökdü tüstüsü,
22 Mehebbetin ne yaxşısı, ne pisi…
23 Bu sévgide yarımadım, ay lele.

24 Onsuz déme ağlayaram, gülerem,
25 Nefesiyle göz yaşımı silerem;
26 Ölsem gédib qucağında ölerem,
27 Bu sévgide yarımadım, ay lele.

Her Şéyi Tezeden Başlayam Gerek[70]

Bu Géce Ne Yaman Uzandı Béle

Quruyan Ağaclar

[70] "Her Şéyi Tezeden Başlayam Gerek", "Bu Géce Ne Yaman Uzandı Béle" ve "Quruyan Ağaclar" şiirleri *ÉMDA*'da aynı adlarla yayımlanmışlardır.

168

Tenha Buruqların Géce Neğmesi

Géce yarı,
Yéne yoxdu ses-soraq,
Yağış döyüb,
Yol-izimiz görünmür.
Qanımızla
Köksümüzden bir çıraq
Barı asın,
Bes üzümüz görünmür?
Deli külek
Minir bizi sübhecen,
Gözleyirik
Burda sizi sübhecen,
Düzenlerin
Génişliyi daralıb,
Yoxsa
Yoxuş-énişliyi qar alıb?!
Yox, qış déyil,
Payız gelib, qış yaxın.
Kéfinizi çağ éyleyen,
Üzünüzü ağ éyleyen,
Bizim
qara üzümüze bir baxın.
Ay yaxşılar,
darıxırıq,
Gelin héy!
Qışqırırıq,
Daha döze bilmirik,
Baxammırıq sola, sağa,
Baş qarışıb yaşamağa!
Bircе barmaq
Mektub yaza bilmirik.
Elleşirik
Yéddi qata énmişik,
Qaranlığın
Kölgesine dönmüşük.
Qorxuruq ki
Üreyimiz dayanar.
Çağırırıq
Gelmirsiniz haya da.
Qorxuruq ki,
Kölge kimi yox olsaq,
Bu yollarda
Qalarsınız piyada.
Kölgeyikse
Arxanızca qaçmırıq,
Sirrimizi

48 Özgelere açmırıq.
49 Biz olmasaq
50 Gözleriniz qaralar.
51 Ay işıqlar,
52 Ay işıqlar, telesin,
53 Gelin héy!

169

01 **Sual**
02 <<Bir baladı, bir candı
03 Quzu kimi oğlandı.
04 Gét söylesen gédendi,
05 Gel söylesen gelendi.
06 Qal désen, o, qalandı,
07 Öl désen, o, ölendi.
08 Vur başına eppeyin al,
09 O, üzüne gülendi...
10 Yanağı lale kimi,
11 Qaşları hale kimi,
12 Keklik teki sekir o,
13 Qızlara dağ çekir o...
14 Şerab nedir tanımaz,
15 Papiros çeken déyil.
16 Dindirmesen danışmaz,
17 Çox zehle töken déyil.
18 Kini, nifreti yoxdu,
19 Hemişe qelbi toxdu,
20 Tek baladı, bir candı,
21 Quzu kimi oğlandı>>.
22 Bélece te’riflendi
23 Quzu kimi olanlar.
24 Quzular beyenildi
25 Artdı, çoxaldı onlar.
26 Unuduldu pelengler,
27 Unuduldu aslanlar.
28 Düşünmediler, ancaq
29 Bu quzular böyüyüb
30 Axırda ne olacaq?

170

01 **Anaya Mektub**

02 Amérikada telebeler acınacaqlı heyat kéçirirler.

03 Qezétlerden

04 Bu gün bayramındır
05 Oturmuşam tek
06 Fikrim peren-peren...
07 Düşünürem, meni anan varmı gören?
08 Éh, senden başqa kim var, kim olacaq?
09 Bilirem…
10 Elimde bir qedeh qem
11 Sağlığına çekirem başıma
12 Mestem
13 Qabağımda
14 Bir çimdik duz, bir dilim quru çörek...
15 Sağ ol, ana! Bayramın mübarek!
16 Bu gün bayramındır...
17 Sağlığına bade qaldırıram
18 Elimde bir qedeh qem,
19 Gözümün-könlümün seni kem...
20 Gözünün, könlünün meni kem...
21 Bilirem...
22 Barmaqlarımı yandırır
23 Papiros kötüyüm.
24 Özüm özüme tuşlanmışam.
25 Zamanın elindedir tetiyim.
26 Fikirlerim derbeder
27 Helelik, bu qeder...

01 <<SAZIN İŞIĞINDA>> SİLSİLESİNDEN

Koroğlunun Qocalığında Dédiklerinden[71]

Kereminin Dédiklerinden

Senden Gözüm Su İçmeyir

171

02 **IV. Geraylı**
03 Veten éşqi nale çeker
04 Üreyimin yarasında.
05 Araz axar qanlı-qanlı
06 Gözlerimin qarasında.

07 Bahar gelir, qış ötüşür,
08 Ömür kéçir, yaş ötüşür;
09 Gelen yollar düyün düşür
10 Bu derdimin çarasında.

11 Meclis gördüm, xoşluq gördüm,
12 Şerab gördüm, şişlik gördüm,
13 Haray, yaman boşluq gördüm
14 Dostlarımın sırasında.

15 Bu da béle bir savabdı,
16 Qem itirdi, sévinc tapdı...
17 Talé mene küme yapdı
18 Odla suyun arasında.

[71] "Koroğlunun Qocalığında Dédiklerinden", "Kereminin Dédiklerinden", "Senden Gözüm Su İçmeyir" şiirleri *ÉMDA*'da da yayımlanmıştır.

172

Biçinçiler Haqqında Ballada

Üfüqlerin sinesimi
yaralandı? Al boyandı…
Géce élin gözlerinden
qaralandı, él oyandı…
Güneş doğdu, dünya üzü
Oda düşdü…
Derelere, düzenlere
Seda düşdü…

-Siz o üzden, biz bu üzden
Dörd bir yana, béş bir yana!
Téz ol, qardaş, vérme aman
Kéçir zaman
<<Baş bir yana, léş bir yana!>>

Baş vurdular zemilere,
Demir atlı qoç igidler
Toz dumana qarışdı héy,
Séle döndü alında ter…
Bol zemiler dümdüz oldu
Géceleri gündüz oldu
Oğurlandı yuxuları:
- Qoy itmesin élin varı!

İnsan…
İnsan ne inaddı,
Vaxtsız durdu vaxtsız yatdı,
Yuxusundan kem oyatdı.
Öz oğlunu qoca qarı,
Qoy itmesin élin varı!..
Anaları pay getirdi,
Qız-gelinler çay getirdi,
Süfre açıb kövşen üste
Her birisi min hevesde…
Béle kéçdi naharları
Qoy itmesin élin varı…
Gün altında
Alışdılar,
qaraldılar,
sönmediler.
Vuruşdular,
çalışdılar,
Sözlerinden dönmediler.
Çiçeklendi
emelleri,
arzuları.

45 Qoy itmesin élin varı.

46 Éy sabahın ümidini
47 toplayanlar,
48 Alqış size!
49 éşqi bahar,
50 andı bahar
51 Ömrü bahar
52 Şé'rimle ses vérirem
53 sesinize!
54 Alqış size!
55 Alqış size!

Géce Növbesinden Sonra[72]

173

01 **Vetenden Uzaqda**
02 <<Seyahet defteri>>nden
03 Atadan, anadan uzaq,
04 Qardaşdan, bacıdan uzaq
05 Gözel, men kime lazımam.

06 İçim yanar, çölüm sazaq,
07 Gel burda bir çuxur qazak,
08 Gözel, men kime lazımam?

09 Ayrı düşdüm budağımdan,
10 Öz yurdumdan, yatağımdan.
11 Neye deyer dédiyin <<can>>
12 Gözel, men kime lazımam?

13 Çapılmışam, talanmışam,
14 Yad budağa calanmışam.
15 Calaq é'tibarsız olar,
16 Gözel, men kime lazımam?

17 Dad étmeye sözümmü var,
18 Yüyürmeye dizimmi var.
19 Boylanmağa gözümmü var,
20 Daha mende dözümmü var,
21 Gözel, men kime lazımam?

[72] "Géce Növbesinden Sonra" şiiri ÉMDA'da da yayımlanmıştır.

174

Hüséyn Cavide

Uzun ayrılıqdan sonra H. Cavid'in
cenazesi Naxçıvan'a getirilmişdir.

Ömrün payız çağında
Bir tufan qopdu, şair.
O tufan çox dolandı,
Seni de tapdı, şair.
Döydü deli külekler
Qapını-pencereni.
Héç yana çıxammadı
Kesdi bendi-bereni.
Évinde dustaq oldun.
Doğmalara yad oldun,
Öz-özünü yandırdın
Öz-özüne od oldun…
Neheng-neheng ağaclar
O tufanda yıxıldı
Qalanların taléyi
Bir qeribe nağıldı…
Kol-koslar da yaşayıb
Tufandan çıxdıq dédi,
Bax bu gözel günlerin
Elini sıxdıq dédi.
O tufan yaman esdi,
Ulduzlar söndü, şair.
Vurğunun üreyinde
Xerçenge döndü, şair!

Hesretinden bu yurdun
Torpağı, daşı yandı
Analar od ağladı,
Gözünde yaşı yandı.
Uyudun qürbet élde,
Aylar, iller ötüşdü,
Elince qalasından
Günde bir kerpic düşdü.
Edalet güneşinden
Hesret eridi geldi.
Özün gele bilmedi,
Dözmeyib ayrılığa
Qebrin yéridi geldi.
Qayıtmısan, gül açıb
Yurdumun her bucağı
Bir barmaq ucalıbdı
Azerbaycan torpağı.

Lale[73]

Ellerim

175

01 **Elek**
02 Bir çuval un gelib kéçdi elekden,
03 Eledi, eledi, görün néyledi.
04 Unu ese-ese vérib tekneye
05 Özüne bir ovuc kepek éyledi...

06 Günler béle kéçdi... ezablı günler,
07 Açdı gözlerini, duydu haqqını,
08 Eleyin gözünde qaraldı alem.
09 Déyine-déyine feqet bir seher
10 Elek kor olubdur söyledi, nenem.

[73] Ellerim ve Lale şiiri *ÉMDA*'da yer almaktadır. Ancak Lale şiiri "Qırmızı Feryad" adıyla yer alır.

176

Bir Müdire Mektub

Susuz, cadar-cadar torpaq kimiydin.
Éle yan kéçirdi yaz yağışları,
Hesretden titreyen yarpaq kimiydin,
Yağırdı taléyin qış alqışları.

Bir insan qayğısı yétdi hayına
Güldü torpağın da, güldü daşın da.
Ümidi, isteyi düşdü payına,
Tapdın seadeti stol başında.

Ömrüne sélleme yağışlar yağır,
Pöhreleyib minbir budaq olmusan,
Hardasa yollara <<sehralar>> baxır,
Bes niye onlardan uzaq olmusan…

Özünden böyüye héy üz ağartdın,
Menimse üzüme gülmedin, qardaş!
Néçe yad-yalanın dilini tapdın,
Sen menim dilimi bilmedin, qardaş!

Yaxşı bax dövrene, gör orda kim var,
Sen isteyen sazı çala bilmedim.
Menim de silinmez bir éyibim var,
<<Zemane adamı>> ola bilmedim.
Çoxunun könlüne yaman deyirsen,
Déme, bu hikmeti çetin ki duyam:
Éle dillenende veten déyirsen,
Men ki bu vetenin bir parçasıyam.

177

Karusél

Ne vaxtdır ki fikirlerim
çidarlayıb ayağımı,
Yéne sükut
günahkartek
kilidleyib dodağımı.
Gözüm açıq olsa béle,
Baxışlarım esir düşüb
Uşaqların <<at>> bélinde,
<<fil>> bélinde şen, ferehle
<<gezdikleri>> karuséle.
Düşünürem... feqet, belke
Karuséldir küremiz de?
Yér fırlanır, fırlanırıq.
Uşağıqmı yoxsa biz de?!
Yox, yox, burda körpelerin
Alemitek déyil alem!
Kimimize fikir, keder,
Kimimize sévinc hemdem.
İndimizi geleceye
daşıyırıq şele-şele.
Oturmuşuq uşaq kimi
Biz en neheng karuséle.
Fil yérine ölüm adlı
silahları minen de var.
Arzuları gül açmamış
Zirvelerden énen de var.
At yérine vezifeni
Seksekeli tutana bax.
Dünyamızdan xebersiz héy
Üzüquylu yatana bax!
Minhamindir, çaphaçapdır...
İlhamımsa arzuların
qanadına sinib çapır,
Zaman özü ömrü boyu
Küremizi minib çapır...

İki Lövhe - I[74]

178
II

01 Men onu tanıyırdım
02 Yamanca hap-gopuydu.
03 Üzü yétişmiş armud,
04 Boynu teker topuydu.
05 Yaxını, dostu, yadı
06 Her an bézdirerdi o.
07 Qarnını qucağına
08 Alıb gezdirerdi o.
09 İlan gözleri kimi
10 Sarı gözleri vardı
11 Neye désen <<yaxşıdır>>
12 Ona bir qulp tapardı.
13 Camaatın içinde
14 Müdirini söyerdi.
15 Ara xelvet olanda
16 Ona neler déyerdi.
17 Hamıdan şübhelener,
18 Xoflu-xoflu baxardı.
19 Be'zen de öz-özünden,
20 Kölgesinden qorxardı.
21 Gözünde oğul-uşaq
22 Bir qara qepik idi.
23 Onlara hediyyesi
24 Her axşam tepik idi.
25 Ağ yél, qara yél kimi
26 Her şéyden hirslenerdi.
27 Bulanlıq bir sél kimi
28 Gah coşub, gah sénerdi.

29 Onun üçün dünyada
30 Tekce özü var idi.
31 İşi, sözü-söhbeti
32 Qéybet, qem-qubar idi.
33 Bélece yaşayırdı
34 Papağının altında,
35 Çekmesinin üstünde.
36 O, dünyanın qesdinde,
37 Dünya onun qesdinde…

[74] "İki Lövhe" şiiri *AHV*'da da yer almıştır.

179

<<Anamdan Mektublar>> Silsilesinden

Dağda çen-üşüyürem,
Saçda den-üşüyürem
Géce üstün açılıb,
Yoxsa men üşüyürem?

Bağçalar saraldı, gel.
Gözlerim qaraldı, gel.
Ömrüm-günüm sovuşdu
Qapımı qar aldı, gel!

Bozat nalın itirdi.
İpek yalın itirdi.
Bir qız gözaltıladım
O da şalın itirdi.

Güntek dolanım, yaxım.
Buludtek gözüm sıxım.
Teki sen yollarda ol
Men de yollara baxım...

180

Meni Her Gün İnandırdı

Meni her gün inandırdı,
Arxayın ol déye-déye.
Öz-özümden utandırdı
Arxayın ol déye-déye.

Bir süfrede çörek kesdik,
Dillenende dédi, dostuq,
Başım altda qoydu yastıq
Arxayın ol déye-déye

Nazirle yézne qayınmış,
O da ki ordan yayınmış,
Bildim neye arxayınmış
Arxayın ol déye-déye.

Qalxdı göye bir şar kimi,
Düşdü yére paltar kimi,
Uçdu köhne divar kimi
Arxayın ol déye-déye.

181

Géce Kéçir

Géce kéçir... xeyaldayam.
Fikirlerin qucağında
Gile-gile eriyirem
İlhamımın ocağında.
Her yan sükut... duyğularım
Çiçek-çiçek, deste-deste
Bir gécelik ümid kimi.
Çıraq yanır başım üste.

Géce kéçir... tebiet de
Menim kimi xeyaldadır.
Nese susub...
Géce gözü görsün déye,
Asimandan ayı asıb,
Belke o da şé'r yazır?
Düşünürem, xeyalımdan
Gelib kéçir tepe, dere,
Baxıram ki, tebietin
Sözlerini oğurlayıb
Köçürmüşem vereqlere...

182

Eyibdir Başını Torpağa Sarı

Eyibdir başını torpağa sarı
Gören ne düşünür, ne anır söyüd.
Ömründe bir defe olmayıb barı,
Belke bunun üçün utanır söyüd.

183

Menim Düşmenlerim
Elinden ağlamaq gelen
Kövrekler öldürdü meni.
Qönçesi payızda gülen
Çiçekler öldürdü meni...

Hayandadır bahar çağım,
Qarışıbdır qaram, ağım.
İndiyedek yazmadığım
Vereqler öldürdü meni...

Cırtdanların hedeleri,
Vezifeli dedeleri,
<<Böyükler>>in ve'deleri,
<<Görek>>ler öldürdü meni...

Tepesinden çen yükselen
Hele qalıb néçe belen…
Sonradan yadıma gelen,
<<Gerek>>ler öldürdü meni...

184

Korlar Évinde Bir Gün
El ağacları
Ellerinde bir cüt göz kimi,
Déyilibler
Heyata acı söz kimi,
Yandırıb-yaxarlar alemi.
Adsız birce reng tanıyarlar,
Allahı
Günde néçe yol yanıyarlar.
Dünyanın damağında
Bir siqarétdi onlar.
Tüstülener...
Tüstülener...
Yédek gemileri kimi
İşıqsız-filansız
Yol géderler heyatın dalğalarında...
Vay o güne
Bütün rengleri bile-bile,
Gözleri güle-güle
Yédek gemisi olasan
Ömrün baharında!
Tüstülenesen siqarét kimi
Bir qızın dodaqlarında!

185

Öpdü

Gezdim başdan-başa Dağkesemen’i,
Gözeller, göyçekler gözümden öpdü.
Orda qayalara neğmeler dédim
Keklikler gülüşüb sözümden öpdü.

Emdim Hayvalı’nın bulaq dilini,
Derdim çiçeyini, derdim gülünü.
Arxamca yélledi çinar elini
Tökülen şéhile izimden öpdü.

Sesime ses vérdi dağlar-ne işdi?
Kövreldim o günler yadıma düşdü.
Bilmedim ayağım néce sürüşdü,
Etirli çiçekler dizimden öpdü.

Yadımdan çıxarmı o al yanaqlı.
İsmetli, heyalı o bal dodaqlı.
Aldı xeyalımı haqlı, nahaqlı
Men öpe bilmedim, üzümden öpdü.

01 İKİNCİ BÖLÜM: SÉVDİM GÖZLERİNİ DÜŞDÜM GÜNAHA

Éhéy, Kimdir Orda Ocaq Qalayan[75]

186

02 **Géce Küçenizde Donub Xeyalım**
03 Göylerden énmeyen terlan xeyalım,
04 Bu géce dönübdür doqqazınızda.
05 Alışıb hesretim, artıb melalım,
06 Mensiz oxuyubdur bu géce saz da…

07 Qeribe döyüşler varmış dünyada,
08 Hesretin könlümü esir alıbdır.
09 Düşmüşem qeribe ateşe-oda,
10 Gözlerin gözümü bende salıbdır.

11 Qurtarıb éşqimin şahsız günleri,
12 Qurtarıb ömrümün başsız günleri
13 Yollarım hesretle yüyürüb size…
14 xeyalım dolanıb şahlıq quşutek
15 Her defe qonubdur pencerenize…

16 Géce küçenizde olub xeyalım,
17 Burda üşümüşem isti otaqda.
18 Géce küçenizde qalıb xeyalım,
19 Héyif ki, héyif ki, özüm uzaqda…

20 Géce küçenizde donub xeyalım,
21 Seher küçenizden süpürüb atma.
22 Oyaqsa salam vér, açılar donu
23 Yatıbsa asta kéç, onu oyatma…

Hörükler[76]

Nola Çata O Dilbere

[75] "Éhéy, Kimdir Orda Ocaq Qalayan" şiiri *ÉMDA*'da da yayımlanmıştır.
[76] "Hörükler" ve "Nola Çata O Dilbere" şiirleri ÉMDA'da da yayımlanmıştır.

187

Elvida

Bir bahar çiçeyi düşüb bextime
Al-elvan sévdalı iller, elvida!
Çoxları <<daş>> déyib menim éşqime,
Mene can-can déyen diller, elvida!

Sizden uzaqdayam, uzaqdayam men,
Düşübdür gözümden o gül, o çemen,
Daha gözlemeyin meni bu günden
Elimde eriyen eller, elvida!

Atın, könlünüzde eger varamsa,
Néynim ömrünüze yağan qaramsa?
Meni bağışlayın günahkaramsa
Qönçeler elvida, güller elvida!

188

Bu Gün Çıxmamışam Qarşına Senin

Bu gün çıxmamışam qarşına senin,
Gözlerin yoluma héç baxacaqmı?
Barı xatırlayıb olub kéçeni
Üreyin menimçün darıxacaqmı?

Yéne qerib-qerib baxıb kéçersen,
Xeyalım évedek izleyer seni…
Éh, sen öz kéfinde, hardan bilersen
Doqqazda sübhedek gözleyer seni…

Gédersen sakitce, olmaz xeberi,
Hesretin yandırıb-yaxar qelbimi.
Eser gümanıma payız yélleri
Başlayar ömrümün <<yarpaq tökümü>>

Bu gün çıxmamışam qarşına senin,
Gözlerin yoluma héç baxacaqmı?
Barı xatırlayır olub kéçeni
Üreyin menimçün darıxacaqmı?

189

Tenha Söyüd Haqqında Neğme

Söyle niye perişansan
Béle ay söyüd, ay söyüd?
Dönübdü yéne téllerin
Séle ay söyüd, ay söyüd.

Bir quş qonmur budağına,
Lelek deymir yanağına,
Men döşenim ayağına,
Éle ay söyüd, ay söyüd.

Utancaqsan ayüzlümtek,
Qoy saçına hörüm çiçek.
Benzeyirsen o ağörpek
Güle ay söyüd, ay söyüd.

Bir ağ günlü sabah ola,
Léysan düşe ize, yola.
Küsüb géden nola, nola
Gele ay söyüd, ay söyüd.

190

Qoru Üreyini

Senincün darıxır üreyim ancaq,
Niye özgesini ana bilmirem?
Günde néçesine gözüm düşerdi,
İndi héç birine yana bilmirem.

Rengbereng mehebbet yoluydu dünya,
Size géden yoldan sapmaq olmayır.
Gözel qızlar ile doluydu dünya,
Hanı, bes onları tapmaq olmayır…

Dünyanın başına ne iş açmısan,
Yönü size düşür cığırların da.
Bir zaman, bir zaman menden qaçmısan,
İndi sensiz olmur yuxularım da.

Qaxınc éleyibler <<dağı>>, <<düyünü>>,
Ağlayır, sızlayır yérinden duran.
Yazırlar qızların dönüklüyünü,
Niye yazmayırlar é'tibarından?!

Dünya başdan-başa bağça-bağ idi,
Her gile bir neğme déyerdi éşqim.
Yéllerin elinde bir yarpaq idi,
Senin üreyinde göyerdi éşqim.
Qoru üreyini vefalım menim,
Ay bahar çiçeyim, vüsalım menim.

Héç Vaxt Béle Yanmamışdım[77]

[77] "Héç Vaxt Béle Yanmamışdım" şiiri ÉMDA'da da yayımlanmıştır.

191

Éle Baxdı O Ay Üzlü Üzüme

Éle baxdı o ay üzlü, üzüme
Qelbim oldu para-para, néyleyim.
Bir ah çekdim, ahım meni yandırdı,
El çatmadı o gülzara, néyleyim.

Ay üzünde heyası var, arı var,
Sinesinde köynek dolu narı var.
Gözlerinden anladım ki, yarı var,
Hesed çekdim bextiyara, néyleyim.

Héç bilmirem éşqim qaragünlümü,
Ya qedemim bed heraylı, ünlümü?
O insafsız bu yaralı könlümü
Baxışıyla çekdi dara, néyleyim.

Çox déyibler bu iş haqda günahdı,
Yarı varsa, söz ummaq da günahdı!
Gözelliye göz yummaq da günahdı,
Qelbim, ruhum géydi qara, néyleyim.

01 <<DOSTUMUN AĞRILARI>> SİLSİLESİNDEN

Daha Qovuşmayan Polad Yollarıq[78]

Seni İtirdim

192

02 **III. Dehşet**

03 Bir qadınla söhbet zamanı onun
04 <<uzaqgörenliyi>> meni sarsıtdı.
05 <<Erim déyir, işleme. Yaxşı men işden
06 çıxsam, onun da başına bir iş gelse,
07 bu aileni kim saxlayar.>>
08 Dehşet, vay halına évin kişisi,
09 Bu söz varlığımı sarsıtdı, qardaş!
10 Vardır adamların yaxşısı, pisi
11 Ruhuma od vurdu, qarsıtdı, qardaş!

12 Gör ne fikirleşir heyat yoldaşın,
13 Taléyin daşlara toxunub senin.
14 Dehşet! Yaşamağa qarışıb başın,
15 Diriyken yasinin oxunub senin.

16 Belke qebirin de qazılıb artıq.
17 Belke tabutun da hazırdır indi.
18 Belke başdaşı da yazılıb artıq
19 Géden o cenaze éle senindi?!

20 Başın yaşamağa yaman qarışıb,
21 Yoxsa dözerdinmi béle bir derde.
22 Gözüyün nuruna duman qarışıb,-
23 Gözaltı olunub sabahkı er de

24 Onun ne vécine, gét as özünü,
25 Ya sen ya başqası
26 <<dolanma>> olsun.
27 Onun ne vécine, déyir sözünü:
28 Ne eli üste el, ne <<emma>> olsun.

29 Onun ne vécine solsun körpeler,
30 Göz üste qaşın var-déyen olmasın.
31 Pul olsun, év olsun-her şéy düzeler,
32 Min bir déyen olsun, yéyen olmasın.

[78] "Daha Qovuşmayan Polad Yollarıq" ve "Seni İtirdim" ÉMDA'da da yayımlanmıştır.

33 Xeyanet éyleyib bir ömre-güne,
34 Atar günahını taléyin üste.
35 Döyer dizlerine o döne-döne,
36 Varlığı can vérer giléyin üste…

Sévdim Gözlerini Düşdüm Günaha[79]

193

01 **O Qıza Déyin Ki**
02 Déyin xına qoysun o qız eline,
03 Daha ateşine yanan déyilem.
04 Éle yandırdı ki, hesreti meni
05 Soyuq baxışıyla donan déyilem.

06 Eskiklik getirib éşqim adına,
07 Déyib ki, salmasın meni yadına.
08 Dözerem qelbimin ah-feryadına,
09 Ölsem de adını anan déyilem.

10 Belke sévmek özü ayıbmış-armış,
11 Belke men qarlı qış, o ilk baharmış?
12 Ya éşqim kiçikmiş, ya qelbi darmış,
13 Gizleden déyilem, danan déyilem.

Burax Xeyalımı Zalım Balası[80]

Gét[81]

Ömrün Serhedleri - I[82]

[79]“ Sévdim Gözlerini Düşdüm Günaha” ÉMDA’da da yayımlanmıştır.
[80] “Burax Xeyalımı Zalım Balası” adlı şiir ÉMDA’da “Mene İnanma” başlığıyla yer alır.
[81] “Gét” başlıklı şiir ÉMDA’da aynı başlıkla yer alır.
[82] “Ömrün Serhedleri – I” AHV’da yeni başlıklar eklenerek genişletilmiş ve öyle yayımlanmıştır.

194

Qarqar Ağıları

Yanırdı üreyim Qarqara gétdim,
Könlümde bir qorxu, bir qara, gétdim.
Mene su vérmedi orda periler,
Dédiler: dağlarda qar ara, gétdim...

Néynim ki hemişe qar qara yağır,
Fağıra felaket, derd, qara yağır...
Uzaqda bir bulud havalandı, ah...
Göy dere sümürdü, Qarqara yağır...

Uzaqdan Qarqara vuruldum, Allah,
Sévindim, şadlandım, duruldum, Allah...
Bu deli sévdadan qurtulammadım,
Daha apar meni, yoruldum, Allah...

Könlüme qar yağdı baharda béle,
Béle iş görünüb dé, harda béle?..
Göy yurda elenir qar da, Qarqar da,
Bu Qarqar da béle, bu qar da béle...

Qarqar özge yurda axır déyesen...
Şimşekler oynaşır, çaxır déyesen...
Könlümde sızılar, ahlar, feğanlar,
Éşqimde son nöqte-axır déyesen...

195

01 Şükür varlığına, şükür İlahi,
02 Néce yaratmısan bal bu sévgini...
03 Sévimli kederdi, şirin beladı
04 Onun da qelbine sal bu sévgini...

05 Mecnuna, Léyliye şöhret gönderdin,
06 Eslinin başına alov enderdin...
07 Keremin ömründe küle dönderdin,
08 Lalenin bağrında xal bu sévgini...

09 İlahi, bu éşqle oldum derbeder,
10 Öldür, onu sévmek günah sa eger.
11 Ya onun qelbine bir sévgi gönder
12 Ya menim qelbimden al bu sévgini...

13 Bir ildir ağlayıb feğan éyledin,
14 Duymadı... ömrünü qurban éyledin...
15 Az qala göylere üsyan éyledin,
16 Üreyim, unudaq gel bu sévgini...

196

01 Senin kefenin de, donun da menem,
02 Senin xeyalında, canında menem
03 Her zaman, her yérde, yanında menem,
04 Sen meni unuda bilmeyeceksen...

05 Yanınca kölgetek sürüneceyem,
06 Gözüne ruh kimi görüneceyem,
07 Sözüne, fikrine bürüneceyem,
08 Sen meni unuda bilmeyeceksen...

09 Seni öle-öle unudacağam,
10 Seni güle-güle unudacağam.
11 Bunu bile-bile unudacağam,-
12 Sen meni unuda bilmeyeceksen...

13 Bu sévda yolunda ömrüm héç oldu,
14 Qayıtmaq isteyin yéne géc oldu...
15 Bir vaxt déyeceksen: “Gören nécoldu?”
16 Sen meni unuda bilmeyeceksen...

197

01 Bayram oldu, éller güldü, sévindi,
02 Menim ise qaş-qabağım açılmır...
03 Bahar geldi, çöller yaşıl géyindi,
04 Üreyimde bir yarpağım açılmır...

05 Namerd elle alçalmışam, énmişem,
06 Coşqun çaydım, yavaşıyıb sénmişem...
07 Derd elinden, bax yumağa dönmüşem,
08 Düyün düşüb bir yumağım açılmır...

198

01 **Qorxular Hedeler O Qederdi Ki**
02 Bu heyat döyüşdür başdan ayağa,
03 Könlümde zedeler o qederdi ki.
04 Gizlice qurulan teleler kimi
05 Görüşler, ve'deler o qerdi ki...

06 Hayanda aş olsa, orda baş olan,
07 Quruyla qupquru, yaşla yaş olan.
08 Bu xalqın başına qara daş olan
09 Zırrama gedeler o qederdi ki...

10 Şırvana-şırvana quyruq bulayan,
11 Éşşektek anqırıb, qurdtek ulayan,
12 Téz-téz üzr isteyib méydan sulayan
13 Bu "...zade" dedeler o qederdi ki...

14 Millet-millet déyib milleti minen,
15 Bed günde sıpıxıb, şad günde dinen,
16 Qalxanla yükselen, énenle énen
17 Üreyi sadeler o qederdi ki...

18 Bize Haqqdan özge yiye bilmirem,
19 Dözürük zillete niye, bilmirem.
20 Çox şéyi ağardıb déye bilmirem
21 Qorxular, hedeler o qederdi ki...

199

Bir Xeber Dé

Ürek alışdı kül oldu,
Ondan mene bir xeber dé.
Bir gün san ki bir il oldu,
Ondan mene bir xeber dé.

Hardadı, gören néyleyir,
Susmaqla zülüm éyleyir...
Qaramca neler söyleyir?-
Ondan mene bir xeber dé.

Kéçdim éşqin kemendine,
Atıldım gül semendine...
Düşdüm “benövşe bendine”
Ondan mene bir xeber dé.

Ne olub, belke xestedi,
Her an qulağım sesdedi...
Ürek haykırıb sesledi,-
Ondan mene bir xeber dé.

Küsübse könlün alaram,
Onsuz saralıb, solaram...
Öl dése, Vallah ölerem,
Ondan mene bir xeber dé.

200

Hardasan

Bu dünyada biz üz-üze gelmedik,
Meni séven, men sévdiyim, hardasan?!..
Bir-birmizi tanımadıq, bilmedik,
Meni séven, men sévdiyim, hardasan?!..

Beyenmedim mene héyran gözeli,
Men sévdiyim menden uzaq dolandı...
Béle oldu bu yazının ezeli,
Héy varlığım ateşlere qalandı,
Meni séven, men sévdiyim, hardasan?!..

Belke éle el édirsen dünyaya
Belke indi seksen yaşlı qarısan.
Boyun eyib bir taléye, bir paya,
Belke sen de bir özgenin yarısan,-
Meni séven, men sévdiyim, hardasan?!..

Belke hele gelmemisen Cahana,
Bir gözelin betninde yol gelirsen...
Sığışmayıb indi vaxta-zamana
Öz bextine yuxularda gülürsen...
Meni séven, men sévdiyim, hardasan?!..

Belke menden min il evvel yaşayıb,
İndi qar tek elenirsen başıma...
Yaz gelende qol dibinde utancaq
Benövşe tek sen çıxırsan qarşıma?..
Belke éle suya dönüb axırsan
Bir bulağın gözlerinde yaş kimi...
Yolum üstde yollarıma baxırsan,
Bir yamacda bir sal qaya, daş kimi...

Meni séven, men sévdiyim, hardasan?!..
Heyat oyun, sévgi oyun, müemma,
Dünya sirdi, sen bextimin sirrisen.
Sen varsansa, burdasansa, utanma
Belke éle bu qızlardan birisen
Meni séven, men sévdiyim, hardasan?!..

Sen varsansa hay vér menim sesime,
Ölmüsense, men arxanca ağlayım...
Bax, başımda dumanıma, sisime
Vüsalını uzaqlara saxlayım...
Meni séven, men sévdiyim, hardasan?!..

40 Tek ağacam, sen-suyum, sen-torpağım,
41 Lüt-üryanam, sen gülüm, sen yarpağım...
42 Göyde kéyfim, göz üstünde papağım,
43 Meni séven, men sévdiyim, hardasan?!..

44 Sensizliyim saçlarımda qar olub,
45 Üreyimde yuva salıb keder-qem...
46 Yalqızlıqdan dünya mene dar olub,
47 Bir ocaqda tüstülenen kösövem...
48 Meni séven, men sévdiyim, hardasan?!..

201

01 Ay ömrümün seadeti, gezme uzaq,
02 Hesretine-melalına qurban olum.
03 Yollarında ümidlerim çıraq-çıraq,
04 Görüşüne, vüsalına qurban olum...

05 Sen uzaqsan, sen ucasan, yétmir elim
06 Hesretinden bağrım başı dilim-dilim.
07 Xeyalınla kéçir günüm, ayım, ilim,
08 Suretine, xeyalına qurban olum...

09 Sen ay kimi, sudan duru, doğru, düzgün,
10 Bax, gör néce axıb gédir bu ay, bu gün...
11 Éh... taléyin caynağında yorğun, üzgün,
12 Qederine, bu halına qurban olum...

202

01 **Ağla Göyüm Ağla**
02 Doluxsunub, yumub, yumub tökürsen,
03 Ağla, göyüm... ağla, göyüm... ağla héy...
04 Menim kimi sen de ağrı çekirsen,
05 Ağla, göyüm... ağla, göyüm... ağla héy...

06 Orda senin qaş-qabağın tökülü,
07 Yérde menim bağrım başı sökülür...
08 Ah... tek bulud menim kimi hönkürür,
09 Ağla, göyüm... ağla, göyüm... ağla héy...

10 Kimse yérden yoxsa sene daş atdı,-
11 Şimşeklerin hirsin ora boşaltdı...
12 O da menim gözlerime yaş atdı,
13 Ağla, göyüm... ağla, göyüm... ağla héy...

14 Men ağlasam, yér yanar daş alışar,
15 Od ağlaram gözümde yaş alışar...
16 Sen ağlasan yér de, göy de barışar
17 Ağla, göyüm... ağla, göyüm... ağla héy...

18 Anam yoxdu, bacılarım-uzaqda...
19 Ömrüm-günüm bir tufanda, sazaqda
20 Ölsem meni kim ağlayar Qazaxda...
21 Ağla, göyüm... ağla, göyüm... ağla héy...

203

01 Güneş yağıb tepelere éle bil,
02 Gül sélinde üzür qara qayalar...
03 Sarı-sarı şefeqlerdi, gül déyil,
04 Bir daş olam o yamacda qoyalar...

204

01 Anlaşılmaz bir sévda var başımda
02 Açammıram éle qönçe qalacaq...
03 Ağ saçlarım gül açıb bu yaşımda,
04 Xeyalımın el çatmayan yérinde
05 Vaxt kéçecek... éh... günlerin birinde
06 Bax, hesretin saçlarını yolacaq...

07 Bir anasız sévda meler içimde
08 Bu yiyesiz éşqim ağlar... hardasan...
09 Ölmez ümid geler... öler içimde
10 Bilirsenmi be kim ağlar... hardasan...
11 Boylanırsan sen ay kimi uzaqdan,
12 Men susuzam, sen çay kimi uzaqda...
13 Bir şérim qönçelenib ne vaxtdan
14 Könlüm onu sene saxlar... hardasan...

205

01 **Arxanca Baxırdım**

I

02 Eynine géce géymişdin
03 Başında moruq yarpaqlar...
04 Ayağın altında-daşlar
05 Yad ayaq altda-torpaqlar...
06 Fikirlerde bir dumanlıq
07 Coşmuş séller tek bulanıq
08 Yére soxulmuşdu boylar,
09 Mıxda qalmışdı papaqlar...
10 Fikrinde sene vurulan,-
11 Ne iten, ne de yorulan...

12 Gédirdin başı dumanlı...
13 Gédirdin ahlı-amanlı...

206

II

01 İlahi şérler yazanı sévdin
02 Hele qız yaşında, beyaz, bakire.
03 Şirin günahlarda azanı sévdin
04 Qara karvan kéçer... milyon it hüre...
06 Gédirdin yaralı... qelbi qaralı...
07 Özünden aralı... menden aralı...

207

01 Ruhum qarşında körpüydü,
02 Meni ayaqlayıb kéçdin...
03 Duydun-qoymaram düşesen,-
04 Sağ ol! Meni sayıb kéçdin...

05 Qelbimdedir lepirlerin,
06 Silinmezdir izler derin...
07 Üreyimden yox xeberin-
08 Yana-yana qoyub kéçdin...

09 Sen gelmişdin iman kimi,
10 Çıxıb gétdin bir çan kimi,
11 Göyden geldin léysan kimi-
12 Varlığımı oyub kéçdin...

13 Ölmerem canım sendedir,
14 Vaxtım-zamanım sendedi,
15 Gör taléyim ne gündedi-
16 Sen qarğayıb, öyüb kéçdin...

208

Unuda Bilmedim

Kéçer aylar, illler, döner dövranlar,
Deyişse inanclar-dinler, imanlar
Unudulsa derdler-ahlar-amanlar.
Men seni unuda bilmeyeceyem...

Qazıldın könlüme pozulması yox,
Başqa birisinin yazılması - yox...
Ruhumun ruhundan üzülmesi - yox,
Men seni unuda bilmeyeceyem...

Çağırsan sévincden uçub gelerem
Ömrümden -günümden kéçib gelerem...
Könlüne-gözüne köçüb gelerem,
Men seni unuda bilmeyeceyem...

Sen de menim kimi taléyi kemsen,
Başdan ayağadek sévdiyim qemsen,
Ölsem gül getirme, gel, benövşemsen
Men seni unuda bilmeyeceyem...

209

Kimi qarı gözleyir
Lopa-lopa ağ qarı...
Kimi yazı gözleyir
Gül-çiçekli baharı...
Kimi yağış gözleyir
O büllur damlaları...
Kimi sévinc gözleyir
Bitsin derdi-qubarı...
Héy hesretle baxıram
Çiskin yollara sarı...
Men ise gözleyirem
Gelmeyecek o yarı....

210

01 Ay girdi buluda yéne,
02 Göy yurda baxmağa gétdi.
03 Adı gözel bir bozqıra
04 Gülünü taxmağa gétdi...

05 Göy yurdda sineler açıq,
06 Heyalar mıxdan asılı...
07 Bozqırda éh neler açıq,
08 Abırlar künce qısılı...

09 Canım-gözüm, oğrun-oğrun
10 Buludlardan bax, yaxşı bax...
11 Meni ne güne qoymusan
12 Ax...ürek...ax...ax ürek, ax...

211

01 Bu qaranlıq dünyanın
02 Söyle harasındasan?
03 Bilirsen mi ağında,
04 Yoxsa qarasındasan?

05 Bextin -qara, sen - qara
06 Ömrün yarı - ten qara…
07 Bu dağlarda çen - qara,
08 Dağlar arasındasan…

09 Daha ne danış, ne din,
10 Olacaqsan héç kimin…
11 Çox terpetme, qelbimin
12 Çarpaz yarasındasan…

212

Unudacağam

Seni unutmağım çox çetindi, çox...
Déme éle-béle unudacağam.
Bu éle beladır-bir çaresi yox,
Ömrü vérib yéle, unudacağam…

Düşersen yarama acı duz kimi,
Yanıb-yaxılaram, men susuz kimi...
Eriyib géderem salxım buz kimi,
Seni gile-gile unudacağam...

Bil ki, yollarımda gözün qalacaq,
Ruhumda lepirin-izin qalacaq,
Bilirem unutmaq çetin qlacaq,
Seni öle-öle unudacağam…

Yanıb, men bu éşqin külü olacam,
Bir yétim feryadın zili olacam...
Ağlımı itirib deli olacam
Seni güle-güle unudacağam...

Bir éşq mezarlığı olubdu içim,
Öldü sévmek éşqim, sévilmek éşqim...
Yatmaz üreyime bir daha héç kim,
Bunu bile-bile unudacağam..

213

Kéçer

Büllur sözlerini çox yayımlama
Her terif kurşun tek sinemden kéçer...
Pozular ehvalım, qaralar qanım,
Her günüm, saatım bu qemnen kéçer...

Sen yérde gülümsen, göyde ayımsan,
Tanrı gönderdiyi talé payımsan.
Menden çox cavansan, démem tayımsan
Sensiz, ömrüm-günüm sitemnen kéçer...

Özün dağ lalesi, sözün benövşe,
Üzün bilmesem de, könlün bir şüşe...
Senden uzaqlarda bil ki hemişe
Qelbim qan ağlayar, bu demnen kéçer...

214

Gizlice

Ne men seni görüm, ne de sen meni
Belke, için-için yanaq gizlice?..
Sessiz söhbetleri, sessiz sözleri,
Sızlaya-sızlaya anaq gizlice...

Fikrimi-zikrimi qandallayıbsan,
Bu éşqi-sévgini gizlet, ayıb san;
İçinde bir çınqı varsa onu dan,
Yoxsa hücum çeker qınaq gizlice...

Ne seni düşünüm, ne meni düşün,
Yalquzaq teklikden üşürge-üşün...
Düşek ağuşuna payızın, qışın,
Dönek buz héykele donaq gizlice...

Gizlet yazdığımı, poz yazdığımı,
Min yére, min semte yoz yazdığımı;
Néce var élece düz yazdığımı
Görerler,gizleyek, sunaq gizlice...

Senin defterinde hökmüm yazılıb,
Kendirim kesilib, ümid nazilib;
Bextımın, éşqimin qebri qazılıb,
Bu da Tanrıdan mı - sınaq, gizlice?..

Her yaz lale kimi çıx bizim düze,
Axım sular kimi sizin kehrize,
Barı, bilmesinler, bir-birimize
Gelek yuxularda qonaq gizlice...

Ömrü bu sévginin bura qedermiş,
Oduna yanmağım démem hedermiş;
Bu menim taléyim - qeza-qedermiş,
Néynek, için-için yanaq gizlice,

215

01 Bu Géce Yuxuma Gelmişdin

02 Bu géce yuxuma gelmişdin, gözel,
03 Sen melhem olmuşdun derdi-serime.
04 Başımı qoymuşdum köksüne éle...
05 Etrini çekirdim ciyerlerime...

06 Bu géce yuxuma gelmişdin, gözel,
07 Héç béle déyildim ilk baharımda.
08 Ellerim, qollarım benövşe idi,
09 Qızılgül açmışdı ağ saçlarımda...

10 Bu géce yuxuma gelmişdin, gözel,
11 Çökmüşdün ruhuma ağ duman kimi...
12 Néce bexteverdim... néce gözeldin...
13 Şirin xeyal kimi, xoş güman kimi.

14 Bu géce yuxuma gelmişdin, gözel,
15 Bu xeyal dumanda itmek, ne gözel...
16 Batıb ağuşunda bexteverliyin
17 Gétmek, uzaqlara gétmek, ne gözel...

216

Hele Gözleyirsen

Hele var qelbinde birisi, hele
Hele üreyinde menim yérim yox...
Hele gezleyirsen hele susursan,
Könlünü inleden sözüm, şérim yox...

Sen de gözleyirsen men de bélece,
Onun gülüşleri çıxmır yadından...
Men ölüb-dirilim günde bélece,
Sen meni yola vér onun adından...

Men béle énmedim hele héç kime
Sen gahdan dolursan, gah boşalırsan.
Belke de gülürsen menim éşqime,
Gédenin héyfini menden alırsan...

Bilsem ki onunla üzün gülecek,
Men onu qaytarıb getire billem...
Menim üreyimi béle dağlama,
O yansa men seni itire billem...

Hele üreyinde sızlayır yéri,
Hele de başında çenler-dumanlar...
Hele de ümid var:”dönecek géri…
Unuda bilmeyir unudulanlar...

217

Unutdum allahı seni sévenden
Xeyalın önünde rüküde durdum...
Bu namerd dünyamda her yan duman-çen,
Sensiz ne vardısa söküb uçurdum...

218

Elvida

Yumdum gözlerimi senin yoluna
Bir de o yollara baxmayacağam.
Hesretden eriyib suya dönsem de
Arxanca sürünüb axmayacağam...

Dünya dağılardı sen meni sévsen,
Déye bilerem mi gel meni sév sen?
Sen başdan binadan yıxılı évsen
Neyin var ki yıxam, yıxmayacağam...

Özünü ha gizlet ha bağla béle,
Sinemi çal-çarpaz ha dağla béle.
Sonradan ha sızla, ha ağla béle
Kövrelib özümden çıxmayacağam...

Daşı üreyinde sen onu daşı,
Seni anmayacam her qedem başı...
İçime axacaq gözümün yaşı,
Sızlayıb gözümü sıxmayacağam...

219

Çox Uzaqlarda

Sen şirin xeyaldın... xeyal da qaldın,
Éle xeyal kimi çox uzaqlarda...
Néçe yol, néçe yol canımı aldın
Nağıl-vüsal kimi çox uzaqlarda...

Ne elim çatandı, ne ünüm yéten ,
Qerib benövşesen, daşlarda biten...
Xeyal dumanında gözümden iten
Yorğun, bihal kimi, çox uzaqlarda...

Men sene teşneyem bir nefes kimi
Meni sévindiren neğme, ses kimi...
Ruhuma ebedi bir qefes kimi...
Sen, bitmez yol kimi… Çox uzaqlarda...

Qarqarda çimirsen, aydan baxırsan
Kamanda sızlayıb, néyden baxırsan...
Sen üstden aşağı göyden baxırsan
Üfüqde xal kimi... çox uzaqlarda...

220

Yuxu

Gözlerin yollarımda,
Cismin se qollarımda...
Talé payın olaydım...
Yolun-izin sarıdan
Çox arxayın olaydım...
Ömrüm bitene qeder
Xeyalın gözlerimden
Sönüb itene qeder,
Sen yanımda olaydın...
Ruh kimi, can kimi
Sen canımda olaydın...

Üreyimde, gözümde
Yanaydın çıraq kimi
Qelemimin önünde
Bir esmer varaq kimi...
Xumarlanıb yataydın
Gülüstan torpaq kimi...
Gün kimi seherleri
Men köksünden çıxaydım...
Axşamları qayıdıb
Üreyinde bataydım...

221

01 Men qaranlıqda bir ayam
02 Sen ayda bir qaranlıqsan...
03 Müemmasan başdan-başa
04 Sen sorğusuz divanlıqsan...

05 Sen belasan, gizlin bela,
06 Meni saldın haldan hala...
07 Oxşayırsan büllur bala
08 Sen sonrakı péşmanlıqsan...

09 Sözün gizlin,üzün gizlin
10 Onun gizlin, yüzün gizlin...
11 Eyrin gizlin, düzün gizlin,
12 Başdan-başa dumanlıqsan…

13 Éle bilme koram, karam
14 Düneninden xeberdaram...
15 Qıl namazın aram-aram,
16 Déye bilmem imanlıqsan...

17 Sen oxuyan gécequşu
18 Apardın ağılı-huşu...
19 Bu sévdanın yox uduşu,
20 Éşqime nagümanlıqsan…

222

01 Sen meni Allaha emanet étme,
02 Sen meni özüne emanet éyle.
03 Yandır hesretinle yandır qelbimi,
04 Öldür bir şairi cinayet éyle...

05 Fikrimden, duyqumdan gétmirsen, niye?
06 Heyatda men varam-sen varsan déye...
07 Allahdan aşağı-böyük sévgiye
08 Menimle beraber ibadet éyle…

09 Ebedi bu éşqe sürgünem, gözel,
10 Qelbimde yurd saldı daha qem gözel,
11 Könlümün-gözümün seni kem, gözel,
12 İnsaf ét, sen mene inayet éyle...

13 Danıb dédiyini - pisdeme meni
14 Benzetme, benzetme héc kime meni,
15 Allah bağışlayar éşqime meni,
16 Sen se üreyine xeyanet éyle...

223

Belke
Sen indi göylerde-yéddinci qatda...
Könlümü taptala, héy ez... Sen, gözel...
Belke bir sözünce yoxam heyatda,
Belke bir misrama deymezsen, gözel…

Daha sıyrılmışam qınımdan… Daha,
Daha umudum var gelen sabaha...
Batmışam éşq adlı gözel günaha
Sen meni duymazsan, duymazsan, gözel

Uydun çévrendeki olan birlere,
Güvendin daş altda qalan sirlere...
Éşqim, ağzın açmış azman bir dere
Çox azsan, çox azsan, çox azsan, gözel...

224

Gözleyenin Ola

Gözleyeni ola adamın, Allah,
Bilesen yoluna kim ise baxır...
Bilesen géciksen, bir az lengisen
Kimi se xiffetin yandırıb-yaxır...

Bilesen vurnuxur kimse senինçün,
Bilesen kim ise intizardadır...
Yoxluğun qelbinde ola dağ-düyün,
Vurnuxa, darıxa: “Gören hardadır?“

Sen de ki uçasan yol gözleyene,
Çatıb sarılasan yanmış, ac kimi...
Öpüb oxşayasan, könlün alasan...
Sen tamarzı kimi, sen möhtac kimi...

O da gülümseye, güller açıla,
Batıb barınasan gül denizinde...
Her yana nur yağa, etir saçıla,
Bir hüzur tapasan céyran izinde...

Ovcunda döyüne ilahi narlar,
Pembe yanaqlardan alma deresen...
Üreyinde bahar, başında qarlar,
Bextever olasan, bir gün göresen...

Uyuyub yatasan qara gözlerde,
Baxışı üstünde yorğanın ola...
Orda yér qalmaya kedere, derde,
Sen onun ruhu, o canın ola...

Ömrünü -gününü sovurma yéle,
Ne çıxar derdlere héy sine ger, sen...
Seadet déyirler, budur, bax béle,
Gözleyenin varsa, sen bexteversen.

Gözleyeni ola adamı, Allah,
Bilesen yoluna kim ise baxır...
Bilesen géciksen,bir az lengisen
Kimi se xiffetin yandırıb-yaxır...

225

Orda...Xeyalımın Uzaqlığında

Orda, xeyalımın uzaqlığında...
Bir gözel qelbiyle üz-üze qalıb...
"Gören ne déyerler..." mengenesinde,
Tene tüstüsünde, qınaq hisinde
Bu derd kötüyünde möcüze qalıb...

Hebs édib éşqini öz üreyinde.
Feryadı göylere ucalır, Allah!..
Qınaq qalasında, yalqız, çaresiz
Yanır için-için sessiz, nalesiz
Orda bir mehebbet qocalır, Allah!..

Orda, xeyalımın uzaqlığında...
Bu derd kötüyünde başı müntezir...
Torpağı müntezir, daşı müntezir...
El açıb göylere, bir çare gezir...
Vurğunun yazdığı o Humay kimi,
Yérde çiçek kimi, göyde Ay kimi...
Mavi penceresi üzüme bağlı...
Menim sinem kimi sinesi dağlı...

Orda, xeyalımın uzaqlığında...
Derdiyle baş-başa bir qız ağlayır...
Atadan, anadan, qardaşdan uzaq,
Dostdan, aşinadan, sirdaşdan uzaq
Başı derd elinde, yalqız ağlayır...

Orda, xeyalımın uzaqlığında...
Bir boş mezar baxır yollara sarı...
Bitmiş çévresinde derdi-qubarı...
Bir gözel dayanıb orda gül kimi...
Éle bil çırtlayıb qarda gül kimi...
Gözünden yaş déyil benövşe yağır...
Sükut qurğuşun tek, ağırdan ağır..

Orda, xeyalımın uzaqlığında...
Bir esmer gözelin göz yaşlarından
Boş mezar güllenir, benövşelenir...
Hardandı üzümü qarsan bu henir?!
Qebirden dirilb qalxıram, Allah!..
Ne qeder yaxındı arzu-kam, Allah!..

38 Orda, xeyalımın uzaqlığında...
39 Qefil ayılıram deli xeyaldan...
40 Hava aydınlaşır, gün doğur yéne...
41 Qopur xeyalımın eli xeyaldan,
42 Göyden hesret yağır, derd yağır yéne...

43 Orda, xeyalımın uzaqlığında...
44 Orda göy gurlayar, bir léysan başlar...
45 Orda qızılgül tek boynun eyersen...
46 Gözünden séllener benövşe yaşlar...
47 Orda, xısın-xısın bir léysan başlar…

226

01 Dağıma çen gelmişdin,
02 Bağıma den gelmişdin,
03 Sen göylerden gelmişdin
04 Yéne göye çekildin...

227

01 **Bir şaire**
02 Gözümüz süzüler, gözünü süzme
03 Ehsen yaradana, bu bağça-bağa..
04 Yazma, oxu, gözel, özünü üzme,
05 Sen éle şéirsen başdan ayağa...

228

Alqışlar

İstiler boğurdu dağı, aranı,
Göyler itirmişdi çeni-dumanı.
Başladı, başladı bahar léysanı
Yarpaqlar el çaldı...

Göyler asım-asım bulud getirdi,
Ağaclar éle bil cırıq çetirdi.
Başladı, başladı payız léysanı,-
Son yarpaq, son bahar tir-tir esirdi,
Budaqlar el çaldı...

Bayırda qar idi, qarda bir qarı,
Qar qarını sévmez, qarı da qarı.
Yıxıldı, güldürdü, bax, uşaqları,-
Bu néce yığnaqdı, néce mahaldı -
Uşaqlar el çaldı...

Bu da bir talédi-bextdi, nedi se,
O gözel sındırdı könül tarımı…
Üzde ağız büzüb beyenmedi se,
Oğrun oxuduqca yazdıqlarımı
Dodaqlar el çaldı...

Kerpic-kerpic sökdüm ömrümü éle,
Payladım könlümü her ehli-dile.
Ürek tonqalımda bişdi sözlerim
Alovum saçımda çévrildi küle.
Ağzına su alıb susdu yaxınlar,
Uzaqlar el çaldı...

229

Dumanda Röya Tek İten Benövşem

Uzaqdan uzağa qoy sévim seni,
Uzaqdan uzağa elim çatmasın...
Uzaqdan uzağa qoy sévim seni,
Sene söz démeye dilim çatmasın...

Uzaqdan uzağa buluda dönüm
Dolub başın üstde sıxım gözümü...
Uzaqdan uzağa qoy sınım-énim,
Éşqimin önünde xıxım* özümü... (*eyim)

Uzaqdan uzağa çekim şeklini,
Qarqar sahilinde biten benövşe.
Xeyaldan yıxılıb, boylanıb baxsam
Dumanda röya tek iten benövşe...

Dinme, boynubükük benövşe kimi,
Birce “yox” sözünle durdun qesdime.
Qelbimde doğulan körpe éşqimi
Hicrana beleyib atdın üstüme...

Uzaqdan uzağa qoy sévim seni,
Başımın üstünde ay kimi dolan...
Soyuq şefeqlerin éle besimdi,
Teki sen göyümde béle alış, yan...

Men sene yaraşmam, gözelsen, gülüm,
Yazdığım şéirler yaraşa, belke…
Varsan sa ölmerem, yoxsan sa öllem,
Cismim torpağına qarışa, belke...

230

01 Dövran namerd, insan namerd,
02 Könül, namerd ol, namerd ol.
03 İman namerd, güman namerd,
04 Könül, namerd ol, namerd ol...

05 Namerdler derdden yan kécir,
06 Gözeller merdden yan kéçir,
07 Vaxt-zaman ne yaman kéçir?
08 Könül, namerd ol, namerd ol...

09 Merdler döyüşde can vérdi,
10 Namerd sağ çıxdı, bu sirrdi.
11 Tanrı namerdle dilbirdi?
12 Könül, namerd ol, namerd ol...

13 Merdler kül altda qor oldu,
14 Élçün ağlayıb kor oldu.
15 Sebrim tükendi, yoruldum,
16 Könül, namerd ol, namerd ol...

17 Merdler düz oldu, düzdedi
18 Namerdler ekib düzledi.
19 Merd batdı, namerd üzdedi
20 Könül, namerd ol, namerd ol...

21 Talé meni yaman qovur,
22 Varlığımı döyüb ovur.
23 Her şéyi küleye sovur,
24 Könül, namerd ol, namerd ol...

25 Men ne gördüm bu alemde,
26 Ömrüm-günüm kéçdi qemde.
27 Ola bilmir, men désem de
28 Könül, namerd ol, namerd ol...

231

01 O qalın qaşlara, qonur gözlere
02 Üzünde xallara vuruldum, canım...
03 Deli hesretinle düşdüm çöllere,
04 Namerd ayrılıqdan yoruldum, canım...

05 Éşq tek ekildim sévda çölünde,
06 Suyum, havam, günüm senin elinde...
07 İnsafı-mürveti olur gülün de
08 Biçildim, döyüldüm, sovruldum, canım...

232

01 Biri mene "usta" dédi
02 O, ustalar ustasıdı.
03 Mekanı lamekan idi
04 Astaların astasıdı...

05 Bax, dolanır min ad ile
06 Hem dost ile, hem yad ile,
07 Gül vururdu feryad ile
08 Bilmem kimin bestesidi...

09 Ovlayıbdı çoxu, duydum
10 Köksünde yüz oxu duydum...
11 Etrinde çox qoxu duydum
12 Derilmiş gül destesidi...

13 Dayan yüz yol sesde, gétdi...
14 Ötüb zilde, pesde, gétdi
15 Meni de mi xeste, gétdi…
16 Özü gözel xeste idi...

233

Nevem Turana Mektub
Éle bilirem ki yad bir yérdesen
Éle bilirem ki qeribsen orda
Atan da anan da bir duman, bir çen
Seni qanadında getirib yurda

Menim ruhumsan, canımsan Turan
Men gezen, görünen kölgeyem daha
Menim menden sonra sanımsan Turan
Men meğlub, basılmış ölkeyem daha

Doğub töreyersen, qalxarsan bir gün
Basılmış yurdları alarsan canım,
Gelib qebrim üste, o gün toy, düyün,
Babanı yadına salarsan canım.

234

Ağlama
(Nevem Turana)
Canım, gözüm, yağış yağır gözünden,
Zülüm-zülüm bu qılıqla ağlama.
Atan-anan, nenen, baban yanında,
Üreyimi, of, dağlama, ağlama...

Sen gülende güneş doğur üzünde,
Güller açır çehliminde, izinde,
Min neğme var anlaşılmaz sözünde,
Çaylar kimi coşub çağla, ağlama...

Böyü, boy at, sév élini, obanı,
Qoy men alım her ağrını-qadanı.
Bir gün ölsem kim ağlayar babanı?
Göz yaşından bir az saxla, ağlama...

Bacılarım, gözlerde yaş qalmayıb...
Çox vuruldum, ellerde daş qalmayıb...
Atam-anam olaydı kaş, qalmayıb...
Sen yaşama bu feraqla, ağlama...

Bir gün senden olacam çox uzaqda,
Ruhum sende, cismim ise Qazaxda...
Baxma vaxta, günde, qarda, sazaqda
Herden gelib meni yoxla, ağlama...

235

Méydan Tülkü Méydanıdı
Zemane bed geldi, lele,
Méydan tülkü méydanıdı.
Ömrüm yanıb döndü küle,
Méydan tülkü méydanıdı...

Pelengler quyruq bulayır,
Qurdlar xelveti ulayır,
Tülküler méydan sulayır,
Méydan tülkü méydanıdı...

